RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 163 (10183) 9 sentyabr 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Azərbaycanın təmin etdiyi ədalət dünyaya nümunədir



## İlham ƏLİYEV: "BMT Təhlükəsizlik Şurasının qətnamələrinin qısa müddətdə icrası üçün müvafiq mexanizmlərin hazırlanması tələb olunur"

Azərbaycan BMT ilə əlaqələrə hər zaman böyük önəm verib. 1992-ci il martın 2-dən bu quruma üzv olan respublikamızın BMT ilə əlaqələrinin inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Heydər Əliyev BMT-nin müxtəlif sessiyalarında Ermənistan-Azərbaycan münaqişəsini dünya ictimaiyyətinin nəzərinə çatdırıb, ölkəmizin prinsipial mövqeyini ortaya qoymuşdu. Prezident İlham Əliyev də daim bu əlaqələrin inkişafının tərəfdarı olub. Ölkəmizin rəhbərinin bu qurumun tribunasından etdiyi çıxışlar Ermənistanın işğalçılıq siyasətinin ifşası baxımından çox vacib əhəmiyyət daşıyıb.

Bu mənada ötən il BMT Baş Assambleyasının 80-ci yubiley sessiyasında Prezident İlham Əliyevin iştirakı həm də rəmzi məna daşıyırdı. Azərbaycan Prezidenti bu mötəbər sessiyaya bu dəfə məhz BMT TŞ-nin qətnamələrini özü yerinə yetirən qalib ölkənin lideri kimi qatılmışdı.

"Uzun illər ərzində mən bu kürsüdən Azərbaycana qarşı törədilmiş təcavüz, işğal və ədalətsizlik faciələri barədə danışmışam. Bu gün isə qələbəyə və sülhə aparan uzun yolumuzdan, Azərbaycan tarixində yeni dövrdən, Vətən müharibəsi ilə işğala necə son qoyulduğundan, sülhü siyasi vasitələrlə necə təmin etməyimizdən danışacağam", - deyən Prezident İlham Əliyev bu qlobal tribunadan Azərbaycanın ötən üç onillik zaman dilimində qət etdiyi keşməkeşlərdən, haqq və ədalət uğrunda sarsılmaz mübarizədən keçərək bugünkü tarixi zirvəyə yetən qələbə yolundan qürurla danışdı.

Azərbaycanın BMT TŞ qətnamələrini təkbaşına icra etməsi bölgəyə yalnız hərbi zəfər gətirmədi. Bu Zəfər həm də Cənubi Qafqaza davamlı sülh və birgəyaşayış modeli bəxş etdi.

Ölkəmizin yaratdığı bu yeni reallıq həm də onu sübut etdi ki, sülh və sabitlik kağız üzərindəki bəyanatlarla deyil, güclü siyasi iradə və ədalətə söykənən addımlarla əldə olunur. Bu gün Azərbaycan işğaldan azad edilmiş torpaqlarında quruculuq işləri aparmaqla yanaşı, Ermənistana neft məhsullarının tədarükünü, tranzit daşımaları və yeni kommunikasiyaların açılmasını təmin edərək bölgəyə tamamilə fərqli bir əməkdaşlıq mühiti gətirib.

BMT kimi mötəbər bir qurumun qəbul etdiyi fundamental qətnamələrin 30 ilə yaxın müddətdə icrasız qalması təşkilatın daxili mexanizmlərinin nə qədər iflic vəziyyətdə olduğunu göstərdi. Azərbaycanın öz gücünə söykənərək BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini döyüş meydanında və diplomatik masada icra etməsi, həm də beynəlxalq hüququn aliliyinin yenidən bərpası üçün parlaq Zəfər modelinə çevrildi.

3

## Azərbaycan-Şimali Makedoniya əlaqələri xoş ənənələr üzərində qurulub



### Şimali Makedoniya Respublikasının Prezidenti zati-aliləri xanım Qordana Silyanovska-Davkovaya

Hörmətli xanım Prezident!

Şimali Makedoniya Respublikasının müstəqilliyinin 35-ci ildönümü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Xoş ənənələr üzərində qurulan Azərbaycan-Şimali Makedoniya dövlətlərarası əlaqələrinin və tərəfdaşlığının möhkəmlənməsi və ildən-ilə yeni məzmunla zənginləşməsi məmnunluq doğurur.

Bu gün tərəfdaşlığımızın əhatə dairəsinin genişlənməsi üçün yaxşı imkanlar vardır. İnanıram ki, dost xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan ilə Şimali Makedoniya arasında əlaqələrin möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli əməkdaşlığımızın daha da genişləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 sentyabr 2026-cı il*

## Revanşistlərin ucuz şousu

### Müharibə canilərini müdafiə etmək cəhdləri mənasızdır

Ermənistan hüquq müdafiəçisinin sentyabrın 4-də İrəvanda mətbuat konfransında səsləndirdiyi absurd iddialar da məhz həmin revanşist və lobbi dairələrinin sifarişi ilə təşkil olunmuş sistemli informasiya hücumunun tərkib hissəsidir. Erməni tərəfi iddia edib ki, Azərbaycan ərazisində törətdikləri ağır cinayətlərə görə həbs olunmuş erməniəsilli şəxslər guya dini mənsubiyyətlərinə görə ayrı-seçkiliyə və işgəncələrə məruz qalır, xristian dini simvolları məhv edilir, onlara "İncil" oxumağa icazə verilmir, əvəzində "Quran" oxumağa məcbur edilirlər. Bu cür sərsəm, uydurma və psixoloji manipulyasiyaya söykənən iddialar heç bir hüquqi və məntiqi əsasa söykənmir.



Ermənistanın revanşist dairələri və onların xaricdəki havadarları birmənalı dərk etməlidirlər ki, dezinformasiya və təxribat üzərində qurulmuş ritorika Cənubi Qafqazda formalaşmış yeni reallıqları dəyişmək gücündə deyil. Həqiqətə dayanmayan iddialar nə beynəlxalq müstəvidə, nə də regionda güc nisbətini dəyişə bilər. Azərbaycana təzyiq göstərmək niyyətinə düşmək isə sadəcə vaxt itkisidir. Bakının sülh gündəliyinin alternativi yoxdur. Regionda davamlı təhlükəsizliyi, sabitliyi və iqtisadi tərəqqini diktə edən də məhz Bakının nümayiş etdirdiyi bu güclü, prinsipial və ədalətli mövqedir.

3

## Yeni subsidiya mexanizmləri aqrar sektorda daha böyük imkanlara qapı açır



Yeni subsidiya mexanizmləri aqrar sektorda dövlət dəstəyinin istiqamətlərini də dəyişir. Burada əsas diqqət daha çox məhsul istehsal etməyə, torpaqdan və sudan səmərəli istifadə olunmasına, fermerin əldə etdiyi məhsulu yüksək əlavə dəyərlə bazara çıxarmasına yönəlib. Məsələn, müasir suvarma sahəsində texnoloji yeniliklərin tətbiqinin genişləndirilməsi məhsuldarlığın artırılması üçün əsas şərtlərdən biri kimi ön plana çıxarılır. Su resurslarından qənaətlə istifadə etmək də bu yanaşmanın bir hissəsidir.

Dəyişikliklərin başqa bir istiqaməti isə emal və ixrac imkanlarının genişləndirilməsidir. Yəni qarşıya məqsəd qoyulmayıb ki, tarladan daha çox məhsul götürülsün. Məhsulun ölkə daxilində emal olunması, qablaşdırılması, bazara hazırlanması və xarici bazarlara çıxarılması üçün zəncirin növbəti halqalarının da gücləndirilməsi nəzərdə tutulur. Heyvandarlıq sahəsində isə diqqət cins tərkibinin yaxşılaşdırılmasına yönəldilir. Daha məhsuldar heyvanların sayının artırılması həm ət və süd istehsalının yüksəldilməsinə, həm də ümumi məhsuldarlığın yaxşılaşdırılmasına hesablanıb. Yeni subsidiya siyasəti məhz bu xətti gücləndirməyi nəzərdə tutur. 2026-2030-cu illər üçün müəyyənləşdirilən hədəflər göstərir ki, dövlət dəstəyi, sadəcə, istehsalın özünə deyil, məhsulun torpaqdan istehlakçıya qədər keçdiyi bütün zəncirə daha geniş yanaşma tələb edir.

7

## Rəqəmsallaşma müəlliflik hüququnun sonu yox, yeni mərhələsidir



Süni intellekt müəlliflik anlayışını dəyişir. Generativ süni intellektin meydana çıxması ilə ənənəvi "müəllif-əsər" münasibətinə üçüncü bir element - alqoritm (hər hansı bir problemin həlli üçün addımlar ardıcıllığı) əlavə olunub. Bu münasibət əsasında insan ideyanı verir, süni intellekt həmin ideyanı mətnə, təsvirə, musiqiyə və ya videoya çevirir. Bəzən insanın müdaxiləsi çox məhdud olur, bəzənsə istifadəçi nəticəni dəfələrlə dəyişdirir, seçir, redaktə edir və öz yaradıcılıq yanaşmasını əsərə daxil edir. Nəticədə eyni texnologiyadan istifadə etməklə ortaya çıxan iki məhsulun müəlliflik baxımından hüquqi statusu tamamilə fərqli ola bilir. Bu iki vəziyyəti eyni hüquqi çərçivədə qiymətləndirmək çətindir.

Əgər insan, sadəcə, "mənə bir şəkil yarat" deyib nəticəni olduğu kimi istifadə edirsə, burada insanın yaradıcı töhfəsinin miqyası sual doğurur. Amma əgər rəssam süni intellektdən yalnız alət kimi istifadə edir, kompozisiyanı qurur, obrazları seçir, nəticəni dəyişir, redaktə edir və əsərə öz yaradıcı yanaşmasını gətirirsə, onda insanın müəllif kimi rolu daha aydın görünür. Deməli, əsas məsələ süni intellektin hansı imkanlara malik olması deyil, insanın həmin imkanlardan necə və hansı səviyyədə yararlanmasıdır.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin mövcud yanaşması da məhz insan yaradıcılığını əsas götürür: insanın iştirakı olmadan süni intellekt tərəfindən yaradılan nəticə müəlliflik hüququ ilə qorunan əsər hesab edilmir, insanın yaradıcı töhfəsi olduğu halda isə hüquqi qiymətləndirmə həmin töhfə üzərindən aparılır. Bu yanaşmanın arxasında sadə, amma fundamental fikir dayanır: müəlliflik hüququnun mərkəzində maşın deyil, insan olmalıdır.

6

# Azərbaycan Respublikası Media və Yayım Şurası sədrinin və üzvlərinin təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Aşağıdakı şəxslər Azərbaycan Respublikası Media və Yayım Şurasının sədri və üzvləri təyin edilsinlər:

**Media və Yayım Şurasının sədri**

İsmayılov Əhməd Məhəmməd oğlu

**Media və Yayım Şurasının üzvləri**

Abdullayev Məhəmməd İzzət oğlu
Bəşirli Aynur Əliövsət qızı
Kərimova Rəqsanə Tofik qızı
Məmmədov Fərhad Rauf oğlu
Nadirov İlkin İlqar oğlu
Novruzov Fazil Hacıverdi oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 sentyabr 2026-cı il*

# "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 15 avqust tarixli 296 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 266** **Bakı şəhəri, 8 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 mart tarixli 975 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə"nin 5.9-cu bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 15 avqust tarixli 296 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 8, maddə 1113 (Cild I); 2024, № 9, maddə 1092) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. "15" rəqəmləri "17" rəqəmləri ilə əvəz edilsin.
2. "Kollegiyanın üzvləri:" bölməsi aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin birinci müavini və müavinləri

Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Aparatının rəhbəri və müavinləri

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Aparatının Hüquq və daxili nəzarət şöbəsinin müdiri

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin rəisi

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidmətinin rəisi

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidmətinin rəisi

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəisi

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində Dövlət Ekoloji Ekspertiza Agentliyi İdarə Heyətinin sədri

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin sədri

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində Geodeziya və Kartoqrafiya Agentliyinin sədri.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin təsdiqedici sənədi əsasında idxalı əlavə dəyər vergisindən azad olunan incəsənət əsərlərinin, kolleksiya əşyalarının və əntiq əşyaların xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının kodları üzrə Siyahısı"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 268** **Bakı şəhəri, 8 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin təsdiqedici sənədi əsasında idxalı əlavə dəyər vergisindən azad olunan incəsənət əsərlərinin, kolleksiya əşyalarının və əntiq əşyaların xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının kodları üzrə Siyahısı" təsdiq edilsin *(əlavə olunur)*.
2. Bu Qərar 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Baş nazir Əli Əsədov Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü ilə görüşüb



**Azərbaycanın Baş naziri Əli Əsədov sentyabrın 8-də Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Lyu Haysin ilə görüşüb.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan ilə Çin arasında hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin inkişafından məmnunluq ifadə olunub, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin birgə səylərinin ikitərəfli əlaqələrin hazırkı yüksək səviyyəyə çatmasında həlledici rolları vurğulanıb.

İki ölkə arasında iqtisadi-ticari və investisiya əlaqələrinin müsbət dinamikası vurğulanıb. "Yaşıl enerji" sahəsində birgə layihələrin uğurla həyata keçirildiyi, bu istiqamətdə əməkdaşlığın dərinləşdirilməsi üçün böyük potensialın olduğu qeyd edilib.

Nəqliyyat-tranzit sahəsində əməkdaşlığın ardıcıl inkişaf etdiyi bildirilərək "Bir kəmər, bir yol" təşəbbüsü və Orta dəhliz çərçivəsində qarşılıqlı fəaliyyətin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulanıb. Zəngəzur dəhlizinin açılmasının regional nəqliyyat bağlantılarının daha da gücləndirilməsi və tranzit potensialının artırılması baxımından önəmi diqqətə çatdırılıb.

Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əlaqələrin inkişafı yüksək qiymətləndirilib, partiyalararası əməkdaşlığın və qarşılıqlı təmasların daha da genişləndirilməsinin əhəmiyyəti qeyd edilib.

Görüşdə Azərbaycan ilə Çin arasında müxtəlif sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın daha da inkişaf etdirilməsi perspektivləri müzakirə olunub.

# YAP və ÇKP nümayəndələri Ümummilli Lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət ediblər





**Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin (ÇKP MK) üzvü, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, nazir Lyu Haysinin rəhbərlik etdiyi nümayəndə heyəti Yeni Azərbaycan Partiyasının (YAP) dəvəti ilə ölkəmizə səfərə gəlib.**

Səfər çərçivəsində sentyabrın 8-də YAP-ın nümayəndələri və ÇKP nümayəndə heyəti Fəxri xiyabanda müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da əziz xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanı ziyarət olunub. Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə tər güllər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

***"Azərbaycan"***

# Milli Məclisdə görüşlər





**Sentyabrın 8-də Milli Məclisdə parlament sədrinin müavini Ziyafət Əsgərov ölkəmizdə səfərdə olan Koreya Milli Assambleyasının Xarici işlər və birləşmə komitəsinin sədri Song Seog-junun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclis Sədrinin müavini Ziyafət Əsgərov Azərbaycanın Koreya ilə münasibətlərə xüsusi diqqət yetirdiyini və bu ölkə ilə dərin əməkdaşlıq etdiyini deyib. Parlamentlərarası əlaqələrin də çox yaxşı inkişaf etdiyini söyləyən vitse-spiker qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunaraq, bunun ikitərəfli əlaqələrin gücləndirilməsinə xidmət etdiyini bildirib.

Azərbaycan-Koreya münasibətlərinin yüksələn xətlə inkişaf etdiyini deyən sədr müavini ölkəmizdən Koreyaya neft məhsulları, bu ölkədən isə Azərbaycana dərman və elektron məhsulları idxal edildiyini diqqətə çatdırıb. Azərbaycanda 80-ə yaxın Koreya şirkətinin fəaliyyət göstərdiyini bildirən Milli Məclis Sədrinin müavini bunun biznes əlaqələrinin inkişafından xəbər verdiyini vurğulayıb.

Koreya şirkətlərinin Azərbaycanın "yaşıl enerji" bazarında fəal iştirak etdiyini deyən Ziyafət Əsgərov onların Qarabağ və Şərqi Zəngəzurda da uğurla fəaliyyət göstərdiklərini söyləyib. O, ölkələrimiz arasında elm, incəsənət və mədəniyyət sahələrində də yaxşı əlaqələrin mövcud olduğunu qeyd edib.

Azərbaycanla Ermənistan arasında sülh sazişinin paraflandığını söyləyən vitse-spiker iki ölkə arasında iqtisadi əlaqələrin yaradılması istiqamətində də yeni imkanların formalaşdığını diqqətə çatdırıb.

Koreya Milli Assambleyasının Xarici işlər və birləşmə komitəsinin sədri Song Seog-jun Azərbaycan və Koreyanın dost ölkələr olduğunu deyib. Qarşılıqlı səfərlərin ikitərəfli əlaqələrin dinamik inkişafına töhfə verdiyini vurğulayan qonaq bu münasibətlərin daha da möhkəmlənəcəyinə əminliyini ifadə edib.

Görüşdə Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi yüksək qiymətləndirilib. Həmçinin nəqliyyat-tranzit yollarının Azərbaycandan keçməsinin ölkənin potensialının reallaşdırılması baxımından əhəmiyyətli olduğu diqqətə çatdırılıb.

Vurğulanıb ki, Koreya vətəndaşları üçün bir il ərzində vizasız gediş-gəliş rejiminin yaradılması əlaqələrin daha da gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

* * *

Sentyabrın 8-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov ölkəmizdə səfərdə olan Koreya Milli Assambleyasının Xarici işlər və birləşmə komitəsinin sədri Song Seog-junun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Səməd Seyidov bu görüşün Azərbaycan-Koreya parlamentlərarası əlaqələrinin inkişafı baxımından fayda verəcəyinə ümidvar olduğunu deyib. O, Koreyanın Azərbaycan üçün əlaqələrin inkişafı baxımından ən mühüm tərəfdaşlardan biri olduğunu vurğulayıb. Komitə sədri Koreyanın hər zaman Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə dəstək verdiyini diqqətə çatdırıb.

Koreya Milli Assambleyasının Xarici işlər və birləşmə komitəsinin sədri Song Seog-jun bu vəzifəyə seçildikdən sonra ilk səfərini Azərbaycana etdiyini diqqətə çatdırıb. Bu səfərin ikitərəfli münasibətlərə töhfə verəcəyini söyləyən qonaq əlaqələrin praktiki nəticələrlə zənginləşəcəyinə ümid etdiyini bildirib.

Görüşdə hər iki ölkənin əməkdaşlığın inkişafı baxımından geniş potensiala malik olduğu diqqətə çatdırılıb.

***"Azərbaycan"***

# YAP Mərkəzi Aparatında görüş keçirilib



**Sentyabrın 8-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin (ÇKP MK) üzvü, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, nazir Lyu Haysinin rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.**



Görüşdə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin məqsədyönlü siyasəti nəticəsində iki ölkə arasında münasibətlərin dostluq və hərtərəfli strateji tərəfdaşlıq müstəvisində uğurla inkişaf etdiyi vurğulanıb.

Konstruktiv siyasi dialoq şəraitində iqtisadi-ticari, nəqliyyat-logistika, təhsil, turizm, mədəni, humanitar, rəqəmsal texnologiyalar, "yaşıl enerji" və digər sahələrdə əlaqələrin daha da genişləndiyi qeyd olunub.

Hər iki ölkənin qlobal miqyasda mühüm təşəbbüslərlə çıxış etdiyi qeyd olunaraq "Bir kəmər, bir yol" və Zəngəzur dəhlizi layihələrinin geostrateji əhəmiyyəti və perspektivləri diqqətə çatdırılıb. Çinin Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələrinin inkişafına dəstək göstərməsinin səmimi dostluq və tərəfdaşlıq nümunəsi olduğu bildirilib. Azərbaycan-Çin hərtərəfli strateji tərəfdaşlığının təkcə iki ölkə arasında münasibətlərin inkişafı ilə əlamətdar olmadığı, eyni zamanda Qlobal Cənubda əməkdaşlığın təşviqi baxımından olduqca mühüm əhəmiyyət daşıdığı vurğulanıb. Beynəlxalq hüquq normalarına əsaslanan müstəqil siyasət yürüdən, separatizmin bütün forma və təzahürlərini pisləyən hər iki ölkənin bir-birinin müstəqilliyinə, ərazi bütövlüyünə və suverenliyinə qətiyyətli dəstəyinin önəmindən danışılıb.

Görüşdə dövlətlərarası münasibətlərin mühüm tərkib hissəsi kimi YAP ilə ÇKP arasında əlaqələrin inkişafının xüsusi diqqət mərkəzində olduğu vurğulanıb. Qarşılıqlı səfərlərin, fikir və təcrübə mübadiləsinin partiyalar arasında əlaqələrin mövcud vəziyyətinin dəyərləndirilməsi və gələcək əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi baxımından əhəmiyyəti qeyd edilib. 2024-cü ilin noyabr ayında YAP nümayəndə heyətinin Çinə səfəri çərçivəsində imzalanmış Əməkdaşlıq Memorandumundan irəli gələn vəzifələrin uğurla yerinə yetirilməsinin ölkələrarası hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə önəmli töhfələr verdiyi bildirilib.

2026-cı il 11-15 may tarixində YAP nümayəndə heyətinin dost ölkəyə səfəri çərçivəsində tərəflər arasında keçirilən görüşlər məmnunluqla xatırlanaraq əməkdaşlığın dərinləşdirilməsinə hədəflənən qarşılıqlı səfərlərin davamlı xarakter daşıyacağına və birgə fəaliyyət nəticəsində bundan sonra da ardıcıl nailiyyətlərin qazanılacağına əminlik ifadə olunub.

Gənclərin ictimai-siyasi həyatda, eləcə də dövlət idarəçiliyində və partiya fəaliyyətində aktiv iştirakının önəminə toxunularaq bu sahədə ixtisaslaşmış təhsil müəssisələri arasında işbirliyinin önəmi qeyd olunub.

Görüşdə partiyalararası əməkdaşlığın gələcək istiqamətləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Azərbaycanın təmin etdiyi ədalət dünyaya nümunədir



## İlham ƏLİYEV: "BMT Təhlükəsizlik Şurasının qətnamələrinin qısa müddətdə icrası üçün müvafiq mexanizmlərin hazırlanması tələb olunur"

**Dünyanın siyasi gündəmi Beynəlxalq Millətlər Təşkilatının Baş Assambleyasının Nyu Yorkdakı qərargahında işinə başlayan növbəti 81-ci sessiyasına köklənib. Sentyabrın 22-də yüksəksəviyyəli həftə çərçivəsində keçiriləcək ümumi müzakirələr zamanı 100-dən çox dövlət və 46 hökumət başçısının, həmçinin nazirlər və səfirlərin iştirakı ilə geniş nümayəndə heyətləri çıxış edəcəklər. Lakin bu qlobal platformada fəaliyyət göstərən beynəlxalq birliyin fonunda ən çox diqqətçəkən məqam BMT-nin öz daxili mexanizmlərinin effektivliyi və təşkilatda islahatların aparılması zərurətidir.**

Faktdır ki, 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən Azərbaycan torpaqlarının işğaldan azad edilməsini, ölkənin suverenliyinin və ərazi bütövlüyünün tanınmasını tələb edən 822, 853, 874 və 884 saylı 4 məlum qətnamə qəbul edildi. Lakin bu beynəlxalq sənədlər tam 27 il boyunca kağız üzərində qalaraq, icra olunmadı. Qlobal təhlükəsizlik sisteminin və beynəlxalq hüququn aliliyini təmin etməli olan institutların fəaliyyətsizliyi, ikili standartların və beynəlxalq ədalətsizliyin ən bariz nümunəsinə çevrildi.

### BMT bu qətnamələrin icrasında heç bir rol oynamayıb

Azərbaycanın timsalında gətirdiyimiz nümunədən də aydın görünür ki, BMT-nin qəbul etdiyi qətnamələr onilliklərlə icra edilmir. Məhz bu səbəbdən təşkilatda qəbul edilən qətnamələrin icra mexanizmləri ilə bağlı köklü islahatların aparılması vacibdir. BMT-nin mexanizmsizliyi səbəbindən Azərbaycan 2020-ci və 2023-cü illərdə tarixi ədaləti, ərazi bütövlüyünü və suverenliyini öz gücü ilə döyüş meydanında bərpa etmək məcburiyyətində qaldı və BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalan qətnamələrinin necə icra edilməli olduğunu bütün dünyaya göstərdi.

Vətən müharibəsinə qədər Prezident İlham Əliyev dəfələrlə beynəlxalq tribunalardan BMT-nin icra mexanizmlərinin işləksizliyini bəyan edib.

Eyni zamanda təşkilatın bu çatışmazlığını cari il sentyabrın 1-də Qırğızıstanın paytaxtı Bişkekdə "ŞƏT plyus" formatında görüşdəki çıxışında Azərbaycan Prezidenti bir daha diqqətə çatdırdı: "BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş dörd qətnaməsi 30 ildən sonra, üç il əvvəl icra edildi. Azərbaycan artıq Ermənistana neft məhsulları tədarük edir və üçüncü ölkələrin yüklərinin tranzitini təmin edir. Ermənistanla birlikdə qarşılıqlı ticarətin həcminin artırılması, onun nomenklaturasının genişləndirilməsi və yeni yerüstü nəqliyyat kommunikasiyalarının yaradılması üzərində çalışırıq".

Ölkəmizin rəhbəri onu da təəssüflə vurğuladı ki, BMT bu qətnamələrin icrasında heç bir rol oynamayıb: "Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü tamamilə özü bərpa edib. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin qısa müddətdə icrası üçün müvafiq mexanizmlərin hazırlanması tələb olunur. Bu həyata keçirilərsə, BMT-nin nüfuzunun və təşkilatın münaqişələrin nizamlanmasındakı rolunun artmasına xidmət edər".

Bu reallıqlar sentyabrın 3-də Prezident İlham Əliyevin ATƏT Parlament Assambleyasının prezidenti Pere Joan Pons Sanpietronu qəbul etməsi zamanı da səsləndirildi.

Dövlətimizin başçısı 30 ilə yaxın müddətdə münaqişənin həllinə məsul olan ATƏT-in Minsk qrupu tərəfindən danışıqlar prosesində hər hansı bir nəticənin əldə edilmədiyini və BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrin yerinə yetirilmədiyini təəssüflə vurğuladı.

Bəli, 30 il ərzində "dondurulmuş münaqişə" formulası ilə vaxt qazanan Minsk qrupunun lazımsızlığı sübuta yetirildi və BMT TŞ-nin icrasız qətnamələri məhz Azərbaycanın hərbi-siyasi iradəsi ilə yerinə yetirildi.

İndi bu təsisatlar özləri artıq Azərbaycanın yaratdığı yeni sülh reallığını qəbul və etiraf edirlər.

### BMT-də islahatlar zərurətdir

Azərbaycan BMT ilə əlaqələrə hər zaman böyük önəm verib. 1992-ci il martın 2-dən bu quruma üzv olan respublikamızın BMT ilə əlaqələrinin inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Heydər Əliyev BMT-nin müxtəlif sessiyalarında Ermənistan-Azərbaycan münaqişəsini dünya ictimaiyyətinin nəzərinə çatdırıb, ölkəmizin prinsipial mövqeyini ortaya qoymuşdu. Prezident İlham Əliyev də daim bu əlaqələrin inkişafının tərəfdarı olub. Ölkəmizin rəhbərinin bu qurumun tribunasından etdiyi çıxışlar Ermənistanın işğalçılıq siyasətinin ifşası baxımından çox vacib əhəmiyyət daşıyıb.

Bu mənada ötən il BMT Baş Assambleyasının 80-ci yubiley sessiyasında Prezident İlham Əliyevin iştirakı həm də rəmzi məna daşıyırdı. Azərbaycan Prezidenti bu mötəbər sessiyaya bu dəfə məhz BMT TŞ-nin qətnamələrini özü yerinə yetirən qalib ölkənin lideri kimi qatılmışdı.

"Uzun illər ərzində mən bu kürsüdən Azərbaycana qarşı törədilmiş təcavüz, işğal və ədalətsizlik faciələri barədə danışmışam. Bu gün isə qələbəyə və sülhə aparan uzun yolumuzdan, Azərbaycan tarixində yeni dövrdən, Vətən müharibəsi ilə işğala necə son qoyulduğundan, sülhü siyasi vasitələrlə necə təmin etməyimizdən danışacağam", - deyən Prezident İlham Əliyev bu qlobal tribunadan Azərbaycanın ötən üç onillik zaman dilimində qət etdiyi keşməkeşlərdən, haqq və ədalət uğrunda sarsılmaz mübarizədən keçərək bugünkü tarixi zirvəyə yetən qələbə yolundan qürurla danışdı.

Azərbaycanın BMT TŞ qətnamələrini təkbaşına icra etməsi bölgəyə yalnız hərbi zəfər gətirmədi. Bu Zəfər həm də Cənubi Qafqaza davamlı sülh və birgəyaşayış modeli bəxş etdi.

Ölkəmizin yaratdığı bu yeni reallıq həm də onu sübut etdi ki, sülh və sabitlik kağız üzərindəki bəyanatlarla deyil, güclü siyasi iradə və ədalətə söykənən addımlarla əldə olunur. Bu gün Azərbaycan işğaldan azad edilmiş torpaqlarında quruculuq işləri aparmaqla yanaşı, Ermənistana neft məhsullarının tədarükünü, tranzit daşımaları və yeni kommunikasiyaların açılmasını təmin edərək bölgəyə tamamilə fərqli bir əməkdaşlıq mühiti gətirib.

BMT kimi mötəbər bir qurumun qəbul etdiyi fundamental qətnamələrin 30 ilə yaxın müddətdə icrasız qalması təşkilatın daxili mexanizmlərinin nə qədər iflic vəziyyətdə olduğunu göstərdi. Azərbaycanın öz gücünə söykənərək BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini döyüş meydanında və diplomatik masada icra etməsi, həm də beynəlxalq hüququn aliliyinin yenidən bərpası üçün parlaq Zəfər modelinə çevrildi.

BMT qətnamələrinin icrası üçün vahid və məcburi icra mexanizmlərinin yaradılması artıq zamanın tələbidir. Təşkilatın nüfuzunun bərpası, münaqişələrin həllində real rol oynaması və ikili standartlardan azad olması üçün BMT-də köklü islahatların aparılması artıq qaçılmazdır. Azərbaycanın təcrübəsi göstərdi ki, qətnamələrin kağız üzərində qalması beynəlxalq arenada anarxiyaya, işğala və ədalətsizliyin dərinləşməsinə xidmət edir. Əgər BMT gələcəkdə öz missiyasını qoruyub saxlamaq istəyirsə, Bakının bu çağırışına və təcrübəsinə universal model kimi yanaşmalıdır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Orta dəhlizin inkişaf perspektivləri Bakıda müzakirə olundu

**Bu günlərdə Azərbaycan növbəti beynəlxalq tədbirə - "Qara dəniz və Xəzər Yük Forumu 2026: Dəhlizlər, İnfrastruktur, İnvestisiyalar" adlı 5-ci Beynəlxalq Konfrans və Sərgiyə evsahibliyi edir. Sentyabrın 7-dən 9-dək keçirilən bu tədbir Avrasiya məkanında nəqliyyat, logistika və tranzit xəritəsinin yenidən formalaşdığı bir dövrdə qlobal diqqəti bir daha Bakıya yönəldib. Dünyada ticarət yollarının şaxələndirildiyi və yeni geosiyasi reallıqların yarandığı bu mərhələdə paytaxtımız yenidən beynəlxalq əməkdaşlığın mərkəzinə çevrilib.**




Müasir dövrdə qlobal təchizatın şaxələndirilməsi və təhlükəsizliyinin təmin olunması hər bir dövlət üçün prioritet məsələdir. Bu mənada forumun əsas müzakirə mövzularından birini məhz Orta dəhlizin inkişafı təşkil edir. Orta dəhliz Mərkəzi Asiya, Cənubi Qafqaz, Türkiyə və Avropa arasında nəqliyyat əlaqələrinin genişləndirilməsində həlledici rol oynayır. Bu marşrutun inkişafı ilə bağlı Qazaxıstan, Azərbaycan və Gürcüstan ərazilərində, liman və dəmir yollarında genişmiqyaslı infrastruktur layihələri həyata keçirilir. Hazırda atılan bütün addımlar dəhlizin proqnozlaşdırıla bilməsini artırmağa, yükötürənlərin daşınma müddətini və nəticəni dəqiq bilmələrini təmin etməyə xidmət edir. İştirakçılar bununla yanaşı, dəhlizin ümumi perspektivlərini, praktiki səmərəliliyə təsir göstərən amilləri, infrastrukturun ötürücülük qabiliyyətini, liman və dəmir yolu şəbəkələrinin cari vəziyyətini, həmçinin müxtəlif nəqliyyat növləri arasında sinxron koordinasiyanın qurulması mexanizmlərini dərindən təhlil edirlər.

Konfrans dövlət qurumlarının, beynəlxalq maliyyə institutlarının, həmçinin liman və dəmir yolu nəhənglərinin nümayəndələrini bir araya gətirib. Tədbirdə aparıcı investisiya dairələri və nüfuzlu ekspert təşkilatları da təmsil olunublar. Bütövlükdə konfrans-sərgi regionun nəqliyyat gələcəyini müəyyənləşdirən strateji müzakirələr üçün unikal mühit yaradıb.

Tədbirdə Xəzər dənizi üzərindən həyata keçirilən yükdaşımaların artan dinamikası müzakirələrin mərkəzində dayanıb. Bu prosesdə liman və dəmir yolu infrastrukturunun modernləşdirilməsi, həmçinin nəqliyyat operatorları arasında tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Mərkəzi Asiya və Cənubi Qafqazın nəqliyyat şəbəkələrinin Qara dəniz regionu və Avropa ilə daha sıx və fasiləsiz əlaqələndirilməsi imkanları da Orta dəhlizin inkişafı baxımından qarşıdakı illərin iqtisadi mənzərəsini formalaşdıran əsas faktorlardandır.

Konfrans-sərgidə regionda irəli sürülən ən son infrastruktur təşəbbüsləri və onların regional bağlantılara təsirləri də nəzərdən keçirilib. Xüsusilə, TRIPP - "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" kimi yeni strateji layihələrin perspektivləri konfrans iştirakçılarının marağına səbəb olub. Belə təşəbbüslər regionun nəqliyyat xəritəsini zənginləşdirməklə yanaşı, iqtisadi inteqrasiyanın dərinləşməsinə də güclü təkan verir.

Qeyd olunanlarla yanaşı, nəqliyyat infrastrukturuna yönəldilən investisiyaların həcminin artırılması da xüsusi diqqət mərkəzində olub. Eyni zamanda multimodal daşımaların təkmilləşdirilməsi və Xəzər-Qara dəniz xətti üzrə yükdaşımaların şaxələndirilməsi aktual müzakirə mövzularındandır. Müasir logistikanın tələblərinə uyğun olaraq, proseslərin rəqəmsallaşdırılması və kağızsız texnologiyaların tətbiqi sahəsində əldə olunan nailiyyətlər və gələcək hədəflər də konfransın gündəmində mühüm yer tutub.

Sentyabrın 9-dək davam edəcək "Qara dəniz və Xəzər Yük Forumu 2026" bir daha sübut edir ki, Azərbaycan Avropa ilə Asiyanı birləşdirən qlobal körpünün əsas memarlarından biridir. Bu cür tədbirlər isə qlobal ticarətin inkişafına, qarşılıqlı faydalı investisiyaların cəlb olunmasına mühüm töhfələr verir. Ölkəmizin bu sahədəki təşəbbüsləri isə gələcəyin logistik xəritəsinin formalaşmasında mühüm rol oynayır. Azərbaycanın fəal iştirakçısı olduğu nəqliyyat dəhlizləri bütövlükdə regionumuzda davamlı sülhə, təhlükəsizliyə, sabitliyə və iqtisadi inkişafa xidmət edir.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Revanşistlərin ucuz şousu

## Müharibə canilərini müdafiə etmək cəhdləri mənasızdır

**Bakı və İrəvan arasında davamlı sülhün bərqərar olunması istiqamətində ardıcıl addımlar atıldığı vaxtda Ermənistanda müəyyən qüvvələrin və onları himayə edənlərin informasiya təxribatı bitmir. Müşahidələr göstərir ki, revanşistlər, eləcə də xaricdəki erməni lobbisi sülh prosesini hər vəchlə pozmağa və yaxud yubatmağa çalışırlar. Bu şəbəkə sülh gündəliyinin irəli aparılmasına, cəmiyyətlər arasında etimad mühitinin formalaşdırılmasına mane olmaq məqsədilə son günlərdə "hüquq müdafiəsi" adı altında təxribat xarakterli kampaniyaya start verib.**



Ermənistan hüquq müdafiəçisinin sentyabrın 4-də İrəvanda mətbuat konfransında səsləndirdiyi absurd iddialar da məhz həmin revanşist və lobbi dairələrinin sifarişi ilə təşkil olunmuş sistemli informasiya hücumunun tərkib hissəsidir. Erməni tərəfi iddia edib ki, Azərbaycan ərazisində törətdikləri ağır cinayətlərə görə həbs olunmuş erməniəsilli şəxslər guya dini mənsubiyyətlərinə görə ayrı-seçkiliyə və işgəncələrə məruz qalır, xristian dini simvolları məhv edilir, onlara "İncil" oxumağa icazə verilmir, əvəzində "Quran" oxumağa məcbur edilirlər. Bu cür sərsəm, uydurma və psixoloji manipulyasiyaya söykənən iddialar heç bir hüquqi və məntiqi əsasa söykənmir.

Revanşistlərin hiyləgər dezinformasiya həmləsinə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili Səbinə Əliyeva dərhal və sərt reaksiya verərək, səsləndirilən bütün ittihamları qətiyyətlə rədd edib. Ombudsman rəsmi cavabında bildirib ki, Ermənistan hüquq müdafiəçisinin irəli sürdüyü əsassız iddialar qərəzlidir və bilavasitə iki ölkə arasında aparılan sülh danışıqlarını pozmağa, prosesə zərər vurmağa yönəlib. Real fakta əsaslanmayan bu cür çıxışlar yalnız beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədi güdür.

Heç bir dəlil-sübut olmadan bu cür iddiaların "fakt" kimi dövriyyəyə buraxılması insan hüquqlarının müdafiəsi üzrə beynəlxalq prinsiplərə tamamilə ziddir. Xüsusilə fərdi cinayət əməllərinin süni şəkildə dini mənsubiyyətlə əlaqələndirilməsi, məsələnin xristian-müsəlman qarşıdurması müstəvisinə keçirilməsi cəhdləri qəbulolunmazdır. Bu, sadəcə hüquqi manipulyasiya deyil, həm də regionda dini dözümsüzlüyü alovlandırmaq niyyətidir.

"Hüquq müdafiəsi" pərdəsi altında çıxış edən şəxslər erməni lobbi təşkilatlarının, Qərbdəki qərəzli dairələrin əlində alətə çevriliblər. Bölgədə davamlı sülhün bərqərar olmasını istəməyən, gərginliyin qalmasından maliyyə və siyasi dividendlər qazanan erməni lobbisi revanşist qüvvələri körükləyir. Lobbi şəbəkəsinin maliyyə və informasiya dəstəyi ilə "dini təqib" və "insan hüquqları pozuntusu" kimi uydurma tezislər Qərb mediasına çıxarılır, bununla Azərbaycana qarşı təzyiq formalaşdırılmağa cəhd edilir. İnsan hüquqları kimi həssas mövzunun lobbi maraqlarına qurban verilməsi, şər-böhtan kampaniyasının məhz sülh sazişinin imzalanması ərəfəsində intensivləşməsi bunun göstəricisidir.

Xüsusilə vurğulanmalıdır ki, hazırda Bakıda öz layiqli cəzalarını çəkən separatçı rejimin keçmiş rəhbərləri və erməniəsilli şəxslər sülh və insanlıq əleyhinə ağır cinayətlər törətmiş, mülki əhaliyə qarşı terror və hərbi cinayətlərdə birbaşa iştirak etmiş müharibə caniləridir. Onların hər biri Azərbaycan qanunvericiliyinə və beynəlxalq hüquq normalarına uyğun olaraq obyektiv məhkəmə istintaqına cəlb edilib, əməllərinə uyğun ədalətli məhkəmə hökmü çıxarılıbdır.

Hüquqi müstəvidə müəyyən edilmiş cinayət məsuliyyətini şəxsin etnik və ya dini mənsubiyyəti ilə bağlamaq tamamilə yanlış yanaşmadır. Törədilmiş ağır əməllərə görə qanun qarşısında cavab verən şəxslərin cəzasını "etnik və dini təqib" kimi qələmə vermək məsuliyyətdən yayınmaq cəhdindən başqa bir şey deyil. Cinayət məsuliyyəti milli və ya dini kimliyə görə deyil, konkret törədilmiş əməlin xarakteri, toplanmış təkzibedilməz sübutlar və obyektiv məhkəmə qiymətləndirməsi əsasında müəyyən edilir.

Məsələnin digər vacib tərəfi isə Azərbaycanda saxlanılan şəxslərin saxlanma şəraiti və onlara münasibətlə bağlı həqiqi faktlardır. Ombudsmanın Milli Preventiv Qrupu tərəfindən həyata keçirilən monitorinqlər zamanı erməniəsilli şəxslərlə dəfələrlə görüşlər təşkil edilib, onların tibbi və psixoloji vəziyyəti qiymətləndirilib, dini ibadət və etiqad ehtiyacları daxil olmaqla bütün saxlanma şəraitlərinə yerində baxılıb. Onlara beynəlxalq konvensiyalardan irəli gələn hüquqları ana dillərində ətraflı izah olunub. Keçirilən bütün monitorinqlər göstərib ki, saxlanılan şəxslərin hüquqları beynəlxalq standartlara uyğun təmin edilir, onlar keyfiyyətli tibbi xidmətlərdən və digər zəruri imkanlardan tam istifadə edirlər.

Bütün bu təsdiqlənmiş faktların müqabilində, uydurma iddialarla "işgəncə" və "dini təqib" nağılları söyləmək yalnız ictimai rəyi çaşdırmağa və süni gərginlik yaratmağa xidmət edir. Davamlı sülh yalnız kağız üzərindəki razılaşmalarla deyil, həm də cəmiyyətlərin dözümsüzlük və nifrət nitqindən imtina etməsi ilə mümkündür. Eyni zamanda beynəlxalq təşkilatlar və hüquq müdafiəçiləri öz fəaliyyətlərində məsuliyyətli olmalı, yoxlanılmış həqiqətlərə söykənməli, lobbi təsirindən azad olmalıdırlar.

Nəhayət, Ermənistanın revanşist dairələri və onların xaricdəki havadarları birmənalı dərk etməlidirlər ki, dezinformasiya və təxribat üzərində qurulmuş ritorika Cənubi Qafqazda formalaşmış yeni reallıqları dəyişmək gücündə deyil. Həqiqətə dayanmayan iddialar nə beynəlxalq müstəvidə, nə də regionda güc nisbətini dəyişə bilər. Azərbaycana təzyiq göstərmək niyyətinə düşmək isə sadəcə vaxt itkisidir. Bakının sülh gündəliyinin alternativi yoxdur. Regionda davamlı təhlükəsizliyi, sabitliyi və iqtisadi tərəqqini diktə edən də məhz Bakının nümayiş etdirdiyi bu güclü, prinsipial və ədalətli mövqedir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# BCAW2026: "Kənd təsərrüfatının iqlim çağırışlarına davamlılığı" əsas müzakirə mövzusu olub

**"Bakı İqlim Fəaliyyəti Həftəsi 2026" (BCAW2026) çərçivəsində "Fəaliyyətdə Harmoniya: İqlimə Dayanıqlı Kənd Təsərrüfatı naminə Əməkdaşlıq" mövzusunda yüksəksəviyyəli "dəyirmi masa" keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi və COP29-un prezidenti Muxtar Babayev kənd təsərrüfatının ekstremal istilərə, quraqlığa, daşqınlara, dəyişən yağış nümunələrinə və artan su qıtlığına daha çox məruz qaldığını və bunun təsirlərinin artıq ölçülə bilən səviyyədə olduğunu bildirib.

Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi bildirib ki, 2025-ci ildə rekord həddə çatan ən uzun isti dalğası Şəkidə 14, Bakıda isə 7 gün davam edib. Bu dəyişən tendensiya qəfil daşqınlarda da özünü göstərir. "2015-ci ildə 15 belə hal qeydə alınıbsa, 2020-ci ildə bu rəqəm 36, 2025-ci ildə isə 33 olub. Bu rəqəmlər göstərir ki, biz artıq iqlim dəyişikliyini, sadəcə, müşahidə etmirik, onu birbaşa yaşayırıq. Kənd təsərrüfatı üçün bəlkə də ən böyük çətinlik proqnozlaşdırıla bilməməzlikdir. Bu, məhsulun nə vaxt əkiləcəyinə, nə qədər suyun əlçatan olacağına, hansı bitkilərin yetişdirilə biləcəyinə və fermerlərin sərmayə qoymasına birbaşa təsir edir", - deyə o əlavə edib.

Kənd təsərrüfatı naziri **Məcnun Məmmədov** bu gün kənd təsərrüfatının dövrümüzün ən mühüm çağırışlarının kəsişməsində dayandığını diqqətə çatdırıb. O, iqlim dəyişikliklərinin torpaq və su ehtiyatlarına təzyiqi artırdığını, məhsuldarlığa təsir göstərdiyini və fermerlər üçün yeni risklər yaratdığını bildirib. Nazirin sözlərinə görə, artan qeyri-müəyyənlik şəraitində ərzaq istehsalını daha səmərəli və dayanıqlı şəkildə təmin etmək lazımdır. "Buna görə də əsas sual artıq kənd təsərrüfatının transformasiyasının zəruri olub-olmaması deyil, bu transformasiyanı necə daha sürətli, daha ağıllı, daha dayanıqlı və daha inklüziv həyata keçirə biləcəyimizdir. Azərbaycanın bu məsələyə baxışı aydındır. Biz kənd təsərrüfatının gələcəyini məhsuldar, rəqabətqabiliyyətli, iqlimədavamlı, getdikcə daha çox bilik, innovasiya və texnologiyalara əsaslanan inkişaf modelində görürük", - deyə nazir vurğulayıb.

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri **Tahir Rzayev** təşəbbüslərdə qadın fermerlərin, gənclərin və elmi ictimaiyyətin səylərini birləşdirməli, həmçinin yerli və beynəlxalq qabaqcıl təcrübələrin tətbiqi üçün gücləri səfərbər etməyin vacibliyini diqqətə çatdırıb. "Biz artıq bu əməkdaşlığın ilk bəhrələrini görürük. "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" ictimaiyyət və Milli Məclis tərəfindən müsbət qarşılanıb", - deyə komitə sədri əlavə edib.

COP29-un iqlim üzrə yüksəksəviyyəli çempionu və BCAW layihəsinin rəhbəri **Nigar Arpadarai** fermerlərin su qıtlığı kimi iqlim dəyişikliklərinin təsirlərini ilk hiss edənlər sırasında olduğunu vurğulayaraq deyib: "Bu, bizim üçün mücərrəd siyasət deyil. Söhbət kənd icmalarının dayanıqlılığından, ərzaq təhlükəsizliyimizdən, milli iqtisadi inkişafımızdan və davamlı gələcəyimizdən gedir. Yarandığı gündən "Harmoniya" təşəbbüsü elmi cəhətdən əsaslandırılmış qabaqcıl təcrübələrə uyğun, iqlimə davamlı, dayanıqlı kənd təsərrüfatının inkişafına töhfə verən texnologiyalara xüsusi önəm verib. Biz bu mandatı ciddi qəbul etməli və fəaliyyətimizi buna uyğun qurmalıyıq".

FAO-nun Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbəri **Nasar Hayat** kənd təsərrüfatını bəşər sivilizasiyasının bünövrəsi adlandıraraq deyib: "Bu bünövrə hazırda təhlükə altındadır və bununla bağlı tədbir görmək bizim öhdəliyimizdir. Çünki kənd təsərrüfatı olmasa, ərzaq olmaz, ərzaq olmasa, iqtisadi artımın digər sahələrindən söz gedə bilməz".

FAO-nun nümayəndəsi **Evetta Zenina** kənd təsərrüfatının daha səmərəli və dayanıqlı inkişafı üçün inteqrasiya olunmuş yanaşmanın tətbiqi və mövcud təşəbbüslər arasında əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğulayıb. "Fermerlər üçün Bakı Harmoniya İqlim Təşəbbüsü" COP29 sədrliyinin FAO ilə sıx tərəfdaşlıq çərçivəsində həyata keçirdiyi əsas təşəbbüslərdən biridir. Təşəbbüsün məqsədi aqrar-ərzaq sistemlərinin dayanıqlılığını artırmaq, iqlim maliyyəsinə çıxışı genişləndirmək və fermerlər, maliyyə institutları, beynəlxalq təşkilatlar və digər maraqlı tərəflər arasında əməkdaşlığı gücləndirməkdir.

"Dəyirmi masa" müzakirələrlə davam edib.

# TBMM-in nümayəndə heyəti Milli Məclisdə

**Sentyabrın 8-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvləri "Bakı İqlim Fəaliyyəti Həftəsi 2026"da iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin (TBMM) nümayəndə heyəti ilə görüşüblər.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, söhbət zamanı Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov Azərbaycanın iqlim, energetika və bərpaolunan enerji sahələrində həyata keçirdiyi çoxşaxəli siyasət barədə ətraflı məlumat verib. Komitə sədri, bu sahədə qanunvericilik bazasının daim təkmilləşdirildiyini və mühüm hüquqi islahatların aparıldığını diqqətə çatdırıb.

Öz növbəsində, TBMM üzvü Mehmet Galip Ensarioğlu Azərbaycanın COP29-a yüksək səviyyədə evsahibliyi etdiyini və bu mötəbər tədbirin böyük uğurlarla yadda qaldığını vurğulayıb. O, Türkiyənin COP31-ə sədrliyi dövründə qlobal iqlim fəaliyyətinə mühüm töhfələr verməyi və bu prosesi yüksək təşkilatçılıqla həyata keçirməyi hədəflədiklərini bildirib.

Görüşdə Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvləri Nigar Arpadarai, Asif Əsgərov, Vüqar Rəhimzadə, Bədəl Bədəlov, eləcə də TBMM-in nümayəndələri Cemil Yaman, Elvan Işık Gezmiş və Sema Silkin Ün çıxış ediblər. Çıxışlarda hər iki ölkə parlamentləri arasında müvafiq sahədə qurulan səmərəli əməkdaşlıqdan və gələcəkdə reallaşdırılması nəzərdə tutulan birgə layihələrdən bəhs olunub.

*"Azərbaycan"*

# Bakıda "Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq" mövzusunda beynəlxalq konfrans keçirilib

**Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzi (BMTMM) və İsveçrənin Sent-Qallen Universitetinin nəzdində fəaliyyət göstərən Avropada İdarəçilik və Mədəniyyət Mərkəzinin (Center for Governance and Culture in Europe - GCE-HSG) birgə təşkilatçılığı ilə "Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq" mövzusunda beynəlxalq konfrans keçirilib.**



AZƏRTAC xəbər verir ki, iki gün davam edən konfrans çərçivəsində Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlığın gələcəyi, 44 günlük müharibədən sonra regionda formalaşan yeni geosiyasi reallıqlar, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması, nəqliyyat və kommunikasiya əlaqələrinin inkişafı, yeni infrastruktur layihələri, iqtisadi inteqrasiya, TRIPP layihəsi, mümkün xarici risklər, eləcə də Avropa İttifaqının regionda dayanıqlı əməkdaşlığın və bağlantıların gücləndirilməsində rolu əsas müzakirə istiqamətlərini təşkil edib.

BMTMM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev bildirib ki, Azərbaycanın coğrafi mövqeyi və həyata keçirdiyi nəqliyyat layihələri onu Şimal və Cənub istiqamətlərində mövcud geosiyasi qarşıdurmalar arasında mühüm bağlantı məkanına çevirib. Bu baxımdan, Azərbaycanın təşəbbüsü ilə inkişaf etdirilən Orta dəhlizin fəaliyyəti regionun nəqliyyat və iqtisadi əlaqələrinin genişləndirilməsində xüsusi əhəmiyyət daşıyır. Onun sözlərinə görə, Azərbaycan bu müzakirələrdə həm coğrafi mövqeyi, həm də həyata keçirdiyi regional təşəbbüslərlə xüsusi yer tutur:

Avropada İdarəçilik və Mədəniyyət Mərkəzinin Akademik Şurasının üzvü Ulrix Şmid Cənubi Qafqazda baş verən proseslər, Azərbaycan-Ermənistan arasında yeni sülh təşəbbüsünün regional əməkdaşlıq üçün yaratdığı imkanlar və bu proseslərin Rusiyanın regiondakı mövqeyinə mümkün təsirləri beynəlxalq ekspert dairələrinin diqqət mərkəzində olduğunu qeyd edib.

İsveçrənin Azərbaycan və Türkmənistandakı Səfirliyinin Regional Əməkdaşlıq bölməsi rəhbərinin müavini Qay Bonvin qeyd edib ki, Cənubi Qafqazın coğrafi mövqeyi regionu Avropa, Qara dəniz və Mərkəzi Asiya arasında mühüm bağlantı məkanına çevirir. Azərbaycanın bu prosesdə mühüm rol oynadığını deyən diplomat ölkənin son 30 ildə keçdiyi inkişaf yolunun və regional əlaqələrin genişlənməsinin diqqətəlayiq olduğunu vurğulayıb.

Tədbir çərçivəsində Avropada İdarəçilik və Mədəniyyət Mərkəzinin (GCE-HSG) direktoru, idarəçilik, regional siyasət və sosial-siyasi transformasiya üzrə ekspert Alexander Meienbergerin moderatorluğu ilə keçirilən birinci panel "İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqaz: Yeni regional düzən?" mövzusuna həsr olunub.

Sessiyada Cənubi Qafqazda meydana çıxan yeni geosiyasi reallıqlar, Azərbaycanın regionda artan rolu və xarici siyasət prioritetləri, həmçinin regional təşəbbüslər və müxtəlif güc mərkəzləri arasında formalaşan münasibətlər ətrafında fikir mübadiləsi aparılıb.

Paneldə hüquqşünas, araşdırmaçı, İspaniya Deputatlar Konqresinin və Senatının keçmiş üzvü Jordi Xucla "Azərbaycanın Cənubi Qafqazda dəyişən geosiyasi roluna və Avropa İttifaqının strateji dönüşü"nə dair yanaşmalarını təqdim edib. Onun sözlərinə görə, 2025-ci ilin avqustundan etibarən regionda baş verən proseslər sülhün möhkəmləndiyini və regional inteqrasiyanın irəlilədiyini göstərir. Bu dəyişikliklər Cənubi Qafqazda əvvəlki geosiyasi reallıqların tədricən aradan qalxmasına və yeni əməkdaşlıq imkanlarının meydana çıxmasına şərait yaradır. Bu prosesə müxtəlif amillər, o cümlədən Rusiya-Ukrayna müharibəsi təsir göstərib.

Yeni Avrasiya Observatoriyasının (ONE) həmtəsisçisi, Mərkəzi Asiya və Rusiyanın Asiyaya siyasəti üzrə ekspert Michael Levystone "2020-ci il İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın xarici siyasəti"ndə baş verən dəyişikliklərə nəzər salıb. O, Azərbaycanın regiondakı həlledici roluna diqqət çəkib.

ADA Universitetində Dövlət İdarəçiliyi üzrə dosent, post-sovet məkanında dövlət siyasəti, idarəçilik, demokratiya və şəhər inkişafı üzrə mütəxəssis Anar Vəliyev isə "Tarazlıq axtarışında: Cənubi Qafqazda rəqabət aparan regional yanaşmalar fonunda Azərbaycan və qoşulmama siyasəti" mövzusunda analitik təqdimatla çıxış edib.

Konfrans proqramının davamı olaraq, iştirakçıların Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında sahə tədqiqatları aparması, Ermənistanın işğalı dövründə ərazilərdə törədilmiş dağıntılarla və regionda həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri ilə yerində tanış olması məqsədilə infoturun keçirilməsi nəzərdə tutulur.

İnfotur Ağdam, Cəbrayıl, Füzuli, Şuşa və Laçın ərazilərini əhatə edəcək.

# "Bakı İqlim Fəaliyyəti Həftəsi" çərçivəsində şəhərlərin iqlim fəaliyyətində rolu müzakirə olunub

**"Bakı İqlim Fəaliyyəti Həftəsi 2026" çərçivəsində "İqlim fəaliyyətinin şəhər ölçüsünün inkişaf etdirilməsi: WUF13-dən COP31-ə doğru" mövzusunda panel sessiya keçirilib.**



AZƏRTAC xəbər verir ki, BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) Azərbaycan üzrə ölkə ofisinin rəhbəri Anna Soavenin moderatorluğu ilə keçirilən panel sessiyada şəhərlərin iqlim dəyişmələrinə qarşı mübarizədə rolu, dayanıqlı şəhər inkişafı və bu istiqamətdə beynəlxalq əməkdaşlığın əhəmiyyəti müzakirə olunub.

Böyük Britaniya Lordlar Palatasının üzvü, NGIC üzvü Patrisiya Skotland çıxışında iqlim dəyişmələri ilə mübarizədə şəhərlərin və yerli icmaların fəal iştirakının vacibliyini qeyd edib.

EBRD-nin Dayanıqlı İnfrastruktur Qrupunun Layihələrin Hazırlanması üzrə rəhbər müavini Lin O'Qreydi şəhərlərdə dayanıqlı infrastrukturun inkişaf etdirilməsinin iqlim məqsədlərinə nail olunmasında mühüm rol oynadığını vurğulayıb.

Beynəlxalq Maliyyə Korporasiyasının (IFC) ölkə üzrə nümayəndəsi Aliya Əzimova bildirib ki, şəhərlərin davamlı inkişafının təmin olunması üçün maliyyə resurslarının səfərbər edilməsi və özəl sektorun bu prosesə daha fəal cəlb olunması mühüm əhəmiyyət daşıyır.

İrqçiliyə Qarşı Avropa Şəhərlər Koalisiyasının direktoru Benedetto Zakkirollini çıxışında inklüziv və hər kəs üçün əlçatan şəhər mühitinin yaradılmasının vacibliyindən danışıb.

İctimai və Beynəlxalq Münasibətlər Məktəbinin İctimai İşlər üzrə dosenti Anar Vəliyev də mövzu ilə bağlı fikirlərini bölüşüb.

Sessiyada WUF13-ün yekun sənədi olan və inklüziv, davamlı və dayanıqlı şəhərlərlə icmaların inkişafı üçün əsas prioritetləri müəyyən edən Bakı Fəaliyyət Çağırışının icrasına xüsusi diqqət yetirilib.

Həmçinin hökumətlər, beynəlxalq təşkilatlar, maliyyə institutları və özəl sektor arasında tərəfdaşlıqların təşviq edilməsi, bilik mübadiləsinin genişləndirilməsi və əlaqələndirilmiş fəaliyyətin gücləndirilməsi yolu ilə iqlim və şəhərsalma gündəliklərinin inteqrasiyasının möhkəmləndirilməsi imkanları müzakirə olunub.

# Azərbaycanın xarici işlər nazirinin müavini ABŞ-nin Ermənistandakı müvəqqəti işlər vəkili ilə görüşüb

**Sentyabrın 8-də Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov ölkəmizdə səfərdə olan ABŞ-nin Ermənistandakı müvəqqəti işlər vəkili Deyvid Alen ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması, sülh prosesinin irəlilədilməsi, uzunmüddətli və dayanıqlı sülhün təmin olunması, eləcə də regionda sabitlik və təhlükəsizliyin möhkəmləndirilməsi istiqamətində atılan addımlar müzakirə edilib.

Görüş zamanı həmçinin Elnur Məmmədovun Vaşinqton Sülh Sammitinin ildönümü münasibətilə ABŞ-yə etdiyi səfərin nəticələri və imzalanmış üçtərəfli bəyanat, "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun (TRIPP) icrası istiqamətində aparılan fəaliyyət, habelə marşrutla bağlı infrastrukturun inşasına rəhbərlik edəcək TRIPP İnkişaf Şirkətinin yaradılması məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Bundan əlavə, Azərbaycan-ABŞ ikitərəfli gündəliyi və "Strateji Tərəfdaşlıq Xartiyası"nda əks olunmuş istiqamətlər üzrə əməkdaşlıq perspektivlərinə nəzər salınıb.

Görüşdə ABŞ-nin ölkəmizdəki müvəqqəti işlər vəkili Emi Karlon da iştirak edib.

# Türkiyə, Gürcüstan və İraqdan olan din xadimləri Şuşa şəhərində olublar

**Türkiyə, Gürcüstan və İraqda fəaliyyət göstərən azərbaycanlı din xadimlərindən ibarət nümayəndə heyəti Azərbaycanda səfərdədir.**



Səfər milli-mənəvi dəyərlərimizin qorunması, xaricdə yaşayan soydaşlarımızın tarixi Vətənə bağlılığının möhkəmləndirilməsi, eləcə də Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması məqsədini daşıyır. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə "Zəfərin yolu: Qələbənin izi ilə" layihəsi çərçivəsində reallaşan səfərdə həmin ölkələrdə fəaliyyət göstərən 50-yə yaxın azərbaycanlı din xadimi iştirak edir.

AZƏRTAC xəbər verir ki, din xadimləri sentyabrın 8-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə gəliblər. Nümayəndə heyətinin Şuşa ilə tanışlığı Xurşidbanu Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəllərinin yerləşdiyi şəhər mərkəzi meydanı ilə başlayıb. Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin əməkdaşları qonaqlara Şuşa şəhəri haqqında məlumat veriblər. Nümayəndə heyətinin diqqətinə çatdırılıb ki, 30 ilə yaxın işğal dövründə şəhərdəki tarixi binalar, məscidlər, abidələr erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra şəhərdə genişmiqyaslı bərpa-quruculuq işlərinə başlanılıb. İnfrastrukturun qurulması ilə yanaşı, Şuşanın tarixi-mədəni irsinin bərpası və qorunması istiqamətində də mühüm işlər görülüb.

Səfər zamanı məlumat verilib ki, qədim Şuşada 17 məhəllə olub. Hər məhəllədə hamam, məscid və bulaq var idi. Qədim məhəllələrdəki tarixi-memarlıq nümunəsi olan bu tikililər, o cümlədən məscidlər də erməni vandalizminə məruz qalıb. Şəhər işğaldan azad olunduqdan sonra Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Saatlı, Mamayı və Çöl Qala məscidləri bərpa olunub, Yeni Şuşa məscidinin inşasına başlanılıb.

Nümayəndə heyəti Xurşidbanu Natəvanın evi, Xan qızı bulağı, Şuşa qalası, Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa məscidləri, Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi ilə tanış olub, Cıdır düzündən açılan təbiət mənzərələrini seyr edib.

Nümayəndə heyətinin səfər proqramı sentyabrın 9-dək davam edəcək.

# "Bakı İqlim Fəaliyyəti Həftəsi 2026"da kənd təsərrüfatında süni intellektin rolu

**"Bakı İqlim Fəaliyyəti Həftəsi 2026" ikinci günündə panel sessiyalarla davam edir.**



AZƏRTAC xəbər verir ki, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) təbii sərvətlər üzrə mütəxəssisi Evetta Zeninanın moderatorluğu ilə keçirilən panel sessiyada "Rəqəmsal transformasiya və süni intellekt: İqlimədavamlı kənd təsərrüfatının qurulması" mövzusunda müzakirələr aparılıb.

Türkiyənin Kənd Təsərrüfatı və Meşəçilik Nazirliyinin Beynəlxalq təşkilatlarla əməkdaşlıq departamentinin rəhbəri Tolqaxan Bəxtiyar bildirib ki, iqlim dəyişmələrinin kənd təsərrüfatına təsirlərinin azaldılması üçün ölkələr arasında təcrübə mübadiləsi və beynəlxalq əməkdaşlıq gücləndirilməlidir. Onun sözlərinə görə, rəqəmsal texnologiyalar fermerlərin iqlim risklərinə daha çevik uyğunlaşmasına imkan yaradır.

Azərbaycanın Kənd Təsərrüfatı Nazirliyinin süni intellekt layihələri üzrə rəhbəri Surxay Novruzov qeyd edib ki, süni intellekt kənd təsərrüfatında məhsuldarlığın artırılması, resurslardan səmərəli istifadə və fermerlərin qərarvermə imkanlarının genişləndirilməsi üçün mühüm alətə çevrilə bilər.

FAO-nun Azərbaycandakı Tərəfdaşlıq və Proqramlar üzrə rəhbəri Aynur Seyidyusif süni intellekt və məlumatlara əsaslanan həllərin iqlimədavamlı kənd təsərrüfatının formalaşdırılmasında mühüm rol oynadığını bildirib. Onun sözlərinə görə, bu texnologiyaların tətbiqi fermerlərə daha düzgün və vaxtında qərarlar qəbul etməyə kömək göstərir.

Azərbaycanın Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin sədr müavini Şahin Əliyev rəqəmsal transformasiyanın kənd təsərrüfatında innovasiyaların tətbiqini sürətləndirdiyini diqqətə çatdırıb. O qeyd edib ki, süni intellekt kənd təsərrüfatının daha dayanıqlı və səmərəli inkişafına şərait yaradır.

Asiya İnkişaf Bankının İnsan və Sosial İnkişaf Sektoru üzrə layihə əməkdaşı Sabina Yusifova isə rəqəmsal texnologiyaların sosial və iqtisadi inkişafı dəstəklədiyini bildirib. Onun sözlərinə görə, innovativ həllərin əlçatanlığının artırılması fermerlərin imkanlarını genişləndirə və iqlim risklərinə davamlılığı gücləndirə bilər.

Sessiyada həmçinin kənd təsərrüfatının iqlim dəyişmələrinə davamlılığının gücləndirilməsi, fermerlərə göstərilən dəstək xidmətlərinin təkmilləşdirilməsi və innovativ yanaşmaların geniş tətbiqi məsələləri müzakirə edilib.

Azərbaycanın iqlim dəyişmələrinə uyğunlaşma istiqamətində süni intellektdən və sübutlara əsaslanan kənd təsərrüfatı siyasətindən istifadə təcrübəsi də diqqət mərkəzində olub.

Bildirilib ki, rəqəmsal transformasiya kənd təsərrüfatının daha dayanıqlı və səmərəli inkişafına, eyni zamanda iqlim dəyişmələrinin yaratdığı risklərə çevik reaksiya verilməsinə imkan yaradır.

Sessiyada bu istiqamətdə beynəlxalq əməkdaşlığın və qabaqcıl texnologiyaların kənd təsərrüfatında tətbiqinin genişləndirilməsinin vacibliyi vurğulanıb.

# "Öhdəliklərdən icraya: COP31-ə doğru" mövzusunda yüksəksəviyyəli "dəyirmi masa" təşkil edilib



**BCAW2026 çərçivəsində "Öhdəliklərdən icraya: COP31-ə doğru" mövzusunda yüksəksəviyyəli "dəyirmi masa" təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi və COP29-un prezidenti Muxtar Babayev iqlim fəaliyyətinin artıq gələcəyin bacarıqlarını, peşələrini və imkanlarını dəyişdiyini qeyd edib.

"Biz təhsilin gənclərə ehtiyac duyduqları bilik və praktiki bacarıqları qazandırmasını, eyni zamanda onları elm, texnologiya, innovasiya və real həll yolları ilə daha sıx bağlamasını təmin etməliyik. Gənclər həmçinin təmiz enerji, mühəndislik, maliyyə, kənd təsərrüfatı və digər sektorlarda yaranan yeni iş yerlərinə və imkanlara çıxış əldə edə bilməlidirlər", - deyə Muxtar Babayev bildirib.

O, Azərbaycanın gənclərin beynəlxalq iqlim proseslərində iştirakını dəstəklədiyini, təhsil, bacarıqlar və potensialın artırılması məsələlərinə diqqəti gücləndirdiyini qeyd edib. Muxtar Babayev həmçinin uşaq və gənclərin baxışlarının iqlim fəaliyyətində daha yaxşı əks olunmasını təmin etmək üçün beynəlxalq tərəfdaşlarla birgə çalışdıqlarını diqqətə çatdırıb.

COP29-un baş danışıqçısı Yalçın Rəfiyev qeyd edib ki, Azərbaycan COP29 Sədrliyi dövründə uşaq və gənclər məsələsini qlobal iqlim gündəliyinin yuxarı pillələrinə yüksəldib. "Bu, iqlim diplomatiyamızı gələcək nəsil üçün daha əhatəli və çevik etməyə yönəlmiş genişmiqyaslı səylərimizə mühüm töhfə olub. Azərbaycan keçən il COP Sədrliyini təhvil versə də, qlobal iqlim diplomatiyasında fəal rol oynamağa davam edir. Hazırda "Bakıdan Belemə 1.5°C Missiyası" çərçivəsində COP Üçlüyünün (Troika) üzvü kimi, biz braziliyalı, türkiyəli və avstraliyalı həmkarlarımızla birlikdə COP31 üçün hesabat hazırlayırıq. Bu prosesin bir hissəsi olaraq gənclərlə əməkdaşlıq edir, onların baxışlarının kollektiv işimizə inteqrasiya olunmasını həyata keçiririk", - deyə nazir müavini bildirib.

COP31-in icraçı direktoru Fatma Varank Türkiyədə keçiriləcək COP-un konkret icraat və tətbiq platforması olmasını istədiklərini və burada ən çox gəncləri görmək niyyətində olduqlarını qeyd edərək deyib: "COP31 gənclərin COP-u olacaq. Hər biriniz orada söz sahibinə çevriləcəksiniz. Həm Yaşıl, həm də Mavi Zonada sizin üçün xüsusi məkanlar ayrılacaq. Gənclər üçün təşkil ediləcək forumda gözləntilərinizi təsirli şəkildə ifadə etməyiniz üçün lazımi şərait yaradılacaq. Qeyd etdiyiniz təklif və yekun sənədlər COP-un ümumi nəticələrində öz əksini tapacaq".

COP31 Gənclər Çempionu Sally Higgins COP31 özünü "gələcəyin COP-u" kimi mövqeləndirdiyini və fəaliyyətin icrasını öz gündəliyinin mərkəzinə qoyduğunu söyləyib. "Bu sədrlik hər birimizi iqlim sahəsindəki uğur anlayışına yenidən baxmağa çağırır. Uğur yalnız götürülən öhdəliklərlə deyil, əldə etdiyimiz praktiki nəticələrlə ölçülməlidir. Bu isə bizi qarşıda duran imkanları düzgün dəyərləndirməyə gətirib çıxarır", - deyə Gənclər Çempionu qeyd edib.

"Dəyirmi masa"da qlobal iqlim fəaliyyətində gənclərin rolu və təhsilin praktiki imkanlara inteqrasiyası barədə danışılıb. Tədbirdə COP29-un nəticələrindən COP31-ə doğru uzanan iqlim diplomatiyasında gənc nəslin potensialının artırılması və onların qərarlarda söz sahibi olmasının vacibliyi vurğulanıb.

# Daxili su hövzələrində iqlim dəyişmələrinin yaratdığı çağırışlar müzakirə olunub

**"Bakı İqlim Fəaliyyəti Həftəsi" (BCAW 2026) çərçivəsində "Daxili su hövzələrində iqlim dəyişmələrinin yaratdığı çağırışlar: Xəzər dənizi nümunəsi" mövzusunda sessiya keçirilib.**



AZƏRTAC xəbər verir ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin baş katibi Rza Əliyevin moderatorluğu ilə keçən sessiyada çıxış edən ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev bildirib ki, iqlim dəyişmələri dünyanın bir çox bölgəsində su ehtiyatlarına getdikcə daha ciddi təsir göstərir. Temperaturun yüksəlməsi, yağıntı rejiminin və çay axınlarının dəyişməsi, buxarlanmanın artması su ehtiyatlarının vəziyyətinə, biomüxtəlifliyə və ekosistemlərə təsir etməklə yanaşı, əhalinin rifahı, ərzaq təhlükəsizliyi və iqtisadi inkişaf üçün də yeni çağırışlar yaradır. Xəzər dənizi regionumuz üçün bu çağırışların ən aydın nümunələrindən biridir.

Nazir müavini bildirib ki, Xəzərin su səviyyəsinin son onilliklərdə davamlı şəkildə enməsi artıq yalnız gələcəyə dair proqnoz mövzusu deyil, bu gün müşahidə etdiyimiz reallıqdır. Sahil xəttinin geri çəkilməsi, sahilyanı zonaların dəyişməsi, ekosistemlərin və yaşayış areallarının daralması, Xəzər suitisi və nərə balıqları kimi qiymətli növlər üçün yaranan risklər bu prosesin ekoloji nəticəsidir.

Eyni zamanda həmin dəyişikliklərin təsiri yalnız ətraf mühitlə məhdudlaşmır. Xəzərin dayazlaşması sahilyanı icmaların həyatına, şəhərlərə, infrastruktura, nəqliyyata, limanların fəaliyyətinə və bütövlükdə sahilyanı iqtisadi fəaliyyətə ciddi təsirlər göstərə bilər. Bu isə öz növbəsində gələcək investisiya və inkişaf planlarının iqlim riskləri nəzərə alınmaqla yenidən qiymətləndirilməsini zəruri edir.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov bildirib ki, son illərdə Xəzərdə su səviyyəsinin dəyişməsi ciddi narahatlıq doğurur. Bu dəyişiklik sahilyanı ərazilərə, şəhərlərə və infrastruktura təsir göstərə bilər. Bunun qarşısının alınması üçün mütəmadi monitorinqlərin aparılması zəruridir.

Sessiya məruzələrlə və müzakirələrlə davam edib.

Panel sessiyasında iqlim dəyişmələrinin daxili su hövzələrinə təsiri əsas nümunə kimi Xəzər dənizi üzərindən müzakirə olunub. Sahilyanı ekosistemlərin, icmaların, infrastrukturun və iqtisadiyyatın dəyişən iqlim şəraitinə davamlılığının artırılması üçün praktiki yollar nəzərdən keçirilib.

Çıxışlarda iqlim dəyişmələrinin təsiri ilə Xəzər dənizində su səviyyəsinin dəyişməsinin miqyası, zaman dinamikası və regional təsirləri, Xəzərin sahil xəttinin dəyişməsinin sahilyanı ekosistemlərə, icmalara, şəhərlərə, infrastruktura, nəqliyyata və iqtisadi fəaliyyətə təsiri, müxtəlif su səviyyəsi ssenariləri üzrə həyata keçirilə biləcək praktiki uyğunlaşma tədbirləri, elmi tədqiqatlar, siyasətin formalaşdırılması, investisiya planlaşdırılması və yerli səviyyədə icra arasında əlaqələrin gücləndirilməsindən söhbət açılıb. Həmçinin Xəzəryanı dövlətlər, beynəlxalq təşkilatlar, inkişaf tərəfdaşları, elmi qurumlar, biznes və icmalar arasında regional əməkdaşlığın gücləndirilməsi, həmçinin Xəzər dənizinin iqlim dəyişmələrinə həssas olan digər daxili su hövzələri üçün verdiyi dərslərdən bəhs olunub.

Müzakirələr problemin təsviri ilə məhdudlaşmayıb. Dəyişən Xəzər sahil xəttinə hazırlaşmaq üçün atılmalı addımlar, tərəfdaşlıqlar və zəruri investisiyalar diqqət mərkəzində saxlanılıb.

# "Çoxmühitli erkən xəbərdarlıq sistemlərinə AI inteqrasiyasının üstünlükləri və çətinlikləri"

**"Bakı İqlim Fəaliyyəti Həftəsi 2026" (BCAW2026) ikinci günündə işini panel sessiyalarla davam etdirir.**



AZƏRTAC xəbər verir ki, İqlim Texnologiyaları Mərkəzi və Şəbəkəsinin direktoru Ariesta Ninqrumun moderatorluğu ilə keçirilən tədbirdə "Çoxmühitli erkən xəbərdarlıq sistemlərinə AI inteqrasiyasının üstünlükləri və çətinlikləri" mövzusu müzakirə olunub.

Milli Məclisin Ailə, qadın və uşaq problemləri komitəsinin sədri Hicran Hüseynova qeyd edib ki, süni intellektin iqlim dəyişikliyinin qarşısının alınması sahəsinə tətbiq edilməsi zamanı hüquqi çərçivə texnoloji innovasiyaların sürətini məhdudlaşdırmamalıdır.

O, Prezident İlham Əliyevin 19 mart 2025-ci il tarixli sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası"nın olduqca vacib sənəd olduğuna diqqət çəkib: "Çünki Azərbaycanda süni intellektin çoxsaylı təhlükələr üzrə erkən xəbərdarlıq sistemlərinə birbaşa həsr olunmuş xüsusi qanun layihəsi hələlik mövcud deyil. Lakin sözügedən sənəd milli strategiyalar və institusional bazanı mövcud edir. Həmçinin ölkəmizdə Rəqəmsal İnkişaf Şurası yaradılıb və bu qurum süni intellekt texnologiyalarının tətbiqi, o cümlədən dövlət idarəçiliyində və proqnozlaşdırma sistemlərində rəqəmsal həllərin genişləndirilməsini müvafiq yol xəritələri ilə tənzimləyir".

Kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova fermerlər üçün iqlim təhlükəsinin heç vaxt, sadəcə, meteoroloji hadisə olmadığını deyib: "Quraqlıq məhsul itkisinə səbəb olur. İsti hava dalğaları bitkilərin məhsuldarlığını azalda və heyvandarlıqda ciddi istilik stresi yarada bilər. Güclü yağıntılar və daşqınlar əkin sahələrinə və kənd infrastrukturuna zərər vurur. Su qıtlığı isə bəzi hallarda məhsul istehsalının mümkün olub-olmayacağını müəyyən edən əsas amilə çevrilir. Kənd təsərrüfatında isə vaxt həlledici əhəmiyyət daşıyır".

Nazir müavininin sözlərinə görə, təhlükə barədə hətta 24 saat əvvəl verilən xəbərdarlıq potensial zərərin əhəmiyyətli dərəcədə azaldılmasına imkan verə bilər. Lakin Kənd Təsərrüfatı Nazirliyinin baxışına görə, məsələ bununla məhdudlaşmır. Yalnız təhlükəni əvvəlcədən proqnozlaşdırmaq kifayət deyil. "Biz proqnozu fermer üçün vaxtında, anlaşılan və konkret fəaliyyətə imkan verən qərara çevirməliyik. Məhz bu baxımdan, rəqəmsal transformasiya və süni intellektəsaslı həllər mühüm imkanlar yaradır".

Azərbaycan Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov vurğulayıb ki, təhlükəsizliyin təmin olunması, risklərin əvvəlcədən müəyyənləşdirilməsi və insanların təhlükələr barədə vaxtında məlumatlandırılması müxtəlif sahələri birləşdirən ümumi yanaşmadır. Bu gün dünyada təhlükələrin xarakteri dəyişir və daha mürəkkəb forma alır. İqlim dəyişikliyi nəticəsində daşqınlar, sel, torpaq sürüşmələri, quraqlıq, meşə yanğınları və digər təbii fəlakətlərin intensivliyi artır. "Məlum olduğu kimi, Azərbaycan dünyada minalarla ən çox çirklənmiş ölkələr sırasındadır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ilkin qiymətləndirmələrə əsasən, bir milyondan çox mina ilə çirkləndirilib. Bu, minimum hesablama ilə zərərli maddələrlə çirklənmiş 480 ton plastik kütlə deməkdir", - deyə ANAMA-nın İdarə Heyətinin sədri vurğulayıb.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (ADSEA) sədrinin birinci müavini Xəyyam Məmmədov bildirib ki, daha uzun quraqlıqlar, daha şiddətli sel və daşqın hadisələri və intensiv yağıntılar iqtisadiyyatın müxtəlif sahələrinə, o cümlədən kənd təsərrüfatı, şəhər infrastrukturu və əhalinin rifahına ciddi təsir göstərir. Bu kontekstdə erkən xəbərdarlıq sistemlərinin istifadəsi yalnız texnoloji prioritet deyil, həm də iqlimə dayanıqlılıq və fəlakət risklərinin azaldılması tədbirlərinin mühüm tərkib hissəsidir.

Türkiyənin Meteorologiya Xidmətinin rəhbəri Volkan Mutlu Coşğun isə iqlim dəyişmələrinin yaratdığı risklər artdıqca, erkən xəbərdarlıq sistemlərinin əhəmiyyətinin də yüksəldiyinə diqqət çəkib. Onun sözlərinə görə, bu sahədə süni intellekt yeni imkanlar yaradır.

"Süni intellekt böyük həcmdə meteoroloji və iqlim məlumatlarını təhlil edərək sel, daşqın, quraqlıq, güclü külək və digər ekstremal hava hadisələrini daha əvvəl proqnozlaşdırmağa kömək edə bilər. Belə sistemlər təhlükə barədə vaxtında məlumat verməklə insanların həyatını qorumağa, infrastruktura dəyən zərəri azaltmağa və fövqəladə hallara daha çevik hazırlaşmağa imkan verir".

Panel sessiya müzakirələrlə davam edib.

# "Yaşıl Dünya üçün Rəqəmsal Fəaliyyət Yolu"

**"Bakı İqlim Fəaliyyəti Həftəsi 2026" çərçivəsində "COP29-dan İqlim Həftəsinə: Yaşıl Dünya üçün Rəqəmsal Fəaliyyət Yolu" mövzusunda panel sessiya keçirilib.**



AZƏRTAC xəbər verir ki, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin təşkilatçılığı ilə keçirilən sessiya COP29 zamanı qəbul edilmiş Yaşıl Rəqəmsal Fəaliyyətə dair Bəyannamənin davamı olaraq dayanıqlı rəqəmsallaşmanın inkişaf etdirilməsi məsələlərinə həsr olunub.

Rəqəmsal İnkişaf və Nəqliyyat nazirinin müavini Rəşad Həsənov bildirib ki, Azərbaycanda rəqəmsal dövlət xidmətlərinin genişləndirilməsi hər ay təxminən 5 milyon səhifə kağızın istifadəsinin qarşısını alır.

Onun sözlərinə görə, "mygov" tətbiqi vasitəsilə doğumun qeydiyyatından nikahın rəsmiləşdirilməsinə və şəxsiyyətin müəyyənləşdirilməsinə qədər bir sıra mühüm həyat hadisələri üzrə xidmətlər rəqəmsal formada təqdim edilir. Bu isə çap olunan sənədlərin sayının və dövlət qurumlarına təkrar müraciətlərin azalmasına imkan verir.

Belçikanın sabiq baş naziri Yves Leterme çıxışında rəqəmsal texnologiyaların dünya vətəndaşlarının böyük əksəriyyətinin həyatının ayrılmaz hissəsinə çevrildiyini bildirib. O, rəqəmsallaşmanın yaratdığı imkanlardan daha geniş istifadə edilməsinin, xüsusilə dövlət idarəçiliyində geridə qalan sahələrdə yeni imkanların reallaşdırılmasının vacibliyini vurğulayıb.

İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin sədri Fərid Osmanov qeyd edib ki, Azərbaycanda rəqəmsallaşma gündəliyinin əsas hədəflərindən biri dövlət xidmətlərinin 80 faizdən çoxunun rəqəmsallaşdırılmasıdır.

O bildirib ki, rəqəmsallaşma ayrı-ayrı xidmətlərin elektronlaşdırılması ilə məhdudlaşmamalı, gündəlik proseslərə genişmiqyaslı təsir göstərməlidir. Milli səviyyədə tətbiq olunan rəqəmsal həllər vətəndaşların və biznes subyektlərinin gündəlik fəaliyyətini əhəmiyyətli dərəcədə dəyişir.

Dünya İqlim Fondunun təsisçisi və baş icraçı direktoru Jens Nielsen bildirib ki, ötən il enerjiyə yatırılan ümumi investisiyaların təxminən üçdəikisi - 2,3-2,4 trilyon ABŞ dolları - "yaşıl enerji"yə yönəldilib. Onun sözlərinə görə, bu investisiyaların təxminən 90 faizi günəş və külək enerjisinin payına düşüb.

"Baker Hughes" şirkətinin direktoru Sai Sharan Panda isə rəqəmsal texnologiyaların enerji dəyər zəncirində emissiyaların daha çox yarandığı sahələri müəyyənləşdirməyə imkan verdiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, bu texnologiyalar vasitəsilə emissiyaların əsas mənbələrinə fokuslanmaq və iqlim məqsədlərinə daha səmərəli şəkildə nail olmaq mümkündür.

Sessiyada rəqəmsal infrastrukturun iqlim dayanıqlılığının və enerji səmərəliliyinin gücləndirilməsi, rəqəmsal inklüzivliyin və savadlılığın artırılması, texnologiyalara bərabər çıxış imkanlarının genişləndirilməsi məsələləri müzakirə olunub.

Həmçinin hökumətlər, gənclər, qadınlar, startaplar, kiçik və orta biznes subyektləri və tədqiqat institutlarının iştirakı ilə innovasiya ekosistemlərinin inkişaf etdirilməsi məsələlərinə diqqət yetirilib.

Sessiyanın gündəliyində iqlim məlumat sistemlərinin təkmilləşdirilməsi və standartlaşdırılmış monitorinq mexanizmlərinin tətbiqi vasitəsilə məlumatlara əsaslanan qərar qəbuletmənin gücləndirilməsi məsələləri də yer alıb.

Müzakirələr zamanı Yaşıl Rəqəmsal Fəaliyyətin qlobal miqyasda həyata keçirilməsini sürətləndirmək məqsədilə beynəlxalq əməkdaşlığın, bilik və qabaqcıl təcrübə mübadiləsinin genişləndirilməsi məsələləri də nəzərdən keçirilib.



# AZƏRBAYCANIN YENİ RƏQƏMSAL ARXİTEKTURASI



## Rəqəmsallaşma müəllifliк hüququnun sonu yox, yeni mərhələsidir

**Rəqəmsallaşma və son illərin ən mühüm texnoloji yeniliklərindən biri olan süni intellekt bəşəriyyət üçün misilsiz imkanlar yaratdığı qədər bir sıra aktual suallar da doğurur. Bu sualların ən əhəmiyyətlilərindən biri müəlliflik hüququ ilə bağlı məsələdir. Çünki süni intellekt yaradıcılıq prosesinin xarakterini və sərhədlərini dəyişdiyindən müəlliflik hüququ yeni çağırışlarla üz-üzə qalır.**

Ənənəvi yaradıcılıq prosesində hər əsərin arxasında, bir qayda olaraq, onu yaradan konkret insan dayanırdı və müəllifliyin müəyyənləşdirilməsində həmin şəxsin yaradıcı töhfəsi əsas meyarlardan biri hesab olunurdu. Onun ideyası, zəhməti, istedadı və yaradıcılığı əsərin müəllifliyini müəyyən edən əsas meyarlar idi. Bu gün isə generativ süni intellektin inkişafı ilə vəziyyət əhəmiyyətli dərəcədə dəyişib. Bir neçə saniyə ərzində süni intellektə verilən sadə bir tapşırıqla mətn, musiqi, illüstrasiya, foto, video, hətta mürəkkəb dizayn nümunəsi yaratmaq olur. Bu zaman ortaya çıxan məhsulun müəllifi ilə bağlı suallara aydınlıq gətirmək o qədər asan deyil. Burada əsas sual yalnız nəticənin kimin tərəfindən yaradılması deyil, insanın həmin nəticənin formalaşmasında hansı səviyyədə və xarakterdə yaradıcı töhfə verməsidir. Bu əsər insana aid yaradıcılıqdır, yoxsa maşının yaratdığı nəticə? İnsanın süni intellektdən istifadə etməklə yaratdığı nəticə hansı hallarda müəlliflik hüququ ilə qoruna bilər? Əsərin konkret müəllifi kimdir? Süni intellektin özü müəllif hesab edilə bilərmi? Süni intellektin təlimi zamanı istifadə olunan milyonlarla kitab, məqalə, şəkil və musiqi nümunəsinin müəlliflərinin hüquqları necə qorunmalıdır?..

Burada texnologiyanın sürəti hüququn sürətini qabaqlayır. Məhz buna görə rəqəmsallaşma, süni intellekt və müəlliflik hüququ məsələsi artıq yalnız hüquqşünasların, proqramçıların və yaradıcı insanların müzakirə etdiyi dar ixtisas mövzusu deyil. Onlar bu çərçivədən çıxaraq informasiya cəmiyyətinin gələcəyinə, kreativ iqtisadiyyatın inkişafına, müəlliflərin və digər hüquq sahiblərinin maraqlarının qorunmasına və insan yaradıcılığının dəyərinin müəyyənləşdirilməsinə birbaşa təsir göstərən strateji məsələyə çevrilib.

### Yaradıcılıqda yeni mərhələ

Rəqəmsallaşma ilk növbədə müəllif üçün böyük imkanlar yaradıb. Əvvəllər kitabını nəşr etdirmək üçün nəşriyyata, musiqisini yaymaq üçün prodüserə, filmini nümayiş etdirmək üçün distribütora ehtiyac duyan yaradıcı insan bu gün öz məhsulunu birbaşa auditoriyaya çox rahatlıqla çatdıra bilir. Sosial şəbəkələr, rəqəmsal platformalar, elektron kitablar, müvafiq rəqəmsal xidmətlər və onlayn media yaradıcı məhsulların yayılma coğrafiyasını praktik olaraq sərhədsizləşdirir. Yəni bu gün müəlliflə onun auditoriyası arasında əvvəllər mövcud olan bir çox vasitəçi halqalar aradan qalxıb.

Amma imkan artdıqca risk də artır. Bir əsəri internetdə yerləşdirmək onu bütün dünyaya təqdim etmək deməkdir. Eyni zamanda həmin əsərin icazəsiz köçürülməsi, dəyişdirilməsi, kommersiya məqsədilə istifadəsi və müəllifin adı göstərilmədən yayılması da asanlaşıb. Beləliklə, rəqəmsal mühit müəllifə bir tərəfdən görünməmiş auditoriya qazandırırsa, digər tərəfdən, onun əsər üzərində nəzarət imkanlarını da zəiflədir. Yaradıcı məhsulun yayılmasının asanlaşması onun qorunması məsələsini də eyni dərəcədə aktuallaşdırır. Bu ziddiyyət süni intellekt dövründə daha da kəskinləşməkdədir.

Süni intellekt müəlliflik anlayışını dəyişir. Generativ süni intellektin meydana çıxması ilə ənənəvi "müəllif-əsər" münasibətinə üçüncü bir element - alqoritm (hər hansı bir problemin həlli üçün addımlar ardıcıllığı) əlavə olunub. Bu münasibət əsasında insan ideyanı verir, süni intellekt həmin ideyanı mətnə, təsvirə, musiqiyə və ya videoya çevirir. Bəzən insanın müdaxiləsi çox məhdud olur, bəzənsə istifadəçi nəticəni dəfələrlə dəyişdirir, seçir, redaktə edir və öz yaradıcılıq yanaşmasını əsərə daxil edir. Nəticədə eyni texnologiyadan istifadə etməklə ortaya çıxan iki məhsulun müəlliflik baxımından hüquqi statusu tamamilə fərqli ola bilir. Bu iki vəziyyəti eyni hüquqi çərçivədə qiymətləndirmək çətindir.

Əgər insan, sadəcə, "mənə bir şəkil yarat" deyib nəticəni olduğu kimi istifadə edirsə, burada insanın yaradıcı töhfəsinin miqyası sual doğurur. Amma əgər rəssam süni intellektdən yalnız alət kimi istifadə edir, kompozisiyanı qurur, obrazları seçir, nəticəni dəyişir, redaktə edir və əsərə öz yaradıcı yanaşmasını gətirirsə, onda insanın müəllif kimi rolu daha aydın görünür. Deməli, əsas məsələ süni intellektin hansı imkanlara malik olması deyil, insanın həmin imkanlardan necə və hansı səviyyədə yararlanmasıdır.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin mövcud yanaşması da məhz insan yaradıcılığını əsas götürür: insanın iştirakı olmadan süni intellekt tərəfindən yaradılan nəticə müəlliflik hüququ ilə qorunan əsər hesab edilmir, insanın yaradıcı töhfəsi olduğu halda isə hüquqi qiymətləndirmə həmin töhfə üzərindən aparılır. Bu yanaşmanın arxasında sadə, amma fundamental fikir dayanır: müəlliflik hüququnun mərkəzində maşın deyil, insan olmalıdır.

Texnologiya dəyişə, yaradıcılıq alətləri yenilənə, hətta əsərin yaranma prosesi əvvəlkindən tamamilə fərqli ola bilər. Lakin müəlliflik hüququnun qarşısında duran əsas sual dəyişmir: əsərin arxasında insanın yaradıcı iradəsi varmı?

Məhz bu sual rəqəmsal və süni intellekt dövründə müəlliflik anlayışının gələcəyini müəyyən edəcək. Çünki süni intellekt əsər yarada bilər, lakin müəlliflik hüququnun qoruduğu dəyərin mərkəzində hələ də insan yaradıcılığı dayanır.

### Süni intellekt hansı mənbələrdən qidalanır?

Məsələnin digər və bəlkə də daha mürəkkəb tərəfi isə süni intellektin özünün necə öyrədilməsidir. Böyük dil modelləri, təsvir yaradan sistemlər və digər generativ süni intellekt alətləri çox böyük həcmdə məlumat üzərində təlim keçirlər. Bu məlumatlar içərisində kitablar, məqalələr, fotoşəkillər, rəsm əsərləri, musiqi, film və digər müəlliflik hüququ ilə qorunan materiallar ola bilər. Bunu nəzərə aldıqda belə bir fundamental suala cavab axtarmaq lazım gəlir: bir müəllifin əsəri onun icazəsi olmadan süni intellekt sisteminin təlimində istifadə edilə bilərmi? Əgər edilirsə, bunun hansı şərtlərlə mümkün olması müəyyənləşdirilməlidir. Əgər müəllifin icazəsi tələb olunursa, bunu milyonlarla əsərə münasibətdə necə həyata keçirmək olar? Müəllifə kompensasiya ödənilməlidirmi, ödəniləcəksə, mexanizm necə qurulmalıdır? Ekspertlərin fikrincə, bu sualların cavabı, təəssüf ki, hələ formalaşmayıb.

Ümumdünya Əqli Mülkiyyət Təşkilatının da son illər süni intellekt və müəlliflik hüququ mövzusuna xüsusi diqqət yetirməsi təsadüfi deyil. Təşkilatın müzakirələrində generativ süni intellekt üçün təlim məlumatları, hüquqların idarə olunması, müəllifliyin müəyyənləşdirilməsi və yaradıcıların kompensasiyası əsas məsələlər sırasında yer alır.

Azərbaycanın rəqəmsal inkişaf siyasətində süni intellekt artıq ayrıca strateji istiqamət kimi müəyyənləşdirilib. 2025-ci ilin yanvarında təsdiqlənmiş Rəqəmsal İnkişaf Konsepsiyası rəqəmsal transformasiyanın sürətləndirilməsini və dövlət xidmətlərindən iqtisadiyyata qədər müxtəlif sahələrdə rəqəmsal həllərin inkişafını nəzərdə tutur.

Məlum olduğu kimi, 2025-ci ilin martında Azərbaycanın 2025-2028-ci illər üçün Süni İntellekt Strategiyası təsdiqlənib. Strategiyanın əsas məqsədləri sırasında süni intellekt üzrə tədqiqatların təşviqi, infrastrukturun əlçatanlığının təmin edilməsi, informasiya texnologiyalarının və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, ixtisaslı kadr potensialının gücləndirilməsi yer alır. 2026-cı ilin fevralında isə rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində dövlət siyasətinin əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə Rəqəmsal İnkişaf Şurası yaradılıb.

Bütün bunlar göstərir ki, Azərbaycan süni intellekt əsrində yalnız texnoloji imkanlardan yararlanmağa deyil, həm də öz intellektual kapitalını qorumağa, bu kapital əsasında yeni dəyərlər yaratmağa çalışır. Bu məsələ ölkəmiz üçün xüsusi əhəmiyyət kəsb edir.

Dövlət dilimiz olan Azərbaycan dilinin qlobal internet məkanında zəngin məlumat bazasına malik olması, eləcə də süni intellekt sistemlərinin Azərbaycan dilində daha keyfiyyətli işləməsi üçün böyük həcmdə milli dil resurslarına - kitablar, məqalələr, media materialları, elmi mətnlər, lüğətlər, audio və video kontentə ehtiyac var. Burada məqsəd yalnız məlumatı süni intellekt alətləri üçün əlçatan etmək olmamalıdır. Məlumatın hüquqi statusu, istifadə şərtləri və müəllifin razılığı da bu rəqəmsal ekosistemin ayrılmaz hissəsinə çevrilməlidir.

Azərbaycan dilində keyfiyyətli rəqəmsal korpusların yaradılması, müəlliflik hüququ ilə qorunan əsərlərin qanuni istifadəsi üçün lisenziyalaşdırma mexanizmlərinin qurulması bu baxımdan strateji əhəmiyyət daşıyır. Əslində, qarşıdakı əsas vəzifələrdən biri məhz bu iki tələbi - süni intellektin inkişafı üçün zəngin milli məlumat bazasının formalaşdırılmasını və müəllif hüquqlarının etibarlı qorunmasını - bir-birinə qarşı qoymadan uzlaşdırmaqdır. Milli rəqəmsal kontent nə qədər zəngin olarsa, süni intellekt sistemlərinin Azərbaycan dilində imkanları da bir o qədər genişlənəcək. Lakin bu zənginliyin davamlı olması üçün onu yaradan müəllifin hüquqları da eyni dərəcədə qorunmalıdır.

Beləliklə, süni intellektin gələcəyi təkcə texnologiyanın nə qədər "ağıllı" olmasından deyil, onun hansı məlumatlardan qidalandığından və həmin məlumatların hüquqi, etik və ədalətli şəkildə necə istifadə edilməsindən də asılı olacaq.

### Nə etməli?

Mövcud çağırışların ən mühümlərindən biri qanunvericiliyin texnologiyanın sürətinə uyğunlaşdırılmasıdır. Məsələ burasındadır ki, mövcud müəlliflik hüququ sistemi əsrlərdir ki, insan yaradıcılığı üzərində qurulub. Generativ süni intellekt isə yeni hüquqi münasibətlər meydana çıxarır. Azərbaycanın Süni İntellekt Strategiyasında da normativ-hüquqi bazanın təkmilləşdirilməsi və süni intellekt haqqında qanunun qəbul edilməsi istiqamətində tədbirlər nəzərdə tutulur.

Daha bir problem müəllifin əsərinin süni intellekt təlimində istifadəsi və bu zaman əqli mülkiyyət hüququnun qorunmasıdır. Problemlərdən biri də süni intellektin özünün yaratdığı məhsulun hüquqi statusudur. Digər problem saxta və manipulyativ kontentdir. "Deepfake" texnologiyaları artıq insanın səsini, görüntüsünü və danışığını olduğu kimi təqlid etməyə imkan verir. Bu isə yalnız müəlliflik hüququ deyil, şəxsi toxunulmazlıq, reputasiya, kommersiya hüquqları və informasiya təhlükəsizliyi məsələlərini də gündəmə gətirir.

Mütəxəssislərin fikrincə, əsas problem yaradıcı əməyin iqtisadi dəyərinin qorunmasıdır. Əgər bazarda eyni işi daha sürətli və daha ucuz şəkildə süni intellektlə yaratmaq mümkündürsə, uzun illər konkret sahələrdə təhsil alaraq özünü inkişaf etdirmiş, müəyyən yaradıcılıq sahələrində səriştələr qazanmış rəssamların, yazıçıların, bəstəkarların, dizaynerlərin, jurnalistlərin və başqalarının əməyinin bazar dəyəri necə qorunacaq? Bu suala veriləcək cavab yalnız hüquqi yox, həm də iqtisadi və mədəni əhəmiyyət daşıyır.

Burada həll yolu texnologiyanı məhdudlaşdırmaq yox, qaydaları yeniləməkdən keçir. Süni intellektin inkişafının qarşısını almaq real və arzuolunan seçim deyil. Əksinə, süni intellekt həlləri Azərbaycan iqtisadiyyatının məhsuldarlığının artırılması, dövlət xidmətlərinin təkmilləşdirilməsi, təhsil, elm, səhiyyə və kreativ sənayelərin inkişafı üçün böyük imkanlar yaradır. Bu halda görüləcək əsas iş ədalətli və işlək qaydalar formalaşdırmaqdır. Bunun üçün, ilk növbədə, süni intellekt və müəlliflik hüququ üzrə ayrıca hüquqi çərçivə formalaşdırılmalı, insanın yaradıcı töhfəsinin müəyyənləşdirilməsi, süni intellektlə yaradılmış əsərlərin statusu, təlim məlumatlarının istifadəsi və müəlliflərin hüquqlarının qorunması aydınlaşdırılmalıdır. Digər tərəfdən, yaradıcı kontentin süni intellekt sistemlərində istifadəsi üçün şəffaf lisenziyalaşdırma mexanizmləri yaradılmalıdır. Müəllif öz əsərinin hansı məqsədlə istifadə edilməsinə razılıq verə və bundan iqtisadi fayda əldə edə bilməlidir.

Rəqəmsal əsərlərin mənşəyinin müəyyənləşdirilməsi üçün texnoloji həllərin inkişaf etdirilməsi də əhəmiyyətli məqamdır. Məsələn, rəqəmsal nişanlar, metadata, məzmunun mənşəyini göstərən texnologiyalar və etibarlı qeydiyyat sistemləri gələcəkdə mühüm rol oynaya bilər. Müəlliflərin və yaradıcı sənaye nümayəndələrinin süni intellekt savadlılığının artırılmasına da ehtiyac var. Yazıçı, jurnalist, bəstəkar, dizayner və digər yaradıcı peşə sahibləri süni intellektdən yalnız istifadə etməyi deyil, öz hüquqlarını qorumağı da bilməlidir.

Eyni zamanda Azərbaycan dilində milli rəqəmsal resursların yaradılması sürətləndirilməli, həmçinin bu resursların formalaşdırılması müəlliflik hüququnun qorunması ilə paralel aparılmalıdır. Dövlət qurumları, texnologiya şirkətləri, yaradıcı sənayelər, hüquqşünaslar və müəlliflər arasında daimi dialoq mexanizminin qurulmasına da ehtiyac vardır. Çünki bu sahədə qaydaları yalnız bir tərəfin müəyyən etməsi mümkün görünmür.

### İnsanın rolu

Əslində, süni intellekt və müəlliflik hüququ ətrafında gedən müzakirələrin mərkəzində texnologiyadan çox daha fundamental bir sual durur: insan yaradıcılığının dəyəri nədir? Süni intellekt saniyələr ərzində mətn yaza, şəkil yarada və musiqi bəstələyə bilər. Amma bu, insanın yaradıcılıq missiyasını aradan qaldırmır. Əksinə, insanın qarşısında yeni vəzifə qoyur. Bu yeni vəzifə maşının edə bildiyi işi təkrarlamaq yox, maşının imkanlarından istifadə etməklə yeni ideyalar və məzmun yaratmaqdır. Gələcəyin yaradıcısı süni intellekti öz yaradıcılığının alətinə çevirə bilən, amma yaradıcılığın özünü maşına həvalə etməyən insan olacaq. Bu mənada rəqəmsallaşma müəlliflik hüququnun sonunu deyil, onun yeni mərhələsini gətirir.

Azərbaycan üçün də qarşıda bununla bağlı mühüm seçim var: rəqəmsal dünyada yalnız texnologiyadan istifadə edən ölkə olmaq, yoxsa öz intellektual kapitalını, milli kontentini və yaradıcı potensialını qoruyan, onların əsasında yeni iqtisadi dəyər yaradan ölkəyə çevrilmək? Azərbaycan dövləti son illər görülən ardıcıl işlərlə məhz ikinci istiqamətə doğru irəliləmək üçün mühüm addımlar atıb.

Gələcəyin əsas sərvəti neft, qaz və hətta məlumatın özü deyil. Əsas sərvət həmin məlumatdan yeni fikir, yeni məhsul və yüksək əlavə dəyər yarada bilmək qabiliyyətidir. Süni intellekt bu qabiliyyəti əvəz edə bilərmi? Bəlkə də müəyyən sahələrdə yaradıcılıq prosesinin böyük hissəsini öz üzərinə götürməyi bacarır. Amma insanın ideya yaratmaq, məna vermək və məsuliyyət daşımaq qabiliyyəti hələ də əvəzolunmaz olaraq qalır. Məhz buna görə süni intellekt dövrünün ən mühüm müəlliflik hüququ prinsipi bəlkə də belə səslənməlidir: texnologiya yaradıcılığın vasitəsi ola bilər, amma yaradıcılığın mərkəzində insan dayanmalıdır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Gələcəyə doğru...

**Texnoloji tərəqqi və rəqəmsal transformasiya müasir dünyada ölkələrin inkişafını müəyyən edən əsas amillər sırasında xüsusi yer tutur. Bu gün rəqəmsallaşma informasiya texnologiyalarının inkişafı və elektron xidmətlərin genişləndirilməsi ilə məhdudlaşmır. Bu proses dövlət idarəçiliyinin, iqtisadi münasibətlərin, sosial həyatın, elm və təhsilin, biznes mühitinin və bütövlükdə cəmiyyətin yeni reallıqlara uyğunlaşdırılmasını nəzərdə tutur.**

Bu baxımdan Azərbaycanın son dövrdə rəqəmsal inkişaf sahəsində atdığı ardıcıl addımlar strateji əhəmiyyət daşıyır. Ölkəmizdə rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiyanın vahid dövlət siyasəti çərçivəsində inkişaf etdirilməsi üçün yeni mexanizmlərin yaradılması bu istiqamətdə qarşıya qoyulan məqsədlərin miqyasını nümayiş etdirir.

Bu il fevralın 27-də Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" fərman bu prosesin inkişafına təkan verib. Fərmanla Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurası yaradılıb. Sənəddə rəqəmsal inkişaf üzrə prioritet istiqamətlərin müəyyənləşdirilməsi, milli texnoloji potensialın gücləndirilməsi, rəqəmsal suverenliyin möhkəmləndirilməsi, innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsi və bu sahədə dövlət siyasətinin vahid və əlaqələndirilmiş şəkildə həyata keçirilməsi qarşıya əsas məqsədlər kimi qoyulub. Bu yanaşma rəqəmsal transformasiyanın ölkəmiz üçün geniş əhəmiyyət daşıdığını göstərir.

Dövlətimizin başçısı İlham Əliyev fevralın 27-də ölkə iqtisadiyyatında müasir texnologiyaların tətbiqinin və yerli istehsal potensialının genişləndirilməsi, habelə dövlət idarəetməsinin və infrastrukturun yüksək səviyyədə rəqəmsallaşdırılması əsasında dayanıqlı, rəqabətqabiliyyətli inkişafın təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Bu sənəd konkret fəaliyyət istiqamətlərini müəyyənləşdirib.

Beləliklə, mövcud vəziyyət təhlil olunub, hədəflər müəyyən edilib. Artıq bu sahədə qətiyyətli və uğurlu işlər həyata keçirilməkdədir. Rəqəmsal İnkişaf Şurasının iyunun 29-da keçirilən ilk iclası bu baxımdan mühüm hadisə olub. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Rəqəmsal İnkişaf Şurasının sədri Mehriban Əliyevanın rəhbərliyi ilə keçirilən toplantıda ölkənin rəqəmsal inkişafının qarşıdakı mərhələsinə dair əsas istiqamətlər müzakirə edilib. İclasda çıxış edən Birinci vitse-prezident Mehriban Əliyeva bildirib ki, şuranın əsas vəzifəsi müxtəlif dövlət qurumlarının fəaliyyətini əlaqələndirməkdən, vahid yanaşma formalaşdırmaqdan və qəbul edilən qərarların vaxtında və səmərəli həyata keçirilməsinin icra olunmasını təmin etməkdən ibarətdir: "Fəaliyyətimiz bütün dövlət qurumlarının birgə fəal və səmərəli işini tələb edir. Məqsədimiz Azərbaycanı rəqəmsal inkişaf və süni intellekt sahələrində regionun aparıcı dövlətlərindən birinə çevirməkdir. Biz xarici, beynəlxalq təcrübəni öyrənməli, uğurlu modellərdən istifadə etməliyik. Lakin bütün qərarlar Azərbaycanın milli maraqlarına və ehtiyaclarına cavab verən amillərə əsasən qəbul olunmalıdır".

Dövrümüzdə müasir texnologiyaya malik olmaq qədər onlardan milli inkişafa uyğun şəkildə istifadə etmək də vacibdir. Rəqəmsal transformasiya yalnız yeni proqramların və platformaların yaradılması demək deyil. Əsas məsələ texnologiyanın dövlət idarəçiliyində səmərəliliyi artırması, iqtisadiyyatın rəqabət qabiliyyətini yüksəltməsi, vətəndaş üçün xidmətləri daha əlçatan etməsi və ölkənin texnoloji müstəqilliyini gücləndirməsidir.

Qeyd edək ki, rəqəmsallaşma dövlət idarəçiliyinin bütün sahələrini əhatə etdiyi kimi, qanunvericilik fəaliyyətinə də yeni imkanlar gətirir.

Latın Amerikası və Karib Hövzəsi Ölkələri qrupu GRULAC-ın təşkilatçılığı ilə Argentinanın Buenos-Ayres şəhərində keçirilən "Texnoloji transformasiya, siyasi parçalanma və demokratik etimad böhranı qarşısında parlamentlərin rolu" mövzusuna həsr olunmuş Alimlər və Parlamentarilər üçün 4-cü beynəlxalq seminarda xüsusi qonaq qismində onlayn çıxış edən Milli Məclisin Sədri Sahibə Qafarova müasir dövrdə rəqəmsal texnologiyaların dövlət təsisatlarının fəaliyyətini və onların vətəndaşlarla qarşılıqlı münasibətlərini köklü şəkildə dəyişdiyini vurğulayıb, bu prosesin parlamentlər üçün böyük imkanlar açmaqla yanaşı, həm də ciddi məsuliyyətlər yaratdığını nəzərə çatdırıb. Rəqəmsallaşmanın parlamentlərin şəffaflığını və əlçatanlığını artırdığını vurğulayan spiker texnologiyaların heç bir halda cavabdehliyi, siyasi dialoqu və güclü institusional strukturları əvəz edə bilməyəcəyini bildirib. Parlamentin sədri Azərbaycanda rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya siyasətinin Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Rəqəmsal İnkişaf Şurası tərəfindən uğurla koordinasiya olunduğunu vurğulayıb. Qeyd edib ki, Milli Məclis hüquqi bazanı ardıcıl olaraq möhkəmləndirir, elektron sənəd dövriyyəsi, elektron səsvermə və qanunvericilik izləmə sistemlərindən fəal istifadə edir. O bildirib ki, qəbul edilən yeni qanunvericilik aktları ictimai müzakirələrin və parlament dinləmələrinin də elektron formatda keçirilməsinə tam hüquqi zəmin yaradır.

Qlobal texnoloji rəqabətin sürətlə artdığı bir dövrdə ölkələrin öz məlumatlarını, rəqəmsal infrastrukturunu, texnoloji imkanlarını və insan kapitalını qoruması milli təhlükəsizliyin də mühüm istiqamətinə çevrilir.

Rəqəmsal xidmətlərin və informasiya sistemlərinin genişlənməsi yeni imkanlarla yanaşı, yeni risklər də yaradır. Məlumatların qorunması, informasiya sistemlərinin təhlükəsizliyi və kritik rəqəmsal infrastrukturun mühafizəsi dövlət üçün strateji əhəmiyyət daşıyır.

Bu səbəbdən kibertəhlükəsizliyin rəqəmsal inkişaf strategiyasının mühüm istiqamətlərindən biri kimi müəyyənləşdirilməsi məntiqi nəticədir. Rəqəmsal dövlət etibarlı və təhlükəsiz olmalıdır. Vətəndaşın dövlətin rəqəmsal xidmətlərinə inamı onun şəxsi məlumatlarının və hüquqlarının necə qorunmasından da asılıdır. Deməli, rəqəmsal inkişaf və kibertəhlükəsizlik bir-birini tamamlayan istiqamətlərdir.

Ölkəmiz artıq rəqəmsal dünyanın sadəcə istifadəçisi deyil, onun imkanlarından milli inkişaf məqsədləri üçün daha geniş şəkildə yararlanmağa çalışan və öz texnoloji potensialını formalaşdıran dövlət kimi çıxış edir. Qarşıdakı illərin əsas hədəfi bu potensialı daha da gücləndirmək, rəqəmsal transformasiyanın bütün sahələrdə real nəticələrini təmin etmək və Azərbaycanın yeni texnoloji reallıqlarda rəqabət qabiliyyətini daha da artırmaqdır.

Rəqəmsal gələcək bu gün qəbul edilən qərarlarda, yaradılan sistemlərdə, hazırlanan mütəxəssislərdə və tətbiq olunan innovasiyalarda formalaşır. Azərbaycanın rəqəmsal inkişaf üzrə müəyyən etdiyi yeni kurs isə həmin gələcəyə sistemli, məqsədyönlü və milli maraqlara əsaslanan şəkildə hazırlanmaq iradəsini nümayiş etdirir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*





# İqtisadiyyat və sosial həyat

## Yeni subsidiya mexanizmləri aqrar sektorda daha böyük imkanlara qapı açır

**Azərbaycan kənd təsərrüfatında yeni mərhələyə qədəm qoyur. Aqrar Subsidiya Şurasının təsdiqlədiyi yeni mexanizmlər fermerlər üçün dövlət dəstəyinin istiqamətini dəyişməklə yanaşı, məhsuldarlığın artırılması, müasir texnologiyaların tətbiqi və ixracyönümlü istehsalın genişləndirilməsini hədəfləyir.**




Qeyd edək ki, Aqrar Subsidiya Şurasının qərarı Prezident İlham Əliyevin 25 may 2026-cı il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda kənd təsərrüfatında məhsuldarlığın və istehsalın artırılması, müasir suvarma texnologiyalarının tətbiqinin genişləndirilməsi, emal və ixracyönümlü istehsalın təşviqi, heyvandarlıqda cins tərkibinin yaxşılaşdırılması, eləcə də ölkənin ərzaq təminatının gücləndirilməsi hədəflərinə uyğun olaraq yeni subsidiya mexanizmləri və subsidiya şərtlərində dəyişikliklər təsdiq edilib.

Yeni subsidiya mexanizmləri aqrar sektorda dövlət dəstəyinin istiqamətlərini də dəyişir. Burada əsas diqqət daha çox məhsul istehsal etməyə, torpaqdan və sudan səmərəli istifadə olunmasına, fermerin əldə etdiyi məhsulu yüksək əlavə dəyərlə bazara çıxarmasına yönəlib. Məsələn, müasir suvarma sahəsində texnoloji yeniliklərin tətbiqinin genişləndirilməsi məhsuldarlığın artırılması üçün əsas şərtlərdən biri kimi ön plana çıxarılır. Su resurslarından qənaətlə istifadə etmək də bu yanaşmanın bir hissəsidir.

Dəyişikliklərin başqa bir istiqaməti isə emal və ixrac imkanlarının genişləndirilməsidir. Yəni qarşıya məqsəd qoyulmayıb ki, tarladan daha çox məhsul götürülsün. Məhsulun ölkə daxilində emal olunması, qablaşdırılması, bazara hazırlanması və xarici bazarlara çıxarılması üçün zəncirin növbəti halqalarının da gücləndirilməsi nəzərdə tutulur. Heyvandarlıq sahəsində isə diqqət cins tərkibinin yaxşılaşdırılmasına yönəldilir. Daha məhsuldar heyvanların sayının artırılması həm ət və süd istehsalının yüksəldilməsinə, həm də ümumi məhsuldarlığın yaxşılaşdırılmasına hesablanıb. Yeni subsidiya siyasəti məhz bu xətti gücləndirməyi nəzərdə tutur. 2026-2030-cu illər üçün müəyyənləşdirilən hədəflər göstərir ki, dövlət dəstəyi, sadəcə, istehsalın özünə deyil, məhsulun torpaqdan istehlakçıya qədər keçdiyi bütün zəncirə daha geniş yanaşma tələb edir.

Bu yanaşmanın maraqlı tərəfi ondan ibarətdir ki, subsidiya mexanizmləri ənənəvi istehsal sahələrini dəstəkləməklə məsələni bitmiş saymır. Yüksək əlavə dəyər yarada və xarici bazarlarda özünə yer tapa biləcək yeni istiqamətlər üçün də imkanlar genişləndirilir. Belə istiqamətlərdən biri aroniya bağlarıdır. Bu bitkinin əkinini təşviq etmək üçün bağların salınmasına hər hektara 7500 manat birdəfəlik subsidiya veriləcək. Açıq sahədə efir yağı istehsalı məqsədilə qızılgül yetişdirən təsərrüfatlar üçün isə hər hektara 6000 manat subsidiya nəzərdə tutulur.

Diqqətçəkən digər istiqamət kiçik, yəni butik şərabçılığın inkişafıdır. Burada yerli üzüm sortlarından premium şərabların hazırlanması, bu istehsalın aqroturizmlə əlaqələndirilməsi və kiçik, lakin ixrac imkanına malik mikrobrendlərin yaradılması nəzərdə tutulur. Bu məqsədlə 5-20 hektar sahədə salınacaq super-intensiv üzüm bağlarına hər hektar üçün 20 min manat, intensiv bağlara isə 10 min manat subsidiya veriləcək. Hədəf isə 2030-cu ilədək 20 yeni butik şərab evinin yaradılması ilə üzümçülük, emal, turizm və ixracın bir-birini tamamladığı yeni bir iqtisadi model formalaşdırmaqdır.

Dəstəyin dairəsi bununla da bitmir. Balıqçılıqda nərəkimilər və qızılbalıqkimilər üçün məhsul subsidiyasının ilk dəfə tətbiqi, intensiv heyvandarlığın, o cümlədən milli "Qarabağ" və "Dilbaz" atlarının dəstəklənməsi, toxumçuluq və aqrar texnika üzrə 60 faizədək güzəştlər istehsalın müxtəlif sahələrini əhatə edir. Fermerə subsidiyanın 30 faizinin əvvəlcədən ödənilməsi isə gündəlik xərclər üçün əlavə maliyyə çevikliyi yaradır.

Fermerlərin texniki imkanlarının genişləndirilməsi üçün bir sıra avadanlıqlara tətbiq olunan güzəştlər də artırılır. Taxıl və pambıqyığan kombaynlardan soyuducu anbarlara, suvarma hovuzlarından günəş panellərinə qədər müxtəlif aqrar avadanlıqlarda güzəşt 50 faizədək yüksəldilir. Damcı suvarma sistemlərində yerli istehsala 60, xarici istehsala isə 50 faiz güzəşt nəzərdə tutulur. Kiçik şərabçılıq müəssisələrinin avadanlıqları üçün bu göstərici 60 faiz, istixana avadanlıqları və yerli metal konstruksiya və şüşələr üçün isə 20 faiz olacaq.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) "Azexport.az" portalının rəhbəri Ayxan Qədəşov isə subsidiya mexanizminin daha bir məqamını izah edir: "Yeni subsidiya siyasətində ixrac baxımından mühüm istiqamətlərdən biri beynəlxalq sertifikatlaşdırmanın dəstəklənməsidir. Avropa, Körfəz ölkələri və digər yüksək alıcılıq qabiliyyətinə malik bazarlara çıxışın əsas şərtlərindən biri beynəlxalq standartlara uyğunluqdur. Fermer və aqrar müəssisələrin "Global G.A.P.", "FSSC 22000", "HACCP", "GRASP", "BRCGS", "FSMA" və beynəlxalq orqanik sertifikatlarının alınması xərclərinin 7 000 manatdan 36 000 manatadək, illik aktiv saxlanılması xərclərinin isə müvafiq məbləğin 10 faizi səviyyəsində subsidiyalaşdırılması istehsalçıların maliyyə yükünün azaldılmasına, yerli məhsulların xarici bazarlarda etibarlılığının və rəqabət qabiliyyətinin artırılmasına xidmət edəcək. Bu dəstək istehsalçılarımızın yüksək standartların tətbiq olunduğu bazarlara çıxış imkanlarını genişləndirə bilər".

Bütün bu sadalananlar göstərir ki, yeni subsidiya mexanizmlərində məqsəd istehsalın formasını dəyişmək, texnologiyanı və səmərəliliyi önə çəkmək, məhsulu emaldan ixraca qədər uzun və gəlirli bir zəncirə bağlamaqdır. Başqa sözlə, söhbət üstün dəyər yaradan aqrar sektor qurmaqdan gedir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Dövlət büdcəsinin gəlirləri proqnozu 3 faiz üstələyib

**Cari ilin yanvar-avqust aylarında dövlət büdcəsinin icrasında müsbət dinamika müşahidə olunub. Bu dövrdə xəzinə əməliyyatlarına dair müraciətlərin qanunvericiliyin tələblərinə uyğun, sürətli və xətasız icrası təmin olunub, xəzinədarlıq orqanları tərəfindən 864 mindən çox ödəniş tapşırığı vaxtında və tam şəkildə icra edilib.**

Maliyyə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, yanvar-avqust ayları ərzində dövlət büdcəsinin gəlirləri 26 milyard 486,5 milyon manat təşkil edib, bu da proqnozu 780,2 milyon manat və ya 3 faiz üstələyib.

Dövlət büdcəsinin gəlirlərində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmalar 12 milyard 619,1 milyon manat təşkil edərək proqnozdan 900,1 milyon manat və ya 7,7 faiz, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti üzrə daxilolmalar 37,7 milyon manat təşkil edərək proqnozdan 7,3 milyon manat və ya 23,8 faiz, sair daxilolmalar 462,5 milyon manat təşkil edərək proqnozdan 77,1 milyon manat və ya 20 faiz çox, Dövlət Neft Fondundan transfert isə 8 milyard 559 milyon manat təşkil edərək proqnoza qarşı 100 faiz icra edilib.

Eyni zamanda Dövlət Gömrük Komitəsi üzrə daxilolmalar 4 milyard 326,9 milyon manat, dövlət büdcəsindən maliyyələşən təşkilatların ödənişli xidmətlərindən daxilolmalar isə 481,3 milyon manat icra olunub.

Yanvar-avqust ayları ərzində dövlət büdcəsinin xərcləri 22 milyard 770,6 milyon manat məbləğində icra edilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 462,5 milyon manat və ya 2,1 faiz çoxdur.

Bu ilin yanvar-avqust ayları ərzində icmal büdcənin gəlirləri 32 milyard 799,6 milyon manat, xərcləri isə 26 milyard 967,5 milyon manat məbləğində icra edilib.

## Bakı, Naxçıvan və Gəncə hava limanları 8 ayda 5,7 milyondan çox sərnişinə xidmət göstərib

**2026-cı ilin yanvar-avqust aylarında Bakı, Naxçıvan və Gəncə hava limanları birlikdə 5,7 milyondan çox sərnişinə xidmət göstərib, 46 mindən çox uçuş həyata keçirib.**

Üç hava limanı üzrə ümumi sərnişin dövriyyəsi 2025-ci ilin eyni dövründəki səviyyəni qoruyub, uçuşların sayı isə 1,5% artıb. Bu barədə Heydər Əliyev Beynəlxalq Aeroportunun Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, sərnişin axınının əsas hissəsi Heydər Əliyev Beynəlxalq Aeroportunun payına düşüb. 2026-cı ilin yanvar-avqust aylarında Bakı aeroportu 4,9 milyondan çox sərnişinə xidmət göstərib və 39,525 uçuş həyata keçirib: "Bakı aeroportunda ən diqqətçəkən dinamika transfer sərnişinləri üzrə qeydə alınıb. Yanvar-avqust aylarında transfer sərnişinlərinin sayı 373,733 nəfərə çataraq 2025-ci ilin eyni dövrü ilə müqayisədə 34% artıb.

## Sosial və İqtisadi məsələlər üzrə Üçtərəfli Komissiyanın iclası olub



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) təmsil olunduğu Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiyanın iclası keçirilib.**

İclasda əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Zaur Əliyev, AHİK-in Aparat rəhbəri Ayaz Əliyev, ASK-nın vitse-prezidenti Vüqar Zeynalov, habelə hər üç qurumdan əməkdaşlar iştirak ediblər.

Ölkəmizdə aparılan sosial islahatlar çərçivəsində əmək qanunvericiliyinin təkmilləşdirilməsi sahəsində atılan yeni mühüm addımlardan bəhs olunub. Aparılan sosial islahatlar prosesində, yeni qanunvericilik layihələrinin, əmək, məşğulluq və sosial müdafiə sahəsinə dair təkliflərin hazırlanmasında, Beynəlxalq Əmək Təşkilatının (BƏT) Konvensiyalarının ratifikasiyasında sosial tərəfdaşlıq müstəvisində aparılan birgə işlərin əhəmiyyəti qeyd edilib.

İclasda "DOST Müfəttiş" layihəsinin işəgötürənlər üçün önəmi vurğulanıb, onların bu layihədə iştirakının təşviq edilməsi, BƏT-in 2006-cı il tarixli "Dənizdə əməyə dair" Konvensiyasının ratifikasiya imkanları ilə bağlı fikir mübadiləsi aparılıb. Qeyri-formal əmək münasibətlərinin qarşısının alınması istiqamətində birgə nəzarət mexanizmləri ilə bağlı məsələlər müzakirə edilib.

Həmçinin 2026-2028-ci illər üçün Baş Kollektiv Sazişə uyğun olaraq Üçtərəfli Komissiyanın fəaliyyətinin təkmilləşdirilməsinə, gənclərin əmək bazarına inteqrasiya imkanlarının genişləndirilməsi istiqamətində görüləcək işlərə dair müzakirələr aparılıb.

## 1100-dən çox işçiyə uşağının doğulması ilə bağlı ödənişli atalıq məzuniyyəti verilib

**Bu ilin əvvəlindən əmək qanunvericiliyinə edilmiş son dəyişikliklərdən biri də uşağının doğulması ilə əlaqədar kişilərə 14 təqvim günü ödənişli məzuniyyətin verilməsidir.**

Artıq 415 işəgötürən tərəfindən 1126 işçiyə uşağının doğulması ilə bağlı 14 təqvim günü müddətində ödənişli atalıq məzuniyyəti verilib.

Bu məzuniyyət uşağın doğulmasından əvvəl və sonrakı dövrləri əhatə edir.

Məzuniyyətin verilməsi üçün işçi uşağının doğulması ilə əlaqədar müvafiq tibb müəssisəsinin arayışını işəgötürənə təqdim edir.

Bundan sonra işəgötürən tərəfindən işçiyə ödənişli atalıq məzuniyyəti verilir. Bu barədə əmr Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Əmək və Məşğulluq" altsistemində e-qaydada formalaşdırılır.



## Azərbaycanın gələcək mühəndislərinə BP-nin növbəti hədiyyəsi

**Azərbaycanda fəaliyyətə başladığı vaxtdan indiyədək BP şirkəti özü və əməliyyatçısı olduğu layihələrdəki tərəfdaşları adından ölkədəki sosial sərmayə proqramlarına ümumilikdə 115 milyon dollardan çox vəsait xərcləyib. Sosial sərmayələr təhsil, icmaların inkişafı, yerli sahibkarlıq, ətraf mühit, idman potensialının artırılması, habelə ölkəmizin zəngin mədəni irsinin tədqiqi və təbliği kimi sahələrə yönəldilib.**

Budəfəki sosial layihə şirkətin Azərbaycanda bərpaolunan enerji sahəsində təhsil və bacarıqların inkişafına verdiyi dəstəyin növbəti mərhələsidir. Belə ki, BP Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə (ADNSU) müasir bərpaolunan enerji laboratoriyası hədiyyə edib. Bu laboratoriyanın yaradılması BP-nin bərpaolunan enerji sahəsində ixtisaslaşan yeni nəsil yerli mühəndislərin hazırlanmasına yönəldilmiş iki milyon dollarlıq sosial sərmayə təşəbbüsünün yekun hissəsidir.

Təşəbbüs 2021-ci ildə Elm və Təhsil Nazirliyi və BP arasında yerli universitetlərin birində bərpaolunan enerji mənbələri üzrə proqramın yaradılması ilə bağlı imzalanmış əməkdaşlıq haqqında niyyət protokoluna əsaslanır. Bunun ardınca BP ilə ADNSU arasında sözügedən istiqamətdə yeni ali təhsil proqramının yaradılması üçün saziş imzalanıb. Nəticədə 2023-cü ildə ADNSU tərəfindən Böyük Britaniyanın Uorik (Warwick) Universiteti ilə tərəfdaşlıqda həyata keçirilən bərpaolunan enerji üzrə ikili diplom magistr proqramı təsis edilib.

Yeni laboratoriya bərpaolunan enerji sahəsində üç əsas istiqamət olan günəş, külək və hidrogen enerjisi üzrə tədris, təlim və tətbiqi tədqiqat fəaliyyətlərini dəstəkləmək məqsədilə yaradılıb. Qabaqcıl eksperimental və simulyasiya sistemləri ilə təchiz edilmiş bu laboratoriya tələbələrə, müəllimlərə və tədqiqatçılara praktiki təcrübələr aparmaq, nəzarət olunan şəraitdə ölçmələr həyata keçirmək, enerjinin çevrilməsi proseslərini müşahidə etmək və ixtisaslaşmış proqram təminatı vasitələrindən istifadəsi ilə sistemlərin icra göstəricilərini təhlil etmək imkanı verir.

Laboratoriya sənayedə istifadə olunan müvafiq texnologiyalara və praktiki təlim imkanlarına çıxış təmin etməklə akademik biliklərin enerji sahəsində real tətbiqi ilə əlaqələndirilməsinə kömək göstərəcək. Laboratoriyanın inteqrasiya olunmuş şəkildə layihələndirilməsi həmçinin bərpaolunan enerjinin hər üç istiqaməti üzrə fənlərarası tədris və tədqiqat fəaliyyətlərinin aparılmasına imkan yaradır.

Layihə çərçivəsində BP laboratoriyanın səmərəli fəaliyyəti üçün lazım olan infrastrukturun və resursların təmin edilməsinə də dəstək göstərib. Buraya İT avadanlıqlarının, proqram təminatı lisenziyalarının, mebel təchizatının, ilk tibbi yardım və təhlükəsizlik avadanlıqlarının təmin olunması, eləcə də laboratoriya sahəsinə aid tikinti və təmir-bərpa işlərinin həyata keçirilməsi daxildir.



Laboratoriyanın açılış mərasimində çıxış edən BP-nin Xəzər, Mərkəzi Asiya və Türkiyə regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli dedi: "Gələcəyin enerji sistemlərinin tələb etdiyi bilik və bacarıqların inkişafı üçün həm insan kapitalına, həm də təhsil infrastrukturuna sərmayə qoymaq olduqca vacibdir. Bərpaolunan enerji üzrə magistr proqramına dəstək verməkdə və ADNSU-da bu yeni laboratoriyanı yaratmaqda məqsədimiz tələbə və tədqiqatçılar üçün sürətlə dəyişən enerji sektorunda əhəmiyyəti getdikcə artan texnologiyalar üzrə praktiki təcrübə imkanı yaratmaqdır. Ümid edirik ki, bu təşəbbüs ölkədə bərpaolunan enerji sahəsində bacarıqların artırılmasına, tədqiqat və tədris imkanlarının gücləndirilməsinə və Azərbaycanın enerji keçidini dəstəkləyəcək yüksəksəviyyəli mütəxəssislərin hazırlanmasına töhfə verəcək".

BP-nin magistr proqramına dəstəyi bərpaolunan enerji laboratoriyasının yaradılması və müvafiq infrastruktur və avadanlığın təmin edilməsindən əlavə digər fəaliyyətləri də əhatə edib. Bunlar yerli akademik potensialın gücləndirilməsi üçün bacarıqların artırılması və professor-müəllim heyətinin inkişafına yönəlmiş tədbirlərdir. Buraya ADNSU-nun akademik heyətinin 45 üzvü üçün ingilis dili təlimləri və Uorik Universiteti ilə bilik və təcrübə mübadiləsi imkanlarının yaradılması daxildir.

Proqram ümumilikdə 70 nəfər tələbədən ibarət birinci və ikinci tədris qruplarına dəstəyi, o cümlədən qonaq professorların iştirakını və ADNSU tələbələrinin Böyük Britaniyada yay məktəbi proqramına qatılmasını nəzərdə tutur.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Ümid ünvanı

## Mərkəzi Gömrük Hospitalı tibbi innovasiyaların tətbiq olunduğu qabaqcıl səhiyyə ocağıdır

**Bir tibb müəssisəsini tanımaq üçün onun haqqında yazılmış hesabatlara, statistik rəqəmlərə və təqdim olunan xidmətlərin siyahısına baxmaq kifayət etmir. Bunun üçün həmin xəstəxananın dəhlizlərindən keçmək, palatalarına daxil olmaq, həkimlərin pasiyentlərlə münasibətini görmək, reanimasiya və təcili yardım bölmələrindəki gərgin iş ritmini müşahidə etmək lazımdır. Elə bu məqsədlə də Mərkəzi Gömrük Hospitalına üz tutduq.**

İlk xoş təəssüratı buradakı səliqə-sahman, nizam-intizam və müasirlik yaratdı. Hospitalın ayrı-ayrı bölmələrində istifadə olunan tibbi avadanlıqlar, diaqnostika və müalicə imkanları, həkimlərin və orta tibb heyətinin işə münasibəti burada səhiyyənin yalnız maddi-texniki bazasının deyil, həm də insan kapitalının əsas meyar olduğunu göstərir. Diqqətimizi bir məqam cəlb edir - müasir avadanlıq öz-özlüyündə möcüzə yaratmır, onu idarə edən peşəkar həkim, düzgün qərar verən komanda və pasiyentin həyatına məsuliyyətlə yanaşan tibb işçisi həmin texnologiyanı real müalicə nəticəsinə çevirir. Mərkəzi Gömrük Hospitalında isə bu iki amilin - müasir texnologiya ilə peşəkarlığın vəhdəti hiss olunur.

Mərkəzi Gömrük Hospitalı 2008-ci ilin dekabrında fəaliyyətə başlayıb. İlk gündən qarşıya qoyulan məqsəd yalnız gömrük əməkdaşlarına tibbi xidmət göstərmək olmayıb. Bu gün hospital respublika əhalisinə xidmət göstərən, müxtəlif ixtisaslar üzrə müasir tibbi yardımın təşkil olunduğu mühüm səhiyyə müəssisələrindəndir. Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəisi, tibb xidməti general-mayoru Ceyhun Məmmədov söhbətimiz zamanı bu inkişafın ayrı-ayrı uğurlarına toxunaraq bunun əsasında uzunmüddətli və ardıcıl iş dayandığını vurğuladı. Hospitalda əsas istiqamətlərdən biri müasir tibbin ən mürəkkəb sahələrində xidmətlərin inkişaf etdirilməsidir. Qaraciyər və böyrək transplantasiyası, açıq ürək əməliyyatları, invaziv kardiologiya, beyin ölümü donorlarından orqan köçürülməsi kimi istiqamətlər bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Bu, sadəcə, hospitalın fəaliyyəti deyil, eyni zamanda səhiyyənin imkanlarının genişləndirilməsi prosesinin bir hissəsidir.



Hospitalın rəisi baş həkim, tibb xidməti polkovniki Bəxtiyar Musayev isə hospitalın fəaliyyətini konkret rəqəmlərlə ifadə etdi. 74 çarpayılıq hospitalda 2025-ci ildə 150-dən çox qaraciyər və böyrək transplantasiyası, 600-dən çox açıq ürək əməliyyatı həyata keçirilib. Gün ərzində 27 koronar angioqrafiyanın və 10 stend əməliyyatının aparılması isə invaziv kardiologiyanın hansı iş yükü ilə fəaliyyət göstərdiyini təsəvvür etməyə imkan verir.

Bu rəqəmlər ilk baxışda, sadəcə, statistika təsiri bağışlaya bilər. Amma hər bir rəqəmin arxasında bir insan taleyi dayanır. Elə buna görə də xəstəxananın uğurunu yalnız əməliyyatların sayı ilə ölçmək düzgün olmaz, əsas məsələ həmin əməliyyatların insan həyatına verdiyi nəticədir.

Hospitalın Reanimasiya şöbəsinə daxil olanda isə səhiyyənin ən ağır və məsuliyyətli sahələrindən birinin necə böyük gərginlik tələb etdiyi daha aydın görünür. Burada zaman başqa cür ölçülür. Bir neçə saniyə bəzən insan həyatının taleyini müəyyənləşdirə bilir. Reanimatoloqun qərarı, anestezioloqun peşəkarlığı, tibb bacısının diqqəti, bütün komandanın bir-birini tamamlaması kritik vəziyyətdə olan pasiyentin həyatının xilas edilməsində həlledici rol oynayır. Əməliyyatxana, Anesteziologiya və Reanimasiya şöbəsinin rəisi, anestezioloq-reanimatoloq Tural Sadıqov ilə söhbətimizdən də məlum olur ki, burada iş yalnız xəstənin vəziyyətini sabitləşdirməklə bitmir, həm də pasiyentin bütün həyati göstəriciləri fasiləsiz izlənilir, müalicə taktikasına vəziyyətə uyğun operativ dəyişikliklər edilir. Bu şöbədə çalışanların üzərinə böyük məsuliyyət düşür. Bunu 2026-cı ilin mayında yaşanan hadisə də təsdiqləyir. Bakı Dövlət Universitetinin 70 yaşlı professoru Hikmət Əlizadə iş yerində ürək nahiyəsində narahatlıq hiss etdikdən sonra hospitala çatdırılıb. Vəziyyəti ağırlaşıb, arterial təzyiqi kəskin aşağı düşüb, ürək döyüntüləri sürətlənib. Hospitala çatdırılarkən ürəyi dayanıb. Həkimlər dərhal reanimasiya tədbirlərinə başlayıblar. Onun üzərində təxminən 20-30 dəqiqə ürək masajı aparılıb. Pasiyent klinik ölüm vəziyyətindən çıxarıldıqdan sonra angioqrafiyaya götürülüb. Koronar damarlardakı tıxanıqlıq müəyyən edilib və invaziv kardiologiya şöbəsinin rəisi İlqar Tahiroğlu və komandası tərəfindən təcili müdaxilə həyata keçirilib. Bu hadisə bir daha göstərir ki, xəstəxananın ən böyük gücü yalnız cihazlarında deyil, həmin cihazların arxasında dayanan insanlardadır.

Ürək-damar xəstəlikləri zamanı həkimin verdiyi qərarın bir neçə dəqiqə ərzində insan həyatının gələcəyini müəyyənləşdirən anlar olur. Ürəyinə stend qoyulan Əlivahid Şıxəliyev də həmin gün belə anları yaşayıb. O, Mərkəzi Gömrük Hospitalında göstərilən tibbi xidmətdən və kardioloq İlqar Tahiroğlunun peşəkarlığından minnətdarlıqla danışır. Əlivahidin sözlərindən xəstəlikdən sonrakı rahatlıq və həkimə olan inam açıq hiss olunur. Onun üçün İlqar Tahiroğlu, sadəcə, tibbi müdaxilə həyata keçirən həkim deyil, ürəyinin yenidən normal fəaliyyət göstərməsinə, həyatına daha böyük inamla davam etməsinə kömək edən insandır. Pasiyentin həkiminə təşəkkürü tibdə ən səmimi qiymətləndirmələrdən biridir. Çünki xəstə həkimin əməliyyat otağında göstərdiyi peşəkarlığın nəticəsini həyatında hiss edir.

Hospitalda olduğumuz gün diqqətimizi çəkən hadisələrdən biri də Lənkərandan gələn Əlövsət Babayevin taleyi oldu. Əlövsət bir gün əvvəl əməliyyat olunmuşdu. Amma bu gün onun üçün yalnız əməliyyat günü deyildi, həm də doğum günü idi. Bir insanın doğum günündə xəstəxana otağında olması ilk baxışda kədərli görünə bilər. Lakin Əlövsətin yaşadığı hiss tamam başqa idi. O, həmin günə, sadəcə, bir yaşını da artırdığı tarix kimi yox, həyatının yenidən başlandığı gün kimi baxırdı. Onun üzündə əməliyyatdan sonrakı yorğunluqla yanaşı, böyük bir rahatlıq və minnətdarlıq hiss olunurdu. Söhbət zamanı həkimi Kənan Əsədov haqqında danışarkən söylədiyi bir cümlə isə yaddaşımızda qaldı: "Mənə ikinci həyatı Kənan Əsədov verdi". Bu, bəlkə də bir həkim üçün eşidilə biləcək ən böyük təşəkkürdür. Çünki həkim xəstəyə yalnız tibbi yardım göstərmir, bəzən o, insanın itirmək üzrə olduğu ümidi geri qaytarır. Əlövsət Babayevin həmin gün doğum gününü qeyd etməsi də bu baxımdan xüsusi məna daşıyırdı. O, yeni yaşına yeni bir ümidlə qədəm qoyurdu.

Reanimasiya şöbəsində hər hadisənin öz hekayəsi var. Bəzən isə həmin hekayə tibb elminin imkanlarını belə sınağa çəkir. Baş həkim Bəxtiyar Musayev söhbətimiz zamanı belə hadisələrdən birini xüsusi xatırlayır - Qəzənfər Mirzəyevin həyat uğrunda mübarizəsini. 59 yaşlı Qəzənfər Mirzəyevin angioqrafiya zamanı ürəyi 45 dəqiqə dayanıb. Həkimlər bu müddət ərzində mübarizəni dayandırmayıblar. Ürək masajı və reanimasiya tədbirləri nəticəsində qan dövranı yenidən hərəkətə gətirilib.

Bəxtiyar Musayevin sözlərində həmin anların məsuliyyəti açıq hiss olunur. Həkim deyir ki, 45 dəqiqə ürək masajından sonra həyata qaytarılan xəstənin özünə gələcəyinə inanmaq çətin idi. Belə uzunmüddətli qan dövranının dayanması beyində və digər həyati vacib orqanlarda müəyyən fəsadlar yarada bilərdi. Amma Qəzənfər bütün bu narahatlıqları geridə qoydu. Avqustun 19-da əməliyyat olunan 59 yaşlı pasiyentin vəziyyəti yaxşıdır və yaxın günlərdə - cəmi bir-iki gün ərzində evinə yola salınması gözlənilir.

Yenidən "dünyaya gələn" Qəzənfər Mirzəyev - "Bəxtiyar Musayevə və bütün həkimlərə sonsuz minnətdaram. Mənə yenidən həyat bəxş etdilər. Allah hamısından razı olsun", - deyir.

Təcili yardım əməkdaşlarının işi də eyni dərəcədə yüksək məsuliyyət tələb edir. Onlar üçün pasiyentin hospitala gətirilməsi müalicənin başlanğıcıdır. Təcili yardım şöbəsinin rəisi Füzuli Abışov deyir ki, ağır vəziyyətdə olan insanın düzgün qiymətləndirilməsi, lazımi şöbəyə operativ yönləndirilməsi və həkim komandasının işinin koordinasiyası bəzən həyatla ölüm arasındakı fərqi müəyyən edir. Hospitalda təcili yardım və reanimasiya əməkdaşlarının peşə hazırlığının artırılması istiqamətində keçirilən təlimlər də təsadüfi deyil. Tibb işçiləri ilə yanaşı, təcili yardım sürücüləri, sanitarlar və digər əməkdaşlar üçün ilkin həyat dəstəyi - BLS üzrə nəzəri və praktiki təlimlərin keçirilməsi bütöv komandanın fövqəladə vəziyyətlərə hazırlığını artırır. Ağır vəziyyətdə olan xəstə üçün hospitalın qapısından reanimasiya otağına qədər keçən hər saniyənin qiyməti var.

Bizimlə söhbət edən ayrı-ayrı pasiyentlərdən və onların yaxınlarından eyni təşəkkür ifadəsini eşitmək mümkündür. Onlar həkimlərin diqqətindən, çətin vəziyyətdə yanlarında olmasından, müalicə prosesinin izah edilməsindən, tibb personalının münasibətindən danışırlar. Bəzi xəstələr üçün həkimin bir kəlmə təsəllisi, bir tibb bacısının qayğısı ən güclü dərmandan belə qiymətli olur. İnsan xəstəxanaya sağlam getmir, o, narahatlıqla, qorxu ilə, bəzən isə ümidsizliklə gəlir. Buna görə pasiyentin müalicə ilə yanaşı, insani münasibətə də ehtiyacı var.

Mərkəzi Gömrük Hospitalının fəaliyyətində xüsusi diqqətçəkən istiqamətlərdən biri orqan transplantasiyasıdır. Transplantasiya adi cərrahi əməliyyat deyil. Burada yalnız yüksəkixtisaslı cərrahların olması kifayət etmir. Donorun müəyyənləşdirilməsindən orqanın götürülməsinə, laborator və immunoloji müayinələrdən əməliyyata, reanimasiya mərhələsindən sonrakı uzunmüddətli müşahidəyə qədər bütöv bir sistem işləməlidir. Bu baxımdan, hospitalda qaraciyər və böyrək transplantasiyalarının genişləndirilməsi Azərbaycan səhiyyəsinin mühüm nailiyyətlərindən biridir. 2025-ci ildə burada 150-dən çox qaraciyər və böyrək transplantasiyasının həyata keçirilməsi bu sahənin sistemli fəaliyyət istiqamətinə çevrildiyini göstərir. Bundan əlavə, 22 iyul 2025-ci ildə Mərkəzi Gömrük Hospitalına ürək transplantasiyası əməliyyatlarının həyata keçirilməsi üçün icazə verilməsi transplantologiyanın yeni mərhələsinə keçid baxımından mühüm hadisədir. Meyit donorlarından orqan transplantasiyalarının icbari tibbi sığorta çərçivəsində həyata keçirilməsi də bu sahənin sosial əhəmiyyətini artırır. Burada söhbət yalnız tibbi texnologiyadan getmir, həm də başqa bir insanın həyatını davam etdirmək üçün öz orqanının bağışlanmasına razılıq verməsindən, donor ailələrinin ağır qərarından, həkimlərin böyük məsuliyyətindən, nəhayət, bir insanın həyata yenidən bağlanmasından gedir. Transplantasiya - tibbin insan həyatına verdiyi ən böyük ümidlərdən biridir.

Hospitalda uşaq cərrahiyyəsi istiqamətində görülən işlər də xüsusi diqqət çəkir. Uşaq Cərrahiyyəsi şöbəsinin rəisi, cərrah və uroloq Vüsal Cəfərovun rəhbərliyi ilə mürəkkəb anadangəlmə patologiyaların və təcili cərrahi vəziyyətlərin müalicəsi həyata keçirilir. Yeni doğulmuş körpədə təxminən 10 santimetr ölçüdə büzdüm sümüyü teratomasının çıxarılması, 10 yaşlı uşağın qaraciyərində exinokokk kistasının əməliyyat olunması, anadangəlmə penil əyriliyin aradan qaldırılması, 11 aylıq körpənin ürək qüsuruna görə əməliyyat edilməsi - bunların hər biri pediatrik cərrahiyyənin nə qədər böyük məsuliyyət tələb etdiyini göstərir. Burada ən kiçik pasiyentin belə taleyi bütöv komandanın diqqətində olur.

Hospitalın kardiologiya və ürək-damar cərrahiyyəsində qazandığı nəticələr də diqqətəlayiqdir. Qafqaz regionunda ilk dəfə Mitral Clip prosedurunun həyata keçirilməsi, beşaylıq körpəyə ağciyər qapağının stenozu ilə bağlı balon valvuloplastikanın aparılması, yüzlərlə açıq ürək əməliyyatının icrası bu sahədə formalaşmış peşəkar potensialın göstəriciləridir. Burada bir tərəfdən ən mürəkkəb ürək-damar patologiyaları müalicə olunur, digər tərəfdən yeni doğulmuş uşaqların sağlamlığı üçün müasir diaqnostika imkanlarından istifadə edilir. Yeni doğulmuşların kompleks müayinəsi proqramında pediatr, kardioloq, nevroloq və oftalmoloqun müayinələri, beyin ultrasəsi və exokardioqrafiya, laborator analizlər kimi xidmətlərin bir araya gətirilməsi də erkən diaqnostikaya verilən önəmin göstəricisidir.

Hospitalın travmatologiya və ortopediya komandası da mürəkkəb klinik hallarla işləyir. Ağır yol-nəqliyyat hadisəsi nəticəsində çoxsaylı travmalar alan 61 yaşlı Reyhan Pənayevanın müalicəsi zamanı bud sümüyünün açıq parçalı sınığı və digər ağır zədələnmələr mərhələli şəkildə cərrahi yolla müalicə edilib. 94 yaşlı Vəsmə Əhmədovaya bud-çanaq oynağının bipolyar endoprotezləşdirilməsinin uğurla həyata keçirilməsi, ikitərəfli diz artroplastikası və digər mürəkkəb əməliyyatlar ortopediya xidmətinin imkanlarını göstərir.

Mərkəzi Gömrük Hospitalının fəaliyyəti tibbi xidmətlərlə məhdudlaşmır. Autizm spektr pozuntusu olan uşaqlar üçün tibbi-sosial aksiyalar, valideyn himayəsindən məhrum uşaqların tibbi müayinəsi, şəhid ailələri və qazilər üçün pulsuz tibbi-sosial tədbirlər, gömrük əməkdaşlarının genişmiqyaslı tibbi müayinədən keçirilməsi, qanvermə aksiyaları və vaksinasiya kampaniyaları hospitalın sosial məsuliyyətini nümayiş etdirir. Belə tədbirlər müalicənin yalnız xəstəlik yarandıqdan sonra aparıldığını göstərir. Sağlamlığın qorunması, profilaktika və insanların maarifləndirilməsi də səhiyyənin mühüm vəzifəsidir.

Səhiyyənin inkişafı üçün ən böyük sərmayə insana qoyulan kapitaldır. Mərkəzi Gömrük Hospitalında isə bu sərmayənin nəticəsini hər gün əməliyyat otaqlarında, reanimasiya palatalarında, laboratoriyalarda, həkim kabinetlərində, ən başlıcası isə həyata qayıdan insanların gözlərində görmək mümkündür. Hospitalın ən böyük uğuru da məhz budur: insan həyatını qorumağı öz fəaliyyətinin əsas meyarına çevirmək.

*Elşən QƏNİYEV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# Süni intellekt səhiyyənin sərhədlərini genişləndirir

**Bir neçə il əvvələ qədər süni intellektin əməliyyat zamanı cərraha yol göstərməsi, rentgen və MRT görüntülərində insan gözündən yayınan dəyişiklikləri müəyyən etməsi, hətta yeni dərman molekullarının yaradılmasına kömək göstərməsi daha çox gələcəyin tibbi kimi təsəvvür edilirdi. Bu gün isə həmin gələcək artıq xəstəxanalara daxil olub.**



Süni intellekt tədricən tibbi laboratoriyalardan real klinik praktikaya keçir və bəzi hallarda onun verdiyi məlumat insanın sağlamlığı, hətta həyatı üçün həlledici əhəmiyyət daşıyır. Bunun ən yeni və diqqətçəkən nümunələrindən biri Londonda qeydə alınıb. 2026-cı ilin mayında İngiltərənin Milli Nevrologiya və Neyrocərrahiyyə Xəstəxanasında dünyada ilk dəfə süni intellekt neyrocərraha canlı əməliyyat zamanı real vaxt rejimində dəstək verib. Hadisənin təfərrüatları xəstənin sağalma prosesindən sonra avqustun 27-də açıqlanıb.

Əməliyyat olunan 48 yaşlı Ris Hibbertin hipofiz vəzində təxminən 11 millimetrlik şiş aşkarlanmışdı. Şişin yerləşdiyi sahə isə neyrocərrahiyyənin son dərəcə həssas bölgələrindən hesab olunurdu: burada hipofiz vəzi, mühüm qan damarları və görməni təmin edən sinirlər bir-birinə çox yaxın yerləşirdi. Hətta millimetrlik yanlış hərəkət ağır nevroloji fəsad, görmə itkisi, insult və ya ölüm riski yarada bilərdi. Əməliyyat zamanı cərrah bütün qərarlara və prosedura nəzarəti özündə saxlayıb, süni intellekt isə endoskopik kameradan gələn canlı görüntünü fasiləsiz təhlil edib. Sistem kritik anatomik strukturları müəyyənləşdirərək cərraha hansı sahələrdən uzaq durmalı olduğunu göstərib. Başqa sözlə, süni intellekt əməliyyatı həyata keçirməyib, lakin cərrahın görmə imkanlarını genişləndirən əlavə "rəqəmsal göz" rolunu oynayıb. Nəticə xəstə üçün xüsusilə əhəmiyyətli olub. Hibbertin əməliyyatdan əvvəl periferik görməsi ciddi şəkildə zəifləmiş, hərəkət edərkən əsadan istifadə etməyə başlamışdı. Əməliyyatdan sonra isə görmə qabiliyyətində nəzərəçarpacaq yaxşılaşma baş verib. O, oyandıqdan sonra otaqdakı əşyaları aydın gördüyünü bildirib, bir həftə ərzində eynəksiz və əsadan istifadə etmədən sərbəst hərəkət edə bilib. Həkimlərin məlumatına görə, müdaxilə edilməsəydi, şiş xəstənin görmə qabiliyyətini daha da pisləşdirə və nəticədə korluğa gətirib çıxara bilərdi.

London təcrübəsi süni intellektin neyrocərrahiyyəyə ilk gəlişi deyil, lakin onun canlı əməliyyat zamanı cərraha real vaxtda anatomik istiqamət verməsi mühüm mərhələdir. Bundan əvvəl də alimlər süni intellektin əməliyyat otağında qərarvermə prosesini sürətləndirə biləcəyini göstərmişdilər. Daha öncə "Nature" jurnalında dərc edilən tədqiqatda süni intellektə əsaslanan sistemin beyin şişlərini əməliyyat davam etdiyi müddətdə molekulyar xüsusiyyətlərinə görə sürətlə təsnif edə bildiyi göstərilmişdi. Beyin şişinin növünü əməliyyat zamanı bilmək cərrah üçün mühüm üstünlükdür: bəzi şişlərin mümkün qədər geniş çıxarılması tələb olunduğu halda, digərlərində sağlam beyin toxumasının qorunması üçün daha ehtiyatlı müdaxilə lazım gəlir.

Süni intellektin tibdə ən sürətlə inkişaf etdiyi sahələrdən biri isə radiologiyadır. Kompüter alqoritmləri minlərlə, bəzən milyonlarla tibbi görüntüdəki qanunauyğunluqları öyrənərək rentgen, kompüter tomoqrafiyası və mammoqrafiya görüntülərində şübhəli dəyişiklikləri müəyyənləşdirə bilir. Bunun real səhiyyə sistemində nə qədər əhəmiyyətli ola biləcəyini İsveçdə aparılan genişmiqyaslı MASAI tədqiqatı göstərib. 105 mindən çox qadının iştirak etdiyi tədqiqatın 2025-ci ildə "The Lancet Digital Health" jurnalında dərc olunan nəticələrinə görə, süni intellekt dəstəyi ilə aparılan mammoqrafiya skrininqində hər 1000 qadına 6,4 süd vəzi xərçəngi aşkar edilib. Standart, iki radioloqun görüntüləri oxuduğu qrupda isə bu göstərici hər 1000 qadına 5 olub. Beləliklə, süni intellekt tətbiq edilən qrupda xərçəng aşkarlanması 29 faiz yüksək olub. Bu tədqiqatın 2026-cı ildə "The Lancet"də yayımlanan sonrakı nəticələri də diqqət çəkib. Süni intellekt dəstəyi ilə skrininq aparılan qrupda həssaslıq 80,5 faiz, standart qiymətləndirmədə isə 73,8 faiz olub. Hər iki qrupda spesifiklik 98,5 faiz təşkil edib. Bu nəticələr süni intellektin radioloqu əvəz etməsindən daha çox, onun imkanlarını artıran ikinci müşahidəçi kimi əhəmiyyətini göstərir.

Süni intellekt ürək xəstəliklərinin daha erkən müəyyənləşdirilməsində də sınaqdan keçirilir. Böyük Britaniyada TRICORDER proqramı çərçivəsində süni intellektlə işləyən rəqəmsal stetoskop 100 ailə həkimi məntəqəsində istifadəyə verilib. Təxminən 2,5 milyon əhalini əhatə edən ərazidə tətbiq olunan texnologiyanın məqsədi ürək çatışmazlığının xəstələr ağır vəziyyətə düşməzdən əvvəl aşkarlanmasına kömək etməkdir. Sistem ürək səsləri və elektrokardioqrafik məlumatları analiz edərək həkim üçün əlavə məlumat verir.

Süni intellektin səhiyyədə təsiri yalnız xəstəliyin aşkarlanması və əməliyyatlarla məhdudlaşmır. Ən böyük dəyişikliklərdən biri yeni dərmanların hazırlanması sahəsində müşahidə edilir. Ənənəvi dərman kəşfi uzun illər tələb edən, minlərlə potensial molekulun yoxlanıldığı bahalı prosesdir. Generativ süni intellekt isə molekulların xüsusiyyətlərini modelləşdirərək perspektivli namizədlərin daha sürətli seçilməsinə imkan yaradır. Ötən il "Nature Medicine" jurnalında bu sahədə mühüm nəticə dərc olunub. İdiopatik ağciyər fibrozu üçün hazırlanmış "Rentosertib" adlı preparatın klinik tədqiqatının nəticələri açıqlanıb. Tədqiqat 71 xəstəni əhatə edib. Bu nəticələr hələ preparatın geniş klinik istifadəyə hazır olduğu demək deyil. Lakin süni intellekt vasitəsilə müəyyənləşdirilmiş hədəfə qarşı hazırlanmış dərmanın artıq II faza sınaqlarına qədər çatması texnologiyanın farmakologiyadakı potensialını nümayiş etdirir.

Bütün bunlar səhiyyənin sürətlə "insan və alqoritm əməkdaşlığı" modelinə doğru irəlilədiyini göstərir. Lakin süni intellektin imkanlarının genişlənməsi onun səhvsiz olduğu anlamına gəlmir. Alqoritmin nəticəsi öyrədildiyi məlumatların keyfiyyətindən və müxtəlifliyindən asılıdır. Müəyyən yaş, etnik və ya xəstə qruplarının məlumat bazalarında kifayət qədər təmsil olunmaması nəticələrin həmin insanlar üçün daha az dəqiq olması ilə nəticələnə bilər. Yanlış müsbət nəticələr lazımsız müayinələrə, yanlış mənfi nəticələr isə təhlükəli gecikmələrə yol açır. Bundan əlavə, xəstələrin tibbi məlumatlarının qorunması, alqoritmin qərarlarının izah edilə bilməsi və səhv baş verdikdə məsuliyyətin kimə aid olması kimi suallar hələ də müzakirə olunur. Məhz buna görə dünyanın tənzimləyici qurumları süni intellektə, sadəcə, texnoloji yenilik kimi deyil, təhlükəsizliyi elmi şəkildə sübut edilməli tibbi vasitə kimi yanaşmağa başlayıblar. ABŞ Qida və Dərman Administrasiyası 2025-ci ildə dərman və bioloji məhsullarla bağlı qərarların qəbulunda istifadə edilən süni intellekt modellərinin etibarlılığının risk əsaslı qiymətləndirilməsinə dair tövsiyə layihəsi yayımlayıb.

Əslində, səhiyyədə süni intellekt inqilabının ən mühüm xüsusiyyəti insanı tibdən çıxarması deyil, həkimin imkanlarının sərhədlərini genişləndirməsidir. Bir alqoritm milyonlarla görüntüdəki qanunauyğunluğu yadda saxlaya, yüzlərlə əməliyyat videosundan öyrənə və saniyələr ərzində böyük məlumat kütləsini müqayisə edə bilər. Həkim isə xəstənin vəziyyətini bütövlükdə qiymətləndirir, riskləri ölçür, etik və klinik qərarı verir, məsuliyyət daşıyır.

Londonda Ris Hibbertin əməliyyatdan sonra yenidən ətrafını aydın görə bilməsi bu əməkdaşlığın nə qədər real nəticə verə biləcəyinin simvolik nümunəsinə çevrilib. Bir vaxtlar yalnız elmi fantastikada təsəvvür edilən "ağıllı əməliyyat otağı" artıq gerçəklikdir. Qarşıdakı illərdə süni intellektin daha erkən diaqnoz, daha dəqiq cərrahiyyə, fərdiləşdirilmiş müalicə və daha sürətli dərman kəşfi istiqamətində imkanları genişləndikcə səhiyyənin əsas sualı "süni intellekt tibdə istifadə olunacaqmı?" deyil, "ondan nə qədər təhlükəsiz, düzgün və səmərəli istifadə edə biləcəyik?" olacaq.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# DİN AMERİPOL-da müşahidəçi statusu qazanıb

**Amerika Polis Qüvvələri Birliyinin (AMERİPOL) Direktorlar Şurasının 5-ci Fövqəladə Sammiti çərçivəsində Azərbaycanın Daxili İşlər Nazirliyinin (DİN) təşkilatda müşahidəçi statusunda təmsil olunması təmin edilib.**

Bu barədə AZƏRTAC-a DİN-in Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, müvafiq status DİN-in AMERİPOL-a üzv dövlətlərin aidiyyəti hüquq-mühafizə orqanları ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, beynəlxalq polis əməkdaşlığı çərçivəsində qarşılıqlı məlumat və qabaqcıl təcrübə mübadiləsinin aparılması, eləcə də təşkilatın müvafiq tədbirlərində iştirak imkanlarının artırılması baxımından mühüm əhəmiyyət daşıyır.

Müşahidəçi statusu, eyni zamanda transmilli mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin qanunsuz dövriyyəsi, kibercinayətkarlıq, ekstremizm, insan alveri və digər müasir təhdidlərə qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın daha da inkişaf etdirilməsinə xidmət edir.

# Onlayn kreditlər və hüquqi məsuliyyət - Ali Məhkəmədən vətəndaşlara tövsiyələr

**Son illərdə bank xidmətlərinin rəqəmsallaşması nəticəsində onlayn kreditlərin verilməsi geniş yayılıb. Bu xidmət vətəndaşlara banka getmədən qısa müddətdə kredit almaq imkanı yaratsa da, yeni hüquqi risklər də meydana çıxarıb. Azərbaycan qanunvericiliyi banklara məsafədən bank hesabı açmağa və kredit müqaviləsi bağlamağa imkan verir.**



Azərbaycan Respublikası Mərkəzi Bankının təsdiq etdiyi Qaydalara əsasən banklar onlayn xidmət göstərərkən gücləndirilmiş elektron imza, videozəng, videoçəkiliş, üz tanınması, birdəfəlik təsdiq kodu (OTP) və digər identifikasiya vasitələrindən istifadə edə bilər. Son dövrlərdə məhkəmələrdə rast gəlinən mübahisələr göstərir ki, bəzi hallarda üçüncü şəxslər vətəndaşların fərdi məlumatlarını əldə edərək, onların adından onlayn kredit rəsmiləşdirir və kredit vəsaitini öz hesablarına köçürürlər.

Bu barədə AZƏRTAC-a Ali Məhkəmədən məlumat verilib.

Bildirildiyinə görə, təcrübədən görünür ki, bəzən vətəndaşlar özləri mobil telefonlarına göndərilən birdəfəlik təsdiq kodlarını (OTP), bank tətbiqinə giriş məlumatlarını və ya üz tanınması prosesini digər şəxslərlə paylaşırlar. Bu isə onlara qarşı dələduzluq hallarının baş verməsinə şərait yaradır.

Bir çox şəxs hesab edir ki, dələduzluğun qurbanı olduğu üçün kredit borcuna görə heç bir hüquqi məsuliyyət daşımır. Lakin hüquqi baxımdan məsələ bir qədər fərqlidir. Belə ki, vətəndaşlar özləri də fərdi məlumatlarının qorunmasına görə məsuliyyət daşıyırlar. Məsələn, hər bir şəxs FIN kodunu, şəxsiyyət vəsiqəsini və ya onun surətini, SMS təsdiq kodlarını, bank tətbiqinə giriş məlumatlarını, biometrik məlumatlarını (üz tanınması, barmaq izi və s.) başqalarına təqdim etməməli və onların təhlükəsizliyini təmin etməlidir.

**Tövsiyələr**

- FIN kodunuzu, şəxsiyyət vəsiqənizi və ya onun surətini naməlum şəxslərə verməyin;
- Biometrik məlumatlarınızın təhlükəsizliyini təmin edin;
- SMS təsdiq kodlarını heç kimlə paylaşmayın;
- Telefonunuza gələn bank bildirişlərini daim izləyin;
- Mobil nömrənizi dəyişdikdə bunu banka dərhal bildirin;
- Şübhəli zəng və mesajlara etibar etməyin;
- Bank hesablarınızı mütəmadi yoxlayın;
- Xəbəriniz olmadan adınıza kredit rəsmiləşdirildiyi halda dərhal banka və hüquq-mühafizə orqanlarına müraciət edin.

**Nəticə**

Onlayn kredit xidmətləri müasir bankçılığın ayrılmaz hissəsidir. Bu xidmətlər həm banklardan yüksək təhlükəsizlik standartları tələb edir, həm də vətəndaşların fərdi məlumatlarının qorunmasına diqqətli yanaşmasını zəruri edir.

Məhkəmə təcrübəsi göstərir ki, təkcə dələduzluq faktının mövcudluğu kredit müqaviləsinin etibarsız sayılması üçün kifayət etmir. Məhkəmə hər bir konkret iş üzrə bankın davranışını, qanunvericiliyə əməl edib-etmədiyini, vətəndaşın öz hərəkətlərini və təqdim olunan bütün sübutları birlikdə qiymətləndirir.

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 7 iyul (Bazar ertəsi günü) tarixli 218-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Düşənbə, 8 şəvvalül-mükərrəm sənə 1337.
7 təmmuz 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 35 rublə,
2 aylığı 60 rublə, 3 aylığı 90 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə,
2 aylığı 70 rublə, 3 aylığı 100 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 5 rublə,
axırıncı səhifədə sətri 4 rublə,
itən şeylər və yer axtaranlar üçün 3 rublə.

## İNGİLİS PARÇALARI

Və həmçinin ipək və markizet külli miqdarda satılır. Kostyum üçün parçalar. Əhmədov və kompaniyasının mağazasında, Merkuryevski və Milyutinski küçələrin küncündə, Adamovun evində. Te lefon nömrə 24-34.

*5405*

**Hökumət Teatrosunda**
**Axşam tamaşası**
**DRAMA**
Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli Müdiriyyəti
Düşənbə [bazar ertəsi] günü şəvvalül-mükərrəm ayının 8-də 1337-ci sənəsi (iyul ayının 7-də 1919-cu ildə)
bu mövsümdə ikinci dəfə olaraq mütəntən [təntənəli] bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır
“Ədirnə fəthi”
Bu tamaşada müharibə zamanında Azərbaycan hərbi musiqi orkestri iştirakı ilə bərabər, əsgərlər vəzifəsini
“Yardım alayı” əfradı [əsgərləri]
ifa edəcəkdir.
Biletlər teatrın kassasında
satılmaqdadır. Tamaşa başlanacaq axşam saat 8 tamamda.

1919[-cu] il iyul 7 bazar ertəsi günü saat 11-də Azərbaycan Məclisi-Məbusanının iclası olacağı elan olunur.

## QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]

**Post-Teleqraf Nəzarətindən**
Əmrnamə nömrə 73
28 həziran [iyun], sənə 1334 [1919]
Qalaqayın posta və teleqrafxanası 5-ci dərəcə məmuru Rəşid bəy Səmədov həziranın 28-dən Ağcaqabul [Hacıqabul] posta və teleqrafxanasına müdir təyin edilir.

*Posta və Teleqraf naziri: Camo Hacınski*
*Dəftərxana baş müdiri: Blajevski*

## TELEQRAF XƏBƏRLƏRİ

*(Bolşevik məlumatı)*

**Tsaritsının işğalı**
Tsaritsın dairəsində qızğın müharibədən sonra bizim qoşunlar Tsaritsını tərk etdilər. Şərq cəbhəsində Sterlitamak dairəsində bizim qitəatımız [hərbi hissələrimiz] Axmetovo və Bezək denilən yerləri işğal etmişlərdir. Ufa dairəsində Milyar mövqifi [stansiyası] tərəfimizdən işğal edilmişdir. Kolodevka yaxınlığında 200 əsir və bir neçə pulemyot alınmışdır.

Peterburq – Peterburq Şurasına seçkilər başlandı. Şuraya əksəriyyətlə bolşeviklər keçirlər.

Olonets uçastokunda fin qoşunları çıxarılmışlardır. Düşmənlər həyəcan içində qaçırlar.

**“Pravda” yazır**
Müttəfiqlər Kolçakı təsdiq etdilər. Biz Kolçakı pərişan etmişik. Denikin burjuaziyanın son ümidgahıdır. Hər kəs möhkəm sülh istəyirsə, silaha sarılmalıdır.

**Bolşeviklər Tomsk altında**
N. ordusunun ştabı – Kolçak dəstəsindən qaçmış və əsir düşənlər deyirlər ki, Tomsk üzərinə bolşeviklərin partizan və könüllü dəstələri yürüş edirlər. Kolçak ordusu bolşeviklərin yerişini saxlamaq üçün Ob nəhri üzərindən keçən körpünü dağıdıb, 70 verst dəmiryolunu da təxrib [xarab] etmişlərdir.

**Vyanada üsyan**
Vyana – Həbs edilmiş olan bolşeviklər əhali tərəfindən azad edilmişlərdir. Sonra nümayişçilər qışlalara [kazarmalara] tərəf getmişlər ki, saldatları öz tərəflərinə cəlb etsinlər. Nümayiş tam axşa madək davam eyləmişdir. Bu hərəkət getdikcə vüsətlənir. Üsyançılar tərəfindən tövqif edilən [tutulan] zirehli avtomobili hökumət onlardan geri ala bilmə yir.

Stokholm – İngiltərədə əmələ arasında ümumi cünbüş gündən-günə artır. Əmələ tətilindən maəda [başqa], yalnız Londonda deyil, bir çox ingilis şəhərlərində də polisin tətili gözlənir. Polis Həmkarlar İttifaqı təşkilini tələb edir. Əhvali-ümumiyyə ingilis hökuməti üçün xətrəli [təhlükəli] hesab edilir. Londondan xəbər verildiyinə görə, Kanadada Vinnipeq şəhəri idareyi-örfiyyeyi-əsgəriyyə [fövqəladə hərbi vəziyyət] altında elan edilmişdir.

**Əksinqilab məhv edilməlidir**
Qəzetələr xəbər verirlər ki, əksinqilab məhv ediləcəkdir. Denikin, [Nikifor Aleksandroviç] Qriqoryev və onun tərəfdarları zəhmətkeş ukraynalıların zərbəsini hiss edəcəklərdir. Böyük mitinqdə Kiyev qarnizonu qərar qoymuşdur ki, son damcı qanlarınadək Şura hökumətini müdafiə edəcəkdirlər.

Helsinqfors [Helsinki] – Londonda ingilis əmələlərinin [fəhlələrinin] konfransında Henderson 21 iyunda ingilis, İtaliya və fransız əmələlərinin ümumi nümayiş yapacaqlarını elan etmişlərdir.

**Fransada tətil**
Paris – Tətillər başlandı. Bunların məqsədi 8 saat iş vaxtına nail olmaq, birinci zəruri şeylərin qiymətini əskiltməkdir. 300 min nəfər əmələ tətil etmişlərdir. Marseldə kömür mədənçiləri konfransında qərar qoyulmuşdur ki, hərgah iyulun 12-dək 8 saatlıq iş müddəti kömür mədənlərində də təyin edilməzsə, o zaman iyulun 16-dan etibarən tətil edəcəkdirlər. Bu gün şimalda və Pade-Kaledə kömür mədən əmələləri tətil etmişlərdir.

**Patlayış**
Brüksel [Brüssel] – Xareimdə güllə zavodunda patlayış vaqe olub, 6 nəfər ölmüş, 220 nəfər yaralanmışdır. Bunların 70 nəfərinin yarası çox ağırdır. Patıltıya yanğın səbəb olmuşdur. Xəsarət çox böyükdür. Bir çox evlər dağılıb, külli mal yanmışdır. Dünən Kilvord həbsxanasında yanğın başlamışdır. Xəsarət bir neçə milyon frankdır.

## SÜLH ƏTRAFINDA

**Almaniyada matəm**
Sülh müahidənaməsinin [sazişinin] imza edilməsi münasibətilə Berlində çıxan bir neçə qəzetələr matəm əlaməti ilə nəşr edilmişdir. Eyni mülahizə ilə Almaniya Kiçik Zabitan Heyəti İttifaqı öz üzvlərinə bu məzmunda bir məramnamə göndərmişdir:

*“Almaniya həqarətamiz sülhü imzalamağa məcbur edilmişdir və öz millətinin üzvlərini Müttəfiq millətlərə verməyə məcburdur, tainki Almaniya tamamilə məhv olmaqdan xilas olsun. Yoldaşlar, biz sizə təklif edirik ki, iki həftə matəm saxlayasınız.”*

**Təsadüflər**
Paris mətbuatı yazır ki, sülh müahidənaməsinin imza edilməsi günü “Luzitaniya” paroxodunun qərq edilən gününə təsadüf eylədi. Almaniya mətbuatı isə yazır ki, biləks [əksinə] Sarayevoda Avstriya vəliəhdi [Frans] Ferdinandın qətl edilən gününə təsadüf eyləmişdir. İcra edilən bu qətl Serbiya hökumətinin fəaliyyəti ilə olmuşdur. Avstriya, Türkiyə və Almaniyanı dağıtmağa bir ittifaq yapmaq üçün bu bir əlamət idi.

**Almaniya ablukasının artırılması**
Sülh müahidənaməsinin imza edilməsi Almaniya kənarlarının ablukasını [blokadasını] təbdil etmədiyi [dəyişmədiyi] kimi, Müttəfiqlər əlində olan Almaniya əsirlərini də azad etməyir. Almaniya və Müttəfiqlər Parlamanı tərəfindən müahidənamə imzası təsdiq edildikdən sonra bu maddələrə əməl ediləcəkdir.

**İngilis əmələləri və Cəmiyyəti-Əqvam**
28 iyunda Sautportda açılmış Əmələ Konfransında – ki bu da əmələ tarixində ən əhəmiyyətli bir mövqe tutur – böylə qərar qoyulmuşdur: Müttəfiqlərdən tələb edilsin ki, Almaniya da dəxi Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] daxil edilsin.

**Hindenburq və hərb**
Berlin – Almaniya təklifinə qarşı Müttəfiqlərin verdiyi cavablarına nə nəzərlə baxdığı barəsində Almaniya müdafiə nazirinin verdiyi sualına cavabən marşal Hindenburq demiş ki, hərgah hərəkati-hərbiyyə [hərbi hərəkat] başlanarsa, ordumun iqtidarı olacaqdır ki, Poznanı geri alsın. Fəqət qərbdə o müvəffəqiyyətə bir o qədər də ümid ola bilməyiriz. Ona görə də, hərbin Almaniya üçün müvəffəqiyyətli olacağı şübhəlidir. Amma bir saldat olduğu üçün şərəfli məğlubiyyəti həqarətli sülhə tərcih edərdi.

## QƏZETƏLƏRDƏN

**Petroqradda**
Helsinqforsdan [Helsinkidən] Paris qəzetələrinə xəbər verirlər ki, bu axır günlər Petroqradda tətillər olmuşdur. Fəhlələr əleyhinə pulemyotla çıxılmışdır. Bir çox zavodlarda şəhər təxliyə edildiyi zaman makinaların bolşeviklər tərəfindən xarab edilməsinə mümaniət [maneçilik] göstərməkdən ötrü könüllü dəstələr təşkil edilmişdir.

**Kuban Radası sədrinin qətli**
Cənubi Rus İttifaqı təşkil edilməsi işlərində iştirak etməkdən ötrü Rostova gəlmiş olan Kuban Nahiyə Radası sədri və üzvü Ryabovol Rostovda qətl edilmişdir.

**Polşada**
Nauendən xəbər verirlər ki, general [Yozef] Haller Sileziya cəbhəsi komandanı təyin edilir. Yuxarı Sileziya və Qərbi Prussiya sərhədində olan Polşa şəhərləri təxliyə üçün hazırlanırlar. Varşavadan Yuxarı Sileziyaya gedən dəmiryol sərnişin hərəkatı üçün qapalıdır. Çenstoxovda bir çox topxana hazırlanmışdır ki, general Hallerin birinci korpusuna mülhəq olacaqdır [qoşulacaqdır].

**Polşa əsgərləri**
Lodzdan hərəkət edən 7-ci Polşa əsgəri firqəsi [diviziyası] fransızların komandası altında olub, sabiq Almaniya, Polşa hərbi əsirlərindən, Polşa, İngiltərə, Amerika və fransız könüllülərindən ibarətdir. İtaliyadan gətirilmiş topxana Avstriya polyakları tərəfindən idarə olunur.

**Çin əhvalı**
Londondan xəbər verirlər ki, Çindən verilən axırıncı xəbərlər Çin əhvalının xeyli fəna olduğunu göstərirlər.

**Kürdüstanda**
Kürdüstan əhvalı haqqında Bağdaddan böylə xəbər verirlər: Şeyx Mahmud tərəfindən cəlb edilən qüvvələr Pezi keçidi yanında pərişan edilmişdir. Bir çoxları ölüb, min nəfərə qədəri əsir alınmışdır. Şeyx Mahmud özü müharibə meydanında ağır yaralı bir surətdə tapılmışdır.

## TÜRKİYƏDƏ

Türkiyədə fövqəladə tarixi bir Dövləti Şura vaqe olmuşdur. Bu Şurada Türkiyə əhalisinin hər cür sinif nümayəndələri iştirak etmişlərdir. Birinci olaraq Sultan həzrətləri nitq irad edib [söyləyib] demişdir ki, məmləkətin ağır bir vəziyyətdə olduğuna görə, biz bütün məmləkət nümayəndələrini dəvət etdik. Mən arzu edərdim ki, təcili bir surətdə məmləkətin bu ağır halı əleyhinə tədbirlər görülsün. Buna görə də, burada hazır olanların rəyini dinləmək istərdim. Allahdan bizim bu işimizdə bizə kömək istida edirəm [istəyirəm]. Şuranın sədarətini Sədri-əzəmə mühəvvəl edirəm [Baş nazirə tapşırıram].

Sultandan sonra Sədri-əzəm müfəssəl bir nitq söyləmişdir. Türkiyənin müharibəyə daxil olan gündən axırıncı vaxtlara qədər tarixi hadisələri söyləyib demişdir ki, 1919-cu il mayın 14-də İngiltərə fövqəladə komissarı amiral Vebb ona böylə bir nota vermişdir:

1. Müttəfiq dövlətlərin İzmir sularında olan donanma naçalniki visadmiral Kaltorpun Parisdə iclas edən Ali Şuradan aldığı əmrə müvafiq və amiralın əmrinə görə sizə xəbər verirəm ki, İzmir istehkamatı Müttəfiq dövlətlərin əsgəri dəstələrinə verilməlidir.

2. Bunu xəbər verməklə ümidvar oluram ki, Türkiyə Hökuməti lazımi binagüzarlıq [sərəncam] verməyi təxirə salmaz.

3. Mütarikə şəraiti [atəşkəs şərtləri] və vücuda gələn əhval mövcibincə [vəziyyətə əsasən], bizim tərəfimizdən İzmirin işğalı üçün tədbirlər görülmüşdür. Lazımi təşəbbüsatda bulunmaq üçün sizə xəbər verirəm.

*İmza: R. Vebb*

Bu notaya cavab olaraq Sədri-əzəm mayısın 14-də axşam saat 10-da Müttəfiqlər nümayəndələrinə protesto elan və bəyan eyləmişdir ki, Osmanlı Hökuməti daha iki ay bundan əvvəl Müttəfiqlərə təklif eyləmişdi ki, İzmir vilayətinə 70 min Osmanlı əsgəri daxil edilsin. Hərgah buna əməl edilsəydi, iş bu hala müncər olmazdı [gəlib çatmazdı]. Bunun müqabilində isə 40 min nəfər mütəfərriq [dağınıq, qeyri-nizami] qoşunlar var idi. Bununla bərabər, bəyan ediriz ki, Müttəfiqlərin qətnaməsinə müxalifət etməyəcəyik. Fəqət xəbərdarlıq ediriz ki, İzmir Türkiyənin ayrılmaz bir hissəsidir. Bu yerin gərək qan və gərək etnoqrafi tarixcə Yunanıstana heç bir dəxli yoxdur. Hərgah məsələnin tarixinə keçərsək, o zaman bu maddə Bəhri-Səfid [Ağ dəniz, Aralıq dənizi] sahillərinə də şamil olmalıdır. İşə bu nəzərlə baxmaq, nəinki törəmiş olan əhvalı qarışdırar, dəxi də əhvalı müşkülləşdirər. Türkiyə müharibənin nə qədər vəxim [ağır] nəticələri olduğunu nəzərə alır. Türkiyənin hər bir yerindən İzmirin işğalına qarşı protesto teleqramları gəlir. Əhvali-ümumiyyə cəbrən [zorla] Türkiyəni vadar edir ki, Müttəfiqlərin qətnaməsinə itaət eyləsin, fəqət bu, o demək deyil ki, Türkiyə İzmirdəki haqqından keçir.

Böylə bir təhlükəli zamanda Vüzəra Şurası [Nazirlər Kabineti] məmləkətdə arası kəsilməyən həyəcana görə mayın 10-da istefa vermişdir. Onlar mayın 18-də yenə təzədən hökuməti əllərinə alıb, 1919 sənəsi mayın 22-də Fransa, İngiltərə, Amerika və İtaliya fövqəladə komissarlarına protesto notası göndərmişlərdir. (Notanın mühüm yerləri “İqdam” qəzetəsində sansür [senzura] tərəfindən çıxarılmışdır.)

Eyni zamanda Paris Konfransı Heyəti-Rəyasətinə simsiz teleqrafla böylə bir təklif göndərilmişdir:

*“Ərəbistan məsələsi müqəddəs yerlərə və xəlifə hüququna və bütün islam aləminə aid olduğundan, bu məsələ Paris Konfransının vəzifəsindən kənardır. Bütün Anadolu, Ərəbistan sərhədindən başlayıb Qara dənizə qədər, Rumeli və Frakiya Ədirnə ilə bərabər, bilavasitə sultanın təhtihakimiyyətində [hakimiyyəti altında] olmalıdır. Əfkari-ümumiyyəni [ictimai rəyi] sakit etməkdən ötrü və mümkün ola biləcək ixtilafı bərtərəf etmək [aradan qaldırmaq] üçün İzmirin yunan əsgərləri tərəfindən təxliyə edilməsi və yuxarıda göstərilən oblastları[n] Ermənistana geniş muxtariyyət verilmək üzrə Türkiyə Hökuməti ixtiyarında olması tələb edilir. Ancaq Sülh Konfransı tərəfindən böylə bir hərəkət əfkari-ümumiyyəni sakit edə bilər.”*

## PARLAMAN ƏTRAFINDA

Ramazan bayramı münasibətilə Parlaman sədri namına [adına] aşağıdakı təbrik teleqrafları alınmışdır:

**Gəncədən**
Bu gün bu ali təntənəli Ramazan bayramında Gəncə qarnizonu hissələri birinci dəfə olaraq öz generalları və zabitləri başda olmaq üzrə namaz qılıb, bununla bu dini bayramı milli bir təntənəyə döndərmişlərdir. Gəncədə olan bütün əsgərlər namından bizim cavan Parlamanımıza salam göndərib, uzun müddət onun davamını və nəşvü-nüma [inkişaf] etməsini səmimiyyətlə arzu edirəm. Yaşasın!

*Generel-leytenant Şıxlinski*

**Qusardan**
Quba alayı eydi-fitr [Oruc bayramı] münasibətilə Azərbaycan millətləri nümayəndələrinin sədrini təbrik edib, əziz vətənin mənfəəti üçün çalışan millət nümayəndələrinə müvəffəqiyyətlər arzu edir.

*Polkovnik [Şirin bəy] Kəsəmənski*

**Petrovskda[n]**
Sizin hamınızı bu ali Ramazan bayramı münasibətilə təbrik edirəm.

*Petrovsk agenti: Qədir Dadaşov*

* * *

İyulun 1-də Şamaxıda olan İrəvan quberniyası qaçqınları tərəfindən Parlaman sədri namına böylə bir teleqraf alınmışdır:

Biz İrəvan quberniyası qaçqınları qeyri-müəyyən bir haldayıq. 10 aydır ki, Şamaxı uyezdində Mədrəsə və Meysər kəndlərində yaşayırıq. İndiyə qədər yerlər bölünməmişdir. Əkin vaxtı yaxınlaşır, yerlər təqsim edilmədiyindən [bölünmədiyindən], iş başlamaq imkanı yoxdur. Cavanların ordu səflərinə [sıralarına] daxil olması elan edilmişdir. Cavanları əsgərliyə verməklə biz köməksiz qalarıq. Qocalar Mədrəsə və Meysər kəndləri xarabalarında bir iş görməyə qadir deyildirlər. Geniş bir dairədə və hökumət müavinət etməlidir ki, evlər təmir edilsin, yerlər əkilsin və əsgərliyə düşənlərə bir il möhlət verilsin. Ailələrimizi aclıqdan və soyuqdan təmin etdikdən sonra biz vətən müdafiəsi üçün Azərbaycan Ordusu səflərinə daxil olmağa hazırız. Qanun və azadəlik naminə bizim xahişimizin təmin edilməsini rica edirik.

*İrəvan Qaçqınları Komitəsi sədri: Məşhədi Hümmət Məhəmməd oğlu*

## XARİCİ SİYASƏTİMİZ

**- 4 -**
**İstanbul səfarəti**

Beynəlmiləl hüquq tarixi göstərir ki, bir məmləkət yaşamaq üçün özünü yaşatmalıdır və dişarıdan təsdiq gözləməməlidir. Böyləliklə, Bolqariya meydana çıxdı. Türkiyənin muxtariyyətli bir hissəsi olan bu ölkə hər yerə səfirlər və vəkillər göndərə-göndərə özünü aləmə tanıtdırdı. Biz də bu yolu tutmalıyıq.

Paris müzakirəsində davam etsin, biz də məmləkətimizin möhkəmliyinə çalışaq. Daxili nizam və islah ilə bərabər, xarici işləri də yoluna qoymalıyıq. Bu gün bizim elçilərimiz Rusiyadan ayrılan dövlətlərdən başqa qeyri yerlərdə yoxdur. Halbuki bizim istiqlal məsələsi Qərbdə müzakirə olunacaq və Qərbdə də elçilər bulundurmalı idi.

Elçi təyin olunacaq paytaxtlardan bu gün əhəmiyyəti ilə birinciliyi qazanan İstanbuldur.

İstanbul bu gün Müttəfiqlər qüvvələrinin toplandığı bir nöqtədir. Burada bütün yer üzünün mətbuat nümayəndələri mövcuddur. Burada bizdən başqa yeni təşəkkül etmiş dövlətlərin və Müttəfiq məmləkətlərin siyasi mümessilləri [nümayəndələri] də var. Deməli, aləm İstanbuldadır. Siyasi iplərin ucu, əfkari-ümumiyyənin [ictimaiyyətin] gözü, hamısı burada. Bu səbəbdəndir ki, müstəqil yaşamaq istəyən polyaklar, ukraynalılar, gürcülər və başqaları İstanbulda elçilər bulundururlar. Bunun üçün də rumlar (yunanlar), ermənilər və qeyriləri burada firəng dilində qəzetələr çıxardıb, öz milli dərdlərini ümuma bildirirlər. İstanbulda yapılan gurultular Parisə çatıb, təsirsiz olmayır. Sabiq Rusiyada yaşayan millətlər istiqlal imtahanının bir hissəsini burada Avropa qarşısında verməlidirlər. Biz hamıdan çox bağırmalıyız, özümüzü tanı[t]malı, fikrimizi tərvic etməliyiz [yaymalıyız]. Bu yoldakı müvəffəqiyyətimiz bizə milli müvəffəqiyyətlər qazandırar.

İstanbulun başqa cəhətlərdən də bizə əhəmiyyəti böyükdür. Bu gün İstanbul, Bakı mədənləri məhsulu üçün yeganə bir xarici bazardır. Bundan əvvəl Bakı nefti şimala gedirdi. Şimal indi bağlı olduğu üçün nefti bir ayrı nöqtəyə daşımalıdır. İstanbuldan başqa əlverişli bir yer yoxdur. Lakin İstanbul bazarını qazanmaq üçün orada ticarət vəkilləri bulundurmalıdır ki, bazarın övzasını [vəziyyətini] tez-tez Bakıya xəbər versin. Azərbaycan tüccarı [tacirləri] birinci dəfə İstanbula neft gətirdilər, zərər gördülər. Səbəb budur ki, məhəlli [yerli] rumlar toplanıb sindikat yapdılar və Bakı neftinin qiymətini saldılar. Halbuki İstanbulda səfarətimiz [səfirliyimiz] və konsulumuz olsa, məhəlli Azərbaycan tüccarlarından təşkilat yapıb, rum sindikatının qabağına çıxa bilərdi. Sonra ticarətimizi qüvvətləndirmək üçün İstanbulda skladlar [anbarlar] icarə edib tüccarımıza da müftə verər ki, Amerika nefti ilə rəqabət edə bilsinlər. Bizim üçün neftimizin İstanbul bazarında asanlıqla müştəri tapması birinci dövləti məsələdir. Bu məsələnin qolaylıqla həlli gələcəkdəki İstanbul elçimizdən asılı olacaqdır.

Maarif işlərimiz bir nöqtədə duran kimi görünür. Səbəb budur ki, müəllimlər azlığı hiss olunur, sonra kitab yoxluğu da görünür. Maarifi yoluna qoymaq üçün İstanbul elçimiz müəllim və müəllimələr hazırlamalıdır, kitablar çap etdirməlidir.

İstanbula göndərilən bir çox tələbələrimiz geri qayıtdılar. Səbəb bu oldu ki, orada heç bir yerdən kömək görmədilər. İstanbulda leyliyyə (pansion) açmalıdır ki, Azərbaycandan gələn tələbələrimiz istirahətlə yaşayıb təhsil edə bilsinlər. Bunlar hamısı böyük dövləti məsələlərdir. Hökumətimiz pullar təxsis etməlidir [ayırmalıdır] ki, bu işlərin hamısına əncam verilsin.

Bir millət olaraq, müstəqil bir məmləkətə malik olmaq istədikdə, bizə yazılı tariximiz su kimi zəruridir. İstanbul kitabxanalarında bir neçə adamlar bulundurmaqla bizə dair böyük məlumatlar toplamaq olar.

İşlər çoxdur. Adamlar göndərməlidir, çalışmalıdır. Bunlardan başqa, təbəələrimizin [vətəndaşlarımızın] himayəsinə çalışmalıyıq. Azərbaycanın siyasi mümessili olaraq və bolşeviklik qəzasına uğrayaraq İstanbulda çox pulsuzluq müşkülatı çəkdim. Halbuki, səfarət möhürü ilə sənədlər verib pul almaq imkanı var idi. Bu imkanla genə çətinliyə düşdüm, əziyyətlər çəkdim. Halbuki, təbəələrimiz xaricdə 10 qat zəhmətlər çəkirlər. Bolşeviklikdən zərərlər görmüş böyük tüccarlarımız belə İstanbulda qalıb, çox vaxtı yol kirayəsinə möhtac olurlar. Viza müşkülatı daha da çox.

Bu məsələlərin hamısını həll etməli, təbəələrimizin istirahətini lazımınca təmin etməliyik.

*Yusif Vəzirov*

## ERMƏNİ CÜMHURİYYƏTİNDƏ MÜSƏLMANLARIN YAŞAYIŞI

“...Azərbaycandakı ermənilər də kaş ki, Ermənistandakı müsəlmanlar kimi yaşasaydılar...”

*Erməni Rəisi-vükəlası: [Aleksandr İvanoviç] Xatisov*

**- 1 -**

Erməni Cümhuriyyəti daxilində qalaraq, NovoBayəzid uyezdinin Göyçə gölü şərq, cənub və cənub-qərbində yaşayan müsəlman kəndliləri, vaxtilə erməni təcavüzləri müqabilinə mərdanə surətdə irz-namuslarını müdafiədə bulunmuşlardı. Sonra Erməni Cümhuriyyəti tərəfindən indiki Hərbiyyə naziri general [Movses] Silikovun komandası altında top, pulemyot dəstələri göndərilib irzlərini təcavüzçülərdən müdafiə edən məzbur [adı çəkilən] uyezdin müsəlman kəndlərini topa-pulemyota tutub, əhalisinin salamat qalanlarını yerlərindən qaçırmışlardı.

Bu zavallı əkinçilər aylar uzunu ətraf müsəlmanların ianəsi ilə ölə-qala yaşayaraq bu zamana çatmışlar. İndi bunlar ortalığı bir az asudə zənn edib öz kəndlərinə qayıtmaq üçün İrəvana gəlmişlər. Cındır paltarlar içində saralmış ac simalardan ibarət bu “süfla [səfillər] sürüsü” binəva müsəlman kəndliləri indi də aylardan bəridir ki, erməni cümhuriyyət hökuməti qapılarını öpüb, kəndlərinə, əkinləri üstünə getməyə izin hasil etmək üçün gözyaşı töküb yalvarırlar.

Bu kəndlilərdən güc-bəla ilə kəndlərinə qayıtmağa vəsiqə ala bilənləri məğmum [qəmli] sevinclə dağıdılmış kəndlərinə, pozulmuş əkinləri üstünə getməyə başlamışlardı. Fəqət bunlar az zaman sonra ağlar gözlə pərişan halda təkrar İrəvana qayıtdılar. Məgər isə, biçarələri, kəndlərini, əkinlərini sahiblənib oturan ermənilər atəşə tutub qovmuşlar və əllərində erməni hökuməti tərəfindən vəsiqə olduğu halda öz yurdlarına buraxmamışlardır.

Öz kəndlərindən məcburən geri qaytarılan bu müsəlman kəndliləri hökumətdən bəlkə bir kömək, bir çarə dilənmək ümidi ilə erməni cümhuriyyəti paytaxtı İrəvanda indi bilirmisiniz nasıl yaşayırlar? Arvad, uşaq, qoca çılpaq dilənçilik dərəcədə, yırtıqlar, əsgilər içində, acından saralmış ölü rəngində, tabtəvanadan [gücdən-qüvvətdən] düşmüş skelet şəklində...

Bu müsəlman kəndlilərindən hələ bildiklərimiz Bezni, Gümüşdü, Zar, Qoylu dağ kəndliləridir ki, şimdi İrəvanda, eynən yuxarıda ərz edilən səfalət içində can çəkişdirirlər. Həm nasıl can çəkişdirmək, bilirmisiniz? Binəvaların hallarını gözlə görməyincə inanmaq olammayır.

Erməni cümhuriyyəti paytaxtı İrəvanda bu zavallı müsəlman kəndliləri, əkinçiləri İrəvanda səfalətlər içində aclarından “qan” yeyirlər. Bunlar aclıqlarından gedib mal kəsilən yerlərdən qanları toplayıb gətirirlər, bişirib yeyirlər və sonra da azarlayıb ölürlər... Zatən ermənilərə də bu lazım ya...

Fəqət demokratlıq əsasını təməlləndirən ingilislərin, amerikanların, gözləri önündə seyr etdirilən bu fəci panoramların tamaşaçısı olduqları halda, insaflarına, mürüvvətlərinə, demokratlıqlarına, insanpərvərliklərinə, mədəniliklərinə nə deməli? Qorxuram ki, bu məqaləmiz erməni cümhuriyyəti hökuməti qulağına ərişə də, zavallı müsəlman kəndlilərini aclıqlarından qan toplamağa da buraxmaya... O zaman büsbütün ağzı quru İrəvan küçələrində aclarından ölələr...

Əvət, həqiqətən də erməni Rəisi-vükəlası [Baş naziri] Xatisov demişkən: “...Azərbaycandakı ermənilər də kaş ki, Ermənistandakı müsəlmanlar kimi yaşasaydılar...”

## BAQQALLAR TABAQÇILAR ƏLEYHİNƏ

Hələ əskidən bəridir ki, tamahkar və nainsaf Bakı şəhər baqqalları, xüsusən sayuzları [ittifaqları] o ki lazımdır biz tabaqçılar əleyhinə çalışıb, bu bahalıq zamanda əhl-əyalımızı dolandırmağa mane olurlar. Bunların fikri odur ki, şəhərin mərkəzi hesab olunan Olqinski və Nikolayevski küçədə olan tabaqçıları (nə tövr olmuş olsa) yığışdırtdırıb, yaş meyvə alış-verişini əllərinə almaqla bərabər, kefləri istədiyi qədər satıb biçarə camaatın qanını zəli kimi sorsunlar.

İştə, həman bu tamahkarlar bizim təşkilatsızlığımızdan istifadə edib Bələdiyyə İdarəsində bizim əleyhimizə çalışıb bir neçə təklifdə bulunmuşlar. Neçə illərlə Dumadan icarəyə tutub alış-veriş etdiyimiz yerləri torq (müzayidə) [hərrac] vasitəsilə istəyirlər əlimizdən alıb, bu bahalıq zamanda dolanmağımıza mane olsunlar. İştə, onlar bu işi Bələdiyyə İdarəsinə təklif etmişlər. Deyilməyə görə, Bələdiyyə İdarəsi də onların bu təklifini qəbul etmişdir. Fəqət biz buna inanmayırıq. Çünki Bələdiyyə vəkillərimiz və agentlərimiz heç vaxt bu işi bizim əleyhimizə yapammazlar. Ümidimiz bərkəmaldır [tamdır]. Fəqət onlar bunu birdəfəlik düşünüb bilməlidir ki, insaflı, vicdanlı və namuslu Azərbaycan məmurları heç vaxt haqqı nahaqqa verib, haqlı tərəfi məyus, haqsız tərəfi şad etməzlər. Ona binaən [ona görə], siz də əbəs yerə bizim əleyhimizə çalışıb artıq tamahlı olmağınızı aləmə bildirməyin. Yaxşı olardı ki, siz baqqallar öz kəsbkarlığınızda olub, qeyrilərin ruzisinə mane olmayaydınız. Siz tamahınızı az edin. Əgər etməzsəniz, yəqin bizi də müdafiə edən tapılar. Ölkəmiz dərəbəylik və köhnəxanlıq deyil.

*Məhəmmədəli Əsədullazadə Tabaqçı*

*Balaca felyeton*

## XAN ELƏ BELƏ OLAR

Tiflisdə olan İrəvan quberniyası müsəlmanlarının Həmyerlilər İttifaqına xəbər vermişlər ki, Naxçıvanı Ermənistan Hökumətinə təslim edən xanlar Ermənistana tabe olmaq istəməyən Ordubad şəhərinə bir heyət göndərib, ora camaatını da Azərbaycandan ayrılıb Ermənistana tabe olmağa dəvət edirlər. Ordubad camaatının bu xanları qəbul etmələri ilə onlara nə cavab vermələri haqqında hələ bir xəbər yoxdur.

Zarafat bir yana, bu xanların bundan başqa bir əlacı da yoxdur. Çünki, əvvəla, xan elə belə olar. Xanın bir mənası karvansaradır, yəni hər kəs gəlsə qonaq ola bilər. İkinciyə qalan yerdə, ingilis generalı Biçin Aleksandropolda erməni zabitlərinə söylədiyi nitqini adam eşidəndən sonra elə belə də eyləməlidir. İngiltərə generalı deyir ki, Azərbaycan, Gürcüstan olmayacaq, bir tək Ermənistan olacaq. Fəqət əfsus etməlidir ki, general ağa Ermənistanın sərhədlərini o məclisdə söyləməyibdir. O sərhədləri söyləsəydi, hamı arxayın olardı.

Qərəz, əhvalat belədir ki, Naxçıvanda hökumət camaatın əlində olanda xanlar baxıb gördülər ki, xeyr, iş belə getsə, onların işi xarab olacaq, adət etdikləri “malades”dən məhrum olacaqlar. Ona görə, əvvəlcə bir plov bişirib ingilis generallarından bir neçəsini qonaq eyləyiblər. O ki, lazımeyi-əhvalatdır generallara söyləyiblər. Bu qonaqlıqdan sonra da general ağalar da camaatın razılığı ilə (??) Naxçıvan uyezdini ermənilərə veriblər. İndi qalıb bir Ordubad. Xanlar eşidiblər ki, ordubadlılar öz ordubadlığına salıb tərslik eyləyirlər və qorxublar yenə təzədən bir inqilab qopsun. Ona görə, indi bir heyət göndəriblər ki, ordubadlılara nəsihət eyləsin.

Bu əhvalatı bizə xəbər verən, məktubunda yazır ki, “Görəsən, bu xanların xəyanətini tarixin hansı səhifəsində yazacaqlar?” Mən də ona kamali-cəsarətlə deyirəm ki, əvvəla xanları tarixin səhifəsində çoxdan yazıblar. İkinci budur ki, Ordubada uyezdni naçalnik təyin edilən Aşot [Məlik-Movsesyan] ilə həman xanların bir az qohumluğu var. Ona görə, Tiflisdə olan İrəvan Həmyerlilər İttifaqı bu işə çox təəccüb eyləməsin. Elə şey elə belə olar, xan da ki, var elə belə olar. Allah onları Naxçıvan uyezdinə çox görməsin. Amma, qorxuram “ölmək var, erməni hakimiyyətinə boyun əymək yoxdur” deyən inad ordubadlılar bu xanları da Aşot kimi qəbul edəcəklər.

*Zadə*

## MƏTBUAT

Azərbaycan ilə Gürcüstan arasında əqd edilmiş [bağlanmış] olan hərbi-tədafüyi etilafnamə [hərbi müdafiə müqaviləsi] münasibətilə srağagünkü qəzetəmizdə erməni mətbuatının mütaliatından [fikirlərindən] bir nümunə göstərmişdik. Şimdi gürcü qəzetələrinin də mütaliəsini qareini-kirama [möhtərəm oxuculara] (bittər-cümə) [tərcümə edərək] təqdim ediriz.

Gürcü Milli-Demokrat firqəsi naşiri-əfkarı [yayın orqanı] olan “Klede” qəzetəsi Azərbaycan-Gürcüstan etilafnaməsinə “Gürcüstan və Asiya” sərlövhəli bir məqalə təxsis edərək [ayıraraq] yazır ki:

*“1919 sənəsi iyun ayının 16-da Tiflisdə gürcü və Azərbaycan hökumətləri arasında bir ittifaq əhdnaməsi əqd edilmişdir. Bu əqdnamə böyük bir siyasi milli qələbə idi.*

*Bizim menşevik pişrovlarımız [liderlərimiz] tamam bir il zərfində erməni və rus dairələrində nəticəsiz yalvarmalardan sonra ümidlərini qeyb edərək və Denikin təhlükəsindən iztiraba düşərək, nəhayətün-nəhayə [axırdan-axıra] üzlərini islam millətlərinə çevirərək, onlara dost əli uzatmışlardır.*

*Biz həmişə bu rəydə olmuşuz ki, Rusiya təhlükəsini başımızdan dəf və Gürcüstan istiqlaliyyətini müdafiə etmək üçün Gürcüstan mütləqa qonşu müsəlman məmləkətləri ilə əlaqeyi-dostanədə bulunaraq, onların imdadına sığınmalıdır. Biz əminiz ki, Gürcüstanın yeganə vəfalı dostu ancaq Azərbaycan, Dağıstan və Çeçenistan ola bilər.*

*Bizim asiyalılıq sabiqəmiz [keçmişimiz] nə qədər acı günlərimizi xatırlatsa belə, hər halda aydındır ki, bizim ata-babalarımız Gürcüstanın xırdaca çanağını uzun əsrlər müddətində həmişə müsəlman aləminin coşqun sularında gəzdirərək, nəhayət 19-cu əsrə yetirmişlərdir. Şimdi heç kəsdən gizli deyil ki, Gürcüstanın Şah Abbaslar, Ağa Məhəmməd şahlar əli ilə dağıdılması rus hökumətinin hiyləkar siyasəti nəticəsi idi. Rusiyaya lazım idi Gürcüstana hakim olsun. Ona görədir ki, rus hökuməti Moskofda, ya Tiflisdə gürcülərə kömək, imdad vəd edib inandırdığı halda, eyni zamanda Tehranda və İstanbulda provokasiya yolu ilə türkləri və iraniləri xain gürcülər əleyhinə qızdırırdı və hər tərəfdən müharibə alovu ilə əhatə edilmiş gürcülər rus qoşunları tərəfindən kömək gözlədiyi bir zamanda müharibənin ən qızğın dəqiqələrində rus qoşunları qəflətən gürcüləri güclü düşmənlərin qabağında yalnız buraxırlardı. Uzun müddət, bilaaram [aramsız] hərbdən gücsüz düşən Gürcüstan iki tərəfə dava edə bilməyib süqut etdi. Ruslar rahatcasına Gürcüstana daxil olub, burada da müsəlmanlar üzərinə hücum edib iraniləri də, türkləri də sıxışdırdılar. Ancaq indi Cahan müharibəsi əsnasında rus kazakları dalğası bütün Kiçik Asiya təriqi [yolu] ilə Beynənnəhreynə yaxlaşdıqda müsəlmanlar anladılar ki, babalarının müstəqil Gürcüstan əleyhinə işlədikləri siyasət nə qədər xəta imiş. Və Gürcüstan kimi hail [iki şey arasında pərdə, maneə təşkil edən] dövlətin yoxluğu onlar üçün nə qədər zərərli imiş.*

*Eyni zamanda gürcülərin özlərində də müəssif sabiqəni [təəssüflü keçmişi] unutmaq hissi oyanmış və rus boyunduruğundan qurtardıqda müsəlmanları yadlarına salmışlardır. Bunlar isə gürcüləri açıq ağuşla qarşılamışlardır.*

*Fəqət Rusiya inqilabı və rus bolşevikləri tərəfindən “Vahid Rusiya Cümhuriyyəti”, “Vahid Rusiya cəbhəsi” kimi cahangiranə [imperialist] şüarlı sosialist fırtınası gürcü sosial-demokratların köməyi ilə gürcüləri də bu tora saldı və işi öylə qarışdırdı ki, gürcülərin təbii dostları düşmən, düşmənləri isə dost göründülər. Avropalıların Gürcüstana vürudu [gəlməsi] bu işlərin həpsinə xitam çəkdi. Rus bolşevizmi tərəfindən zəhərlənmiş hava təmizləndi. Rus şüarları və rus bayraqları Gürcüstanın şimali sərhədindən o yana atıldılar və Gürcüstanın həqiqi dostları da, düşmənləri də zahir oldular [meydana çıxdılar].*

*İngilis siyasəti bizə göstərdi ki, gürcülər öz millət və milliyyətlərini müdafiə edərkən kimlərlə əl-ələ verməli imişlər. Bizdən də ziyadə hürriyyətpərvər müsəlmanlarla yaxın və sıxı əlaqədə bulunmaq, ittifaqa girişmək Gürcüstan üçün vacib oldu. Çünki böylə ittifaq sayəsində gürcülər xırda vətənimizi yer üzündən götürmək istəyən avropalılar intriqası ilə nifrət etdiyimiz slavyan cərəyanları müqabilinə möhkəm bir sədd çəkə bilərlər.*

*Bundan əlavə, tutduğumuz və boyun qaçıra bilmədiyimiz coğrafi mövqe dəxi bizi 300 milyonluq müsəlman aləmi ilə əlaqədar edir. Bunlarla bərabər, hal-hazırda uzaq Asiyadan gələn təhlükəni də biz nəzərə alır və onunla hesablaşırız. Hindistan, Əfqanıstan, Misir və İran möhkəmləşir, güclənir, mütəşəkkil bir hala gəlir və Paris Konfransı əli ilə parçalanmış, təxfif [zəiflədilmiş] və təhqir edilmiş olan Türkiyəyə kömək vəd edirlər.*

*Həyəcana gəlmiş, iztiraba düşmüş Asiya şimdi Avropaya meydan oxumağa hazırlanır. Bu cərəyanın bir qolu Qafqaziyaya sövq ediləcəkdir. O vaxt bolşevizm tərəfindən dağılmış Rusiya ilə uzun müharibədən iflasa gəlmiş Avropa bizə kömək edə biləcəklərmidir?*

*Bu səbəblərə görədir ki, gürcü milləti həmişə “Köhnə yolunu və köhnə dostunu itirmə” şüarını özlərinə rəhbər qərar vermişlərdir.*

*Gürcüstanın şimdiki hökuməti həman “köhnə dost və köhnə yoldan” uzaq gedə bilməzdi. Ona binaən [ona görə] də müşkül bir anda üzünü Asiyaya çevirərək, müsəlmanlar uzatdıqları əli tutdu. Bunu etdi və xəta işləmədi. Asiya və müsəlmanlar bir çox əsrlər müddətində Gürcüstanın mövcudiyyətini saxladılar. Amma xristian Avropa altı ay müddətində Gürcüstanın istiqlaliyyətinə təhəmmül etmək [dözmək] istəmədi.”*

## AÇIQ MƏKTUB

“Səadət” idarəsinə
Möhtərəm əfəndilər!

1911-ci ilin aprel ayının 16-cı günü Bakı sakini mərhum Hacı Səməd Məhərrəm oğlu Heydərov Bakı notariusu Qureviç idarəsində heyəti-idarəsinə mənsub olduğunuz möhtərəm cəmiyyətin vəkili Ağa Əliəsgər Dadaşov ilə bir sənəd imza etmişlər. Bu sənəd ilə məzkur [deyilən] tarixdən etibarən mərhum Hacı Səməd özünün 4-cü Polis dairəsində Nijni Naqornı küçədə, 59-cu kvartalda vaqe olan [yerləşən] 116 nömrəli evini ki, 2 mərtəbə və 201 mürəbbe sajın [kvadrat sajın] yerdir, məzkur cəmiyyətə iləlləbəd [həmişəlik] ianə etmişdir və bu mülkə olan bütün qanuni ixtiyarını da həman cəmiyyətə vermişdir. İndi mərhum Hacı Səmədin vərəsələri həman əmlakın guya mənim tərəfimdən qeyri-qanuni bir surətdə “Səadət” cəmiyyətinə verilməsini iddia və həman mülkün tərəfimdən

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 7 iyul (Bazar ertəsi günü) tarixli 218-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

məzkur vərəsələrə qaytarılmasını tələb edirlər. İş bu məqama çatmışdır ki, mənim bu mülkün "Səadət" cəmiyyəti əlində olduğunu və bunu mərhum Hacı Səməd öz xahişi ilə o cəmiyyətə 1911-ci ildə verdiyini və bu ianə surətində verilən mülkün qanuni bir sənədlə verildiyini isbat üçün göstərdiyim dəlil sənədlərə müarizlərim [qarşı tərəf] iktifa [kifayət] etməyib, hətta məni əgər bu işə bir əncam verməsəm, təhdid edirlər.

"Külli nəfsin zaiqətül-mövti" ayeyi-şərifəsi fəhvasınca [mənasına uyğun olaraq] cəmi məxələqüllah [Allahın yaratdığı hər şey] mövtü [ölümü] dərk edəcək. Lakin nahaq ölməyin də bir o qədər ləzzəti yoxdur.

Binaənileyh [ona görə], həqiqəti aşkar etmək üçün bu ianə işində mənim nə qədər əlim olduğunu elan etməyi cəmiyyət əzasından [üzvlərindən] rica edirəm.

Bəlkə mənə deyəcəklər ki, səni təhdid edirlərsə, hökumətə şaki ol [şikayət et]. Lakin mən, əvvəlcə ümum camaata şaki oluram və "Səadət" cəmiyyətinin bu barədə verdiyi cavab əlimdə olaraq lazimeyi-tədbiri görəcəyəm.

Hər halda "Səadət" cəmiyyəti vaxtında cavab verib tərəfi-müqabili sakit etməlidir.

*Ağaəli Əliyev*

### BAKI XƏBƏRLƏRİ

**Amerika və Bakı cövhəri**

Amerikanın "Standart Oyl Kompani" neft sindikatının nümayəndəsi mister Tomas 12 milyon pud cövhər [kerosin] almaq müahidəsi [müqaviləsi] bağlamaqdan ötrü Azərbaycan Hökuməti ilə müzakiratda bulunmaq üçün Bakıya varid olmuşdur [gəlmişdir]. Bu barədə əhdnamə Azərbaycan Hökumətinin nümayəndəsi Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri X[udadad] b[əy] Məlikaslanov ilə mister Tomas tərəfindən bağlanıb, iyun ayının 3-də imza edilmişdir. Müahidənamə mövcibincə [müqaviləyə əsasən], Azərbaycan Hökuməti 1920 sənəsinin 31 yanvarına kimi zeyldəki [aşağıdakı] qiymətlə 100 min ton (təxminən 6 milyon pud) cövhər hazır etməlidir:

İyul, avqust və sentyabr aylarında tonu 34 dollara; oktyabr və noyabr aylarında tonu 33 yarım dollara, dekabr və yanvarda da tonu 32 dollara.

Cövhər hökumət tərəfindən paroxoda təhvil veriləndən sonra pulu Azərbaycan Hökumətinin göstərdiyi yerdə NyuYork, Roma, London və yainki Parisin valyutası ilə veriləcəkdir. Verilən pullardan hər dəfə 10 faiz saxlanacaqdır ki, müahidənaməyə əməl olunmasa, Amerika sindikatının malı hesab olunur. Vaxt bitəndən sonra "Standart Oyl Kompani" 33 dollardan bir də 100 min ton cövhər almağa razıdır. Bu şərtlə, indiki müahidənaməyə əməl olunsun.

Və iyulun 15-dən etibarən cövhər trubalarla verilməyə başlanacaqdır.

**Mərkəzi Əxzi-Əsgər İdarəsi**

26 may qanunu mövcibincə [qanununa əsasən] Maliyyə Nəzarəti Mərkəzi Əxzi-Əsgər İdarəsinə öz nümayəndəsini göndərmişdir. Nümayəndə Kazyonnı Palata [Xəzinə Palatası] müdiri Y. F. Zire və ona namizəd Kazyonnı Palatanın birinci şöbəsi naçalniki L. K. Beze təyin olunmuşdur.

**Camaat işləri təşkili**

Bakı şəhər Bələdiyyə İdarəsi Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə müraciətən [Sosial Təminat Nazirliyinə müraciət edərək] bəyan eyləmişdir ki, hökumət tərəfindən faizsiz və uzun müddətlə borc verilməsi şərti ilə Bələdiyyə İdarəsi işsizlər üçün iş düzəltməyi təhti-qərara almışdır.

Birinci növbədə bu işlər görüləcəkdir:

1) Qəssabxanalara yol yapılması;

2) Şəhər küçələrinin təmiri;

3) Dəniz kənarlarında daş sədlər tikilməsi və lazım yerlərin dəniz sahilində doldurulması.

İkinci növbədə:

1) Verxni-Priyutski küçədəki məktəb imarətini itmam etmək [tamamlamaq];

2) Ağamusa Nağıyev namına [adına] olan xəstəxananı tikib qurtarmaq;

3) Sihhiyyə arabaları üçün bina tikmək.

**Müəllimlərin məvacibini artırmaq**

Maarif Nəzarəti Bakı Bələdiyyə İdarəsinə müraciətən rica etmişdir ki, müəllimlərin məvacibini artırmaq məsələsini Duma müzakirəsinə təqdim etsin. Zira kənd müəllimləri 1600 manat aldıqları halda, şəhər müəllimləri bu vaxta kimi 1075 manat almaqdadırlar.

**Ticarət və Sənaət İttifaqında**

Hökumət valyutasının kursu enmək münasibətilə Əhmədzadə Yusif əfəndinin sədarəti altında Bakı Ticarət və Sənaət [Sənaye] İttifaqının 27 iyunda ümumi iclası vaqe olmuşdur. Bonun qarşısını almaq üçün bu tədbirlər münasib görünmüşdür:

1) Hər növ malın azadəliklə çıxarılıb və gətirilməsi;

2) Müəyyən təminat ilə əsl pulları işlətməyə başlamaq;

3) Bon çap olunması dayandırılsın;

4) Hökumət məxaricinin ödənilməsi üçün daxili istiqraz kimi başqa yollar aransın.

Nəticədə Voyeykov tərəfindən təklif olunan böylə bir formula qəbul olunmuşdur:

"Mal mübadiləsi məsələsini ancaq azadə ticarət həll edə biləcəyini nəzərə alaraq, İttifaq lazım bilir ki, izin vermək qaydası hər növ mal olur-olsun gətirilmək və çıxarılmaq əleyhinə olan mümaniətlər rəf olunsun [manеələr aradan qaldırılsın]. Ancaq birinci zəruri şeylərə bəzi hüdud qoymaq mümkündür."

Son cümlədən başqa təklifi 7 səs əleyhinə 28 səslə qəbul etmişdir.

**Qradonaçalstvada**

Bakı Qradonaçalstva İdarəsi şəhərin xarici, təhərri [axtarış] və siyasi polis idarələrinin daireyi-fəaliyyətini müəyyən etmək üçün xüsusi bir layihə düzəltmək-lə məşğuldur. Layihə bu günlərdə mətbuatda təfsilatı ilə elan olunacaqdır.

**Qubernator idarəsində**

- Sudur kəndinin yüzbaşısı Qayıtmaz İsmayıl oğlu ilə Dostavər kəndinin yüzbaşısı Hakim Atlıxan oğlu və eyni qəryənin [kəndin] ağsaqqalları Rəşid Rəşid oğlu, Hacı Qədir Əsgər oğlu, Əli əfəndi Əlirza oğlu, Məsum Ustar oğlu və Yarəli Sultan oğlu qəsdən əsgərliyə düşən cavanları gizlətdikləri haqqında Mərkəzi Əxzi-Əsgər [Hərbi Çağırış] İdarəsi məlumat almış olduğundan, Bakı qubernatorunun əmri ilə zikr olunan şəxslər birər ay müddətinə həbs edilirlər.

- Konstantin Qriqoryeviç Tornikov icazəsiz silah gəzdirdiyindən, qubernatorun əmri ilə 200 manat cərimə olunmuşdur.

**Bolşeviklərin həbsi**

Cavad uyezdinin Qoltuq dairəsi qaraqolları tərəfindən 29 həziranda [iyunda] Lənkəran bolşeviklərinə köməyə gedən 11 nəfər rus həbs edilmişdir. Həbs olanlardan bir çox sənəd dəxi tapılmışdır.

**Birjada**

"Laj" [qiymət artımı] kursu bərkinməkdədir. Kerenski minliklər 1500 manata alınır. Xırdası ancaq 20 faizə işlənir. Təzə Nikolay yüzlüyü 350 manata, köhnələrlə maraqlanan yoxdur. Xırda Nikolay pullarının 100 manatı 220 manata gedir. Zaqafqaziya bonnası 4 %.

Valyutada bir dəyişiklik yoxdur. İranda manatın qiyməti artmaqdadır. Bu münasibətlə bon ilə 1000 manata 70-75 qran verirlər. Kerenski minliklər 145-150 qrana alınır. 250-lik 115 qrana, xırdalar 80-82 qrana, böyük Nikolay pulları 340-360 qrana, xırdalar 150-200 qrana, qızıl Osmanlı lirəsi 34-35 qrana.

Satıcılar: Şəkər (pesokun) qiyməti düşməkdə davam edir, pudu indi 750 manatadır.

**Rostova birinci posta qatarı**

İyulun 4-də saat 2-də Rostova Bakıdan birinci dəfə posta qatarı hərəkət etmişdir. Qatar Dərbənddə durub o vaxta kimi gəlmiş olan 3 nömrəli qatarla dəyişəcəkdir. O isə Dərbənddən Rostova kimi durmaqsızın hərəkət edəcəkdir.

### BAKIDA YAŞAYAN LƏNKƏRANLILARIN ÜMUMİ İCLASI

İclas iyul ayının 4-də Birinci Realnı məktəbin salonunda vaqe olub, sədrliyə Ağa xan Talışxanlı, katibliyə Xudaverdi Kələntərli intixab olunurlar [seçilirlər].

Sədr Lənkəran haqqında müfəssəl məlumat verərək şəhərin hazırdakı vəziyyətini təsvirlə deyir ki:

– Mən əvvəldə Lənkəran bolşeviklərini həqiqi bolşevik bilib, onları doğruçu füqərayi-kasıbə tərəfdarıədd [hesab] edirdim. Fəqət böylə deyilmiş. Onlar həmişə öz mənfəətlərini nəzərə alıb islamiyyət əleyhində olaraq, daima bizlərin ziddinə çalışmaqdadırlar. Binaənileyh [ona görə], onların maska altında işləmələri aşkar olduqda, bizlər də Bakıdakı islam qardaşlarımızla birləşmək arzusu ilə kəndimizi Azərbaycana ilhaq etmək [birləşdirmək] fikrinə düşdüksə də, fəqət müvəffəqiyyət qazana bilmədik. Zira, bolşeviklər bizlərə mane olub, bizləri təhdid və təqib etməyə başladılar. Onlar bolşevizma tərəfdarı deyil, bəlkə Denikin tərəfdarlarıdırlar ki, onun oraya gəlməsini dördgözlə gözləyirlər. Əgər böylə olmasaydı, bizlərin hüququna bunca təcavüzlə, bizləri fərara məcbur etməzdilər. Şimdi, bizim buraya toplaşmağımızdan məqsəd bir heyət intixab etməkdir ki, həmin heyət o təhlükə içərisində atəş daxilində qalmış vətənimizi vərteyi-fəlakətdən [fəlakət girdabından] azad etmək uğrunda hökumət dairələrində təşəbbüsatda bulunsun. Mən Parlamanda Lənkəran vəkili olan [Axundzadə] Hacı Səlim cənablarından rica edərdim ki, hökumət qarşısında Lənkəran haqqında nə kimi təşəbbüsat göstərmişdir, bizlərə izahat versinlər.

Hacı Məhəmməd Qurbanzadə Lənkəran övzasını [vəziyyətini] təsvir edərək deyir ki:

– Bu saat bizə tövzihat [izahat, açıqlama] lazım deyildir. Vətənimiz atəş içərisində yanmaqdadır. Biz başqa söhbətləri bir kənara atıb, ancaq təcili surətdə vətənimizin təxlisi [xilası] haqqında tədabir ittixaz etməliyik [tədbirlər görməliyik].

[Axundzadə] Hacı Molla Səlim fövqəlzikr [yuxarıda adı çəkilən] natiqlərə cavab olaraq deyir ki:

– Həzərat! Məqam mühüm olduğundan, mən də müfəssəl izahatı münasibhal bilməyirəm. Fəqət məlumunuz olsun ki, mən Lənkəran haqqında bir an olsa da qəflət etməyib, lazımi təşəbbüsatda bulunmuşam. Hökumətimiz də bizlərə yardım etməkdən imtina etməyib hər vasitə ilə çalışır.

Xudaverdi Kələntərli hökumətin vəd etdiyi zamanı gözləməyib, lazımi hökumət dairələrində təşəbbüsatda bulunub, hökumətin təcili binagüzarlığını [sərəncamını] istəməyi haziruna [orada olanlara] təklif edib deyir ki:

– Biz vaxt gözləməyə başlasaq, o zaman düşmən fürsətdən istifadə edib qüvvələnəcəkdir. Bizə lazımdır ki, o meydani-mübarizədə vuruşan müsəlman qardaşlarımıza təcili kömək göndərək. Zira, onlar bizlərdən imdad bəkləyirlər. Camaat talandı, irz-namus əldən getdi. Bununla belə, hələ də bizləri gözləməyə məcbur edirlər. Həzərat, biliniz ki, gözləmək vaxtı keçdi! Bu gün vətənini sevən qeyrətli kişilərimiz, cavanlarımız əlinə silah alıb vətən imdadına getməlidirlər.

Əli bəy Bəylərbəyli deyir ki:

– Burada əsgərlikdən danışıldı, məlum olsun ki, biz cavanlar vətənimizi zalım xunxarlar [qaniçənlər] əlindən azad etməyə hazırız və heç bir vaxt da əsgərlikdən zərrəcə xof etməyiriz. Yenə də deyirəm ki, bizim hamımız başımızla, canımızla öz hüququmuzu, irz-namusumuzu, heysiyyətimizi müdafiə etməyə hazırız.

Axund Yusif əfəndi təklif edir ki, hökumətlə rabitə, əsgəri təşkilatı, müxabirat [xəbərləşmə] işləri dəxi həmin heyətə vagüzar olunsun [tapşırılsın]. İşbu təklif filməclis [məclisdə] qəbul olunduqda heyət üç komisyona təqsim olunur [bölünür].

Hökumətlə rabitə komisyonuna:

1) Teymur bəy Bayraməlibəyli;

2) Xanoğlan Talışinski;

3) Hacı Məhəmməd Qurbanzadə;

4) Baxış bəy [Rüstəmbəyov].

Təşkilat komisyonuna:

1) Əli bəy Bəylərbəyov;

2) İsgəndər xan Talışxanov;

3) Kərim Kərimov;

4) Əli Əsədullayev;

5) Rza Şabanov.

Müxabirat komisyonunun intixabı [seçkisi] fövqəlzikr əşxasa mühəvvəl olunur [yuxarıda adı çəkilən şəxslərə tapşırılır].

Bədəhu [sonra] könüllülər qeyd olunduqda filməclis 35 adam özünü könüllü yazdırır. Şayani-qeyd [qeyd edilməyə layiq] burasıdır ki, könüllü yazılanlar cümləsində Parlaman əzasından [üzvlərindən] 60 yaşında müəllimlər kimi, bir çoxları var ki, əsgərlik nə yaşına yaraşar, nə də mən-səbinə.

*Müəllim*

### TƏLƏBƏLƏR İCLASI

İyulun 5-də Məclisi-Məbusan salonunda Məsai [Əmək] naziri Aslan bəy Səfikürdlü həzrətlərinin təşəbbüsatı ilə Bakıda yaşayan ümum türk tələbələrinin iclası iniqad etmişdi [baş tutmuşdu]. İclasda 100-dən ziyadə türk tələbəsi iştirak edirdi ki, işbu hal birinci dəfə görülürdü.

Nazir həzrətləri məclisi açaraq Bakıda güşad olacaq darülfünun [açılacaq universitet] barəsində məlumat verərək, bu darülfünunun türk tələbələrindən ötrü xüsusən, bütün Azərbaycandan ötrü filcümlə [ümumiyyətlə] mənfəətsiz bir şey olduğunu aydın dəlillərlə sübut edərək, bütün türk tələbələrinin müvəqqəti olaraq Avropaya gedib təhsil etmələrinin xeyirli olduğunu qeyd etdilər:

*Hökumətin qətnaməsinə görə, Azərbaycan paytaxtı Bakıda bir Azərbaycan Darülfünunu açılmalıdır. Bundan ötrü smeta hazırlanıb, bir sənəlik 10 milyon məxaric göstərilmişdir. Xüsusi komisyon təşkil edilmişdir ki, darülfünun layihəsi tərtiblə məşğuldur. Aldığımız məlumati-mövsuqəyə [etibarlı məlumata] görə iki şöbə açılacaqmış: Biri Tibbi, digəri Tarix və Ədəbiyyat şöbəsi.*

*Tibbi şöbəsinə elmi cəhətindən, təbii ki, bir söz deniləməz. Fəqət yenə bir çox tərəfləri mövcuddur ki, Azərbaycan-türk tələbələrini kifayətləndirməyəcəkdir. Layiqli professorların yoxluğu, lazımi vəsaitin əldə edilə bilməyəcəyi və qeyrə.*

*Tarix və Ədəbiyyat şöbəsinə gəldikdə, burası qayət gülünc, hətta bir dərəcə acınacaq bir məsələdir.*

*Əcəba, bu şöbə türk tələbələri üçünmü? Əlbəttə, xayır. Zira, böylə olacaq olardısa, o vaxt Türkiyə, Misir və yaxud başqa yerlərdən türk professorları dəvət edilməli idi. Halbuki, böylə deyildir. Burada rus professorları rusca tarix və ədəbiyyata dair mühazirələr oxuyacaqlarmış. Deməli, yenə əski hamam, əski tas. Biz yenidən rus məktəbinə dönürüz.*

*Hal-hazırda bütün Azərbaycan daxilindəki məktəblər millіləşdirilmək üzrədir. Gələcək tədrisat sənəsindən etibarən Realnı məktəbinin 3-cü şöbələri də milliləşdirilir. Dörd sənədən sonra bu məktəblərdən türkcə təhsil etmiş tələbələr buraxılacaqdır. Həman güşadı ehtimal edilən [açılması nəzərdə tutulan] darülfünuna daxil olmaq üçün bu tələbələr yenidən rus lisanını öyrənməli, darülfünuna daxil olub rusca təhsil etməli imişlər. Doğrudan da gülünc bir vəziyyət!*

*Gürcüstanda darülfünun açılmışdır. Ermənistanda darülfünun güşad edilir. Fəqət Gürcüstanda gürcü darülfünunu, Ermənistanda isə Ermənistan darülfünunu açılır. Azərbaycanda isə rus darül-fünunu?!*

*Ərəblərdə bir məsəl vardır: Bir adamı tanımaq istəsən, onun dostunu dinlə.*

*İştə, bizdə bizim "darülfünunumuzun" dostları kimdir? "Yedinaya Rossiya" və xalqının ayılması haqqında paytaxtımızda hər iki gündə bir dəfə leksiya oxuyan "cənablar".*

*Digər cəhətdən, bütün Azərbaycan daxilində, hal-hazırda 300-dən ziyadə türk tələbəsi yoxdur. Bunlardan Tibbi şöbəsinə ən artığı 25 tələbə gedə bilər. 275 nəfəri isə yenə kənarda qalacaqdırlar. Zira, Tarix və Ədəbiyyat şöbəsinə daxil olammazlar.*

*Böylə olduqda, millətin 10 milyonluq bir məbləği nərəyə sərf olunacaq əcəba?!*

*Halbuki, 10 milyonun 4-də 3 hissəsi sərf edilərsə, bütün tələbələrimiz Avropada bir sənə təhsil edəcəklərdir. Avropa təhsilindən alına biləcək mənfəət nə qədər az olsa belə, buradakı "darülfünun" təhsilindən dəfələrlə artıq olacaqdır.*

*Avropa təhsilinin başqa-başqa siyasi əhəmiyyətləri vardır. Məsələn, bu vaxtadək Qafqaziyanın fəqət [sadəcə] bir erməni ölkəsi olduğunu bilən Avropaya azərbaycanlı türklərin vücudunu da canlı sübutlarla göstərmək və bu kimi çox məsələlər... Heç olmasa, Avropadan qayıdan tələbələr bir lisan öyrənə biləcəklərdir. Ən başlıca ehtiyaclarımızdan biridir.*

*Söz yox, mədəni bir ölkənin darülfünunu olmalıdır. Fəqət, öz darülfünunu olmalıdır, halbuki, buradakı çolaq "darülfünun" bizimki deyildir.*

*Hərgah həqiqətən, bizə Tarix-Ədəbiyyat şöbəsi lazımdır, Türkiyədə başqa professorlar olmasa belə, tarix və ədəbiyyatçılar qayət çoxdur. Belə ki, böylə şöbə açılarsa, ona kifayət edə biləcəkdir.*

İclasda nazir həzrətlərinin nitqindən sonra Qazıbəyov sədr, Hənəfi Zeynallı katibliyə intixab edilərək məsələnin müzakirəsinə başlanıldı.

Tələbə natiqlər bir ağızdan bu "darülfünun"un türk tələbələri deyil, başqaları üçün güşadını qeydlə, Avropa mənafeyini təsvir edirdilər. Tələbələrdən Əli Yusifzadə yoldaşımızın, "Doğrudur, vətənin öylə halı olur ki, bütün işləri buraxıb siperlərə girmək icab edir. Fəqət, yoldaşlar, bu gün Avropadan möhkəm siperlər, Avropa darülfünunundan itminanlı [etibarlı] tranşeyalar [səngərlər] olammaz" deməsi ümum tələbələr tərəfindən təsvib [bəyənilir] və təqdir edilirdi.

Natiqlərdən sonra, ümumiyyətlə Məsai naziri həzrətlərinə təşəkkür bəyanı ilə Məclisi-Məbusan və Hökumət nəzdində Bakı Darülfünununun müvəqqəti olaraq güşadını təxirlə, türk tələbələrinin Avropaya göndərilmələri haqqında ciddi iqdamatda bulunmağa [addımlar atmağa] dair təşəbbüsat üçün Tələbələr Komitəsinə düsturüləməllər [təlimatlar] verildi.

*Ayn. Ayn.*

İdarədən: Darülfünun tələbələrinin buyurduqları kimi, "Azərbaycan Darülfünunu" olmaq üzrə Türkiyə, Misir, ya başqa məmləkətlərdən dəvət olunmuş professorların idarəsi ilə açılsaydı, tələbələrimiz onların dilini başa düşəcəklərmiydi? Yaxud o vaxt da "Bu türk, ya Misir darülfünunudur" deyə yenə Avropanı arzu etməyəcəklərmiydi? Bizcə, tələbələr məsələni bir qədər geniş ölçüdə götürüb nəzəri-tənqiddən keçirsəydilər, bəlkə başqa bir qərara gələrdilər.

### AZƏRBAYCANDA

**Gəncədən**

- Gəncə qəzasının ən narahat hissələrindən birisi indiyə qədər 3-cü uçastok idi.

Burada əski və yeni bir çox qaçaq dəstələri meydana gəlmişdir. Bunların başçıları Qatır Məmməd, Məşhədi Göyüş, Sarı Hüseyn, Rüstəm, Məşhədi Kərim uşağı, məşhur Tat oğlu Həsən quldur olub qaçana qədər hökumətin əlinə-ayağına dolaşmayırlardı. Ancaq son zamanlarda Həsənin ifsadı [fitnə-fəsad salması] ilə bunlar biri-biri ilə görüşüb hökumətə qarşı çıxışlarda bulunub, əhalinin rahatını pozurlardı.

Bu yaxınlarda fərari bir əsgər üçün həman yerə gedən bir zabiti onlar şəhid etdilər. Mərhum Vəkilovdan sonra hökumətin qəti bir tədbirini görməyən qaçaqlar daha da şımardılar [quduruldular]. Başçılarının təhriki ilə onu-bunu öldürməyə qərar qoydular. Vurulan şəxslərdən birisi də Quşbaz oğlu Hacı Həsən oldu. Hökumət bu məsələni sülhən həll etmək istədikcə, onlar ayaqlarını yuxarıkı nərdivana qoyub hökumətlə istehza etməyə qalxışdılar.

Buranın köylərindən Şadılı, Borsunlu və sairə xalqı qaçaqlara hər dürlü müavinətdə bulunduqları halda, hökumətə də şikayətlərdə bulunurlar. Buna binaən [buna görə], Gəncə valisi [Xudadad bəy] Rəfibəylinin əmri ilə qaçaqların üzərinə ramazan axırlarında əsgəri cəza dəstəsi göndərildi. Əsgər onların üzərinə getdiyi vaxt arxada qalan ağırlıq dəstəsinə hücum edib beş əsgəri əsir götürdülər. Bunun üzərinə iş ciddi bir şəklə girdi. Əsgəri dəstə bunları qovub Şadılı köyünə qədər götürdü. Orada bunlar 100-ü mütəcaviz [100-dən artıq] qüvvətlərlə əsgərlə müsadiməyə [toqquşmaya] başlayırlarsa da, müqavimət edəmməyib, köyü boşaldıb dağa çıxırlar. Böyləliklə, Şadılı köyü ağırca bir cəzaya uğrayıb, quldurlardan 10-a qədər kişi ölüb yaralanır. Böyləcə həman köylər bir müddət daha əsgərləri saxlamağa məhkumdurlar. Hökumətin bu qəti tədbiri bütün vilayətin nadinclərinə təsir yapmışdır.

Aldığım məlumata görə, bu işlərdə "şəriət istəriz"lərin də barmağı vardır. Bunlardan iki başçıları hələlik müttəhimdirlər. Böylə zatlardan Borsunlu Hacı Həsəndən əsgəri şeylər tələb edilməkdədir. Hökumətin bu işi gözəlcə təhqiq edib, nəticəsini əfkari-ümumiyyəyə [ictimaiyyətə] məlum edəcəyini bəkləyiriz.

Tat oğlu Həsənin Gəncədə bulunan əmlakının zəbt ediləcəyini xəbər aldıq. Yerində işlənən bu tədbir pək haqlı olduğundan, kimsənin deyəcəyi yoxdur. İstiqlalımıza toxunan hər bir təşəbbüs böylə cansız buraxılmalıdır.

* * *

- Bu gün, təmmuzun [iyulun] ikisində Gəncə qəza Maarif Müfəttişliyi tərəfindən müəllimlərə məxsus iki aylıq kurslar açıldı. Güşad [açılış] mərasimində Parlaman rəisi doktor [Həsən bəy] Ağayev, Parlaman üzvü [Arşak] Malxazov, sabiq şeyxülislam [Axund Məhəmməd] Pişnamazzadə həzrətləri ilə sair firqə və ittifaqların nümayəndələri isbati-vücud [iştirak] etdilər.

Şeyxülislam əfəndinin duasından sonra Parlaman rəisi, Malxazov, Mirzə Abbas Abbaszadə, Müəllimlər İttifaqının nümayəndəsi [Mirzə Cəfər] Əsgərzadə tərəflərindən təbrik nitqləri söyləndi.

Bu nitqlərdən sonra Sənətkarlar İttifaqı sədri Məşhədi Yusif [Qazıxanov] söylədi. Maarif müfəttişi bunların həpsinə cavab verməklə "xoş gəldiniz" söylədi. Kursa davam edəcək müəllimlər tərəfindən Maarif Nəzarətinə teleqraf çəkildi.

Hər kəsdə olan şövq və həvəs insana dadlı bir təsir verirdi. 3 təmmuzdan etibarən dərslərə şüru ediləcəyini [başlanacağını] xəbər aldıq.

* * *

- Keçən il mayısın sonlarında Gəncədə ermənilər tərəfindən səkkiz Osmanlı əsgəri şəhid edilmişdi. Gəncə xalqı bu şəhidləri böyük camenin önündəki Xalq bağında dəfn etdi və o zamandan camaat arasında bunların üzərində bir nişangah yapmağa təşəbbüs edilməsi üçün müzakirələr oldusa da, indiyə qədər bir nəticə əldə edilmədi. Ancaq bu günlərdə Gəncə Sənətkarlar İttifaqı bu xeyirli işə ciddi bir surətdə girişib, Gəncədə bulunan bütün siyasi cəmiyyətlərin və ittifaqların iştirakı ilə bir iclas dəvət etdi. Məsələ müzakirə edilib, həman işə başlanılması təhti-qərara alındı. Bunun üçün yeddi kişidən ibarət bir komisyon seçildi: "Müsavat"dan Əsgərzadə Mirzə Cəfər, Müəllimlər İttifaqından Mirzə Abbas [Abbaszadə], "İttihad"dan doktor Ağalar bəy Səfikürdlü, Cəmiyyəti-Xeyriyyə tərəfindən Hacı Ələkbər Hacızadə, sənətkarlardan Heydərzadə, sosialistlərdən İsrafil Atakişiyev, bələdiyyədən Ələsgər bəy Xasməhəmmədov. Və həman gündən etibarən Komisyon işə başlamışdır. Gəncə Sənətkarlar İttifaqının bu xeyirli təşəbbüsünü ürəkdən alqışlayıb, müvəffəqiyyət arzu eyləriz.

**Salyandan**

- Məlum olduğu vəch üzrə, Salyan müəllimləri tərəfindən "Salyan və Ətraf Müəllimlər İttifaqı" namında bir ittifaq vücuda gətirilmişdir. Bu ittifaqın hələlik məqsədi Salyan soqaqlarında [küçələrində] səfil gəzərək müəssif [təəssüflü, acınacaqlı] bir həyat daxilində imrari-həyat eyləyən [ömür sürən] islam-türk çocuqlarını bir yerə toplayaraq tərbiyə etməkdir.

İşbu təmmuz ayının 1-də, klub salonunda həvəskarlar iştirakı ilə İttifaqın nəfinə [xeyrinə] olmaq üzrə M[ahmud] Mahmudovun 4 pərdədən ibarət "Xəyanətkar" nam [adlı] faciəsi və [Mirmahmud] Kazımovskinin bir pərdəli "Nə qanır, nə qandırır" adlı məzhəkəsi mövqeyi-tamaşaya qonuldu. O gecə salonumuz tamaşaçılarla xıncaxınc [ağzınacan] dolmuşdu.

Pərdə açıldıqda "Bu vətən əcdadımızın yatacaq yeridir" şərqisi oxunub, sonra Azərbaycan istiqlaliyyəti və onun əsbabi-təşəkkülü bablarında [yaradılması səbəbləri haqqında] və şimdiki hakimiyyət və istiqlaliyyətimizi yalnız məktəb və maariflə mühafizə edə biləcəyimiz, maarifi olmayan bir millətin ölümə məhkum olacağı xüsuslarında bir nitq irad edilmişdir. Bədəhu [sonra], cavan müəllimlərimizdən Əliağa Zeynalov əfəndinin skripka çalması ilə səhnədə "Azərbaycan şərqisi" oxundu. Şərqi bitdikdə sürəkli alqışlarla qarşılandı.

Hasilati-ümumiyyə [ümumi gəlir] 3925 manat 50 qəpik, məsarifat [xərclər] 1127 manat, xalis varidat 2798 manat olmuşdur.

- Məlum olduğu üzrə Lənkəran və ətrafında bolşeviklərlə muğanlıların müharibəsi getdiyindən, istər müslüm [müsəlman], istər qeyri-müslüm hər gün Salyana qaçqınlardır ki gəlir. Qeyri-müslüm qaçqınların ifadatlarına nəzərən [ifadələrinə görə], onlar bolşeviklərdən qaçırmışlar. Ancaq qaçqınlar miyanında [arasında] heç bir nəfər də olsun qadın yoxdur. Bu xüsuslarda məlumati-mövsuqəyə hənuz dəstrəs olmadığımızdan [etibarlı məlumat hələlik əlimizdə olmadığından], bu babda gələcək nömrələrdə.

- Bu günlərdə həmiyyətpərvəranımızdan Kərbəlayı Rəşid Kərimov cənabları Salyanda bulunan füqəranı, acları kəndi xanəsinə dəvət edərək, külliyyətli surətdə xərclərlə böyük ehsanat vermişdir. Bundan əlavə, ilin şimdiki ağır bir mövsümündə bir çox fəqir külfətlərin para cəhətindən həyatlarını təmin etdiyindən, mumaileyh [haqqında danışılan] Kərimov cənablarına ərzi-təşəkkür edirəm.

*[Rüstəm] İskəndərzadə*

### BİZƏ YAZIRLAR

**Aşqabadda Azərbaycan səfarəti**

Sevgili vətənimiz Azərbaycan istiqlaliyyət elan etdikdən sonra, şübhəsiz Mavərayi-Bəhri-Xəzərdə [Zakaspiyskdə] səfarətimiz vacibat qəbilindən ədd [hesab] olunurdu. Fəqət təyin olan səfir hökumətimizin heysiyyəti-şanını və millətimizin hüququnu gərəksə siyasətcə, gərəksə ticarət və sair nöqteyi-nəzərdən nə dərəcə müdafiə edəcək və xüsusən bu cənabın kim olacağı əhli-təfəkkürü [düşüncəli adamları] düşündürürdü.

Odur ki, may ayında möhtərəm "Azərbaycan" qəzetəsində cənab Əkbər ağa Sadıqovun buraya konsul təyin olunduğunu oxuduqda, bu cənabın gəlməyini Azərbaycan vətəndaşları dördgözlə gözləyirdilər.

Lakin hənuz konsulumuz buraya varid olmamış [gəlib çatmamış], bolşeviklər Kaspi Hökumətinin əsgərlərinə müvəqqəti qələbə edib, Bayraməli stansiyasından Qəhqəhə mövqifinə [stansiyasına] qədər geri oturmağa məcbur etdilər ki, bu da 100 verstə kimi bir məsafədir. Övzayi-hərb [hərbi vəziyyət] böylə olduqda, yerli hökumət ümumi səfərbərlik elan edib Azərbaycan vətəndaşlarımızı da, "rus təbəəsi" cümləsindən hesabla qəti surətdə əsgərliyə təklif və imtina edənlərə böyük cəzalar hökm etdi. Odur ki, həmvətənlərimizə böyük yəs [hüzün], kədər və pərişanlıq üz verdi. Çünki gözəlcə surətdə bilirdilər, laəlac [əlacsız], bunlar "rus təbəəsi" sifəti ilə bolşeviklərin müqabilinə müharibəyə getməlidirlər. Odur ki, kimi Məşhəd, kimi Kürdüstana və kimisi Məhəmmədabada getmək, doğrusu fərar etmək əzmində sabit oldular və çoxları da getdilər. Fəqət neçə min candan ibarət camaatın qaçqın olub, əhl-əyalı ilə əcnəbi yerlərə getmələri, yaxud pənah gətirmələri asandırmı?

İş böyləykən, Cənabi-Haqqa şükürlər olsun ki, konsulumuz varid olub da, bi-latəxir [dərhal] Kaspi Hökuməti ilə məsələni həll etdi. Böylə ki, varid olduqdan üç gün sonra camaatı məscidə ehzar edib [çağırıb], Azərbaycan türkünə yaraşan fəsih [səlis] nitqindən sonra, yerli hökumətin qərardadını və yəni Azərbaycan vətəndaşlarının əsgərliyə alına bilməyəcəyini, nəinki əsgərliyə, bəlkə cəbri zəhməti [məcburi iş] deyilən bir para xidmətlərdən azad etdiyini buyurdular.

Bu xəbəri eşidən vətəndaşlarımızın əksəri dəhşətli girdabdan sahili-nicata çıxmışlar kimi, röya kimi zənn edirdilər. Məsciddə yerli ruhani milliyyətimizə, əsgərlərimizə, Parlaman və hökumətimizə duaxan [duaçı] olduqdan sonra, konsul cənabları həman gündən istirahətsiz camaata pasport verməyə şüru etdilər [başladı]. Odur ki, səfarətin müqabilində [səfirliyin qabağında] Teymurlardan yadigar qalmış və aylı-ulduzlu bayrağımız sayəsində [kölgəsində] "Yaşasın Azərbaycan!", "Yaşasın Parlaman!", "Yaşasın konsulumuz!" sədaları asimana bülənd olurdu [göyə ucalırdı].

Həman gündən cənab konsul Krasnovodska agent təyin edərək orada vətəndaşlarımızı müdafiə etməkdədir. Sonra camaatın əksəri Firuzədə olduğuna görə, cənab konsul Firuzəyə təşrif aparıb camaatı xatircəm etdikdən sonra Aşqabada qayıtdılar.

Fəqət yerli hökumət konsulumuzun ermənilər barəsində etdiyi tələbatına bir növ təxirlə cavab verdilərsə də, axırda o məsələ də nümayəndələrimizin istədiyi kimi həll olundu. Böylə ki, yerli hökumət Azərbaycan vətəndaşlarını fəqət müsəlmanlardan məhsub [hesab] edib, əsgərlikdən azad edirdisə də, lakin erməniləri "Rusiyanın sadiq oğlanları" deyib də azad etmək istəməyirdi. Odur ki, arada münazię [mübahisə] var idi. Bərəkət versin ki, iyun ayının 19-da Xariciyyə naziri konsulumuzun hüzuruna gəlib, cümlə Azərbaycan vətəndaşlarını, bilafərqi-məzhəb, din [din və məzhəb fərqi qoymadan] azad etdiklərini səfarətə bəyan etdi.

İştə, böylə tez bir vaxtda cavan konsulumuzun nəhayət ciddi fəaliyyətinə canu-dildən təhsinxan olaraq [afərin deyərək], gələcəkdə Azərbaycan vətəndaşlarımız talelərini möhtərəm konsulumuzun yədi-ixtiyarına [əlinə, ixtiyarına] kamali-asudəliklə verə bilərlər.

*Şəhri-Aşqabad, 23 iyun 1919*
*Əmrah oğlu Cəlil*

### GÜRCÜSTANDA

**Gürcüstan Məclisi-Əyanı**

Gürcüstanda Məclisi-Əyan [Senat] açılması üçün Ədliyyə naziri tərəfindən hazırlanan qanun layihəsi Gürcüstan Məclisi-Müəssisanına [Təsisçilər Məclisinə] daxil edilmişdir. Məclisi-Müəssisan komissiyası layihəyə baxmağa başlamışdır.

**Birja açılması**

Gürcüstan Maliyyə nazirinin sədarəti ilə vaqe olan şura[da] Tiflisdə birja açılması məsələsinə baxılmışdır. Bir para üzvlər ticarət birjası açılması təklifini etmişlərdir. Qərar qoyulmuşdur ki, Ticarət Palatasının rəyi xəbər alınsın. O vaxta qədər də bu məsələ təxirə salınmışdır. Bu birjadan məqsəd ticarət işlərini əcnəbi və məhəlli [yerli] valyuta ilə yoluna salmaqdır.

### ERMƏNİSTANDA

**Naxçıvan qəzasının halı**

"Joxovrdi" qəzetəsi Naxçıvan və qəzası xüsusunda Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] verilən məlumat əsası ilə yazır ki, Naxçıvan qəzasında məişət və halət gün-gündən fənalaşır. Səbəbi bir tərəfdən 120 minə qədər qaçqınların oraya toplaşması, digər tərəfdən də Zaqafqaz pulunun qiymətindən düşməsidir. Axır vaxtlarda həman pulun manatı 28 və 30 qəpiyə gedir. Böylə ki, Nikolay pulu bir manata almağı mümkün olan şey Zaqafqaz puluna 3 manat yarıma alınır. O cəhətə məkulatın [ərzağın] qiyməti həddən ziyadə artmışdır. Məsələn, çörəyin girvənkəsi 10 manat, penir [pendir] 15 manat, qoyun əti 20 manat, ilaxır. Çox ittifaq düşür ki, bunları götürməkdən bilmərrə imtina edib, apaçıq Nikolay pulu tələb edirlər. Bu isə xidmətçiləri və ac qaçqınları aşkar boykot eyləməkdir. Bu[na] sübut odur ki, bir manat[a] satılan şey qaçqına və qulluqçuya 50-100 qat artıq satılır.

Naxçıvan dairəsində bu il toplanmış taxıl xeyli boldur. Ermənilər o yerləri istila edən vaxtadək taxılın əksəri İrana göndərilməyə baxmayaraq, burada genə o qədər qalmışdır ki, nəinki məhəlli ehtiyacata [yerli ehtiyaclara], hətta Ermənistanın qeyri yerlərinin də ehtiyacatına kifayət edə bilər. Məkulatı almaq olar Şərurda, Şahtaxtıda və Naxçıvanda. Amma sırf Nikolay puluna.

Əkinlərdən bu il yaxşı məhsul gözlənir. Aranzəmin yerlərdə müsəlmanlar ermənilərin deməli bütün zəmilərini əkiblər. Bir həftəyədək arpa biçini başlanar, iki həftəyədək isə buğda biçilər. Ermənilərin yerlərini əkən müsəlmanlarla torpaq sahiblərinin arasında məhsulu təqsim etmək [bölmək] növbəti əhəmiyyətli bir məsələdir. Bu məsələ, hökumətin bilatəxir [təcili] qərardadını tələb edir.

İşin təxirə salınması arzu edilməyən nəticələr verə bilər. Onsuz da, bir neçə yerlərdə ixtilaf əsərləri müşahidə olunmaqdadır. Böylə ki, ermənilər tərəfindən məhsulun tamamisini almaqdan qorxub müsəlmanlar indidən başlayıblar zəmiləri otarıb tərk eyləməyə. Hərçənd, uyezdin dağbasarından doğru xəbərlər yoxdur, amma genə məlumdur orada da erməni yerlərinin 50 faizini müsəlmanlar əkiblər. Taxılın çoxluğuna və biçinin yaxınlaşmağına baxmayaraq, buğdanın pudu satılır 130 manata. Arpa və darı 100- 110 manata. Buna müvafiq də qeyri məkulatın məzənnəsi yüksəkdir. Yağ 80 manat, qoyun əti 80 manat və qeyrə. Tamamisi də Nikolay puluna. Bircə neftin qiyməti çox düşübdür. O cəhətə ki, dəmiryol və dəvələrlə İrəvandan kifayət qədərdə neft gətirilmişdir. Cövhərin [kerosinin] pudu xırda-xırda satılır 200-240 manata. Ondan əlavə, neftin ucuzlaşmasına səbəb odur ki, əhalinin əksəri istilər düşəndən bağlarda və çöllərdə yaşayıb artıq işığa ehtiyac görməyirlər. Duz məsələsi təbəddülatsız [dəyişməz] qalır. Erməni qoşunu o yerləri işğal edənədək məhəlli [yerli] müsəlmanları Canpoladyanın şəhər anbarından 200 min pud, mədəndən isə 300 min pud duz oğurlamışlar. Anbarlarda qalıb ancaq 8 min pud qədər duz, o da torpağa qarışıbdır.


**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*10239*

**Bəhri-Xəzər dənizində passajir**
**və yük gəmilərinin yola düşmələri**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər GəzMəşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Petrovsk*

15, 26 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

T-164

**Diş həkimi**
**E. S. Karşteynbaumun**

Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır. Ünvan: Sisyanovski, nömrə 41, Çadrovının küncündə. Telefon nömrə 22-08. Qəbul edir: 8-dən 1-ədək; 5-dən 7-ədək.

İyul ayının 1-dən naxoşları Buzovnada Zərbəli Şeyxəli oğlunun bağında qəbul edir.

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**"Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyuba-şevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*10244*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri, sifilis və daxili naxoşluqlarını qəbul edir. 606 və 914 müalicə. Naxoşları hər gün qəbul edir səhər saat 7-dən 8-ədək, axşam saat 6-dan 8-ədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə. Telefon nömrə 32-56.

*10237*

Ümuri-Xeyriyyə Nəzarətinin Qarabağ nahiyəsində Qusulu kəndində olan ipək toxumaq işinə mükəmməl bələd olan və türk dili bilən övrət lazımdır. Hər gün, bayram günlərindən başqa, Nəzarətin Xeyriyyə şöbəsinə müraciət etməlidir.

*T-166*


***Müvəqqəti müdir:***
***Xəlil İbrahimov***

### TRANSLİTERASİYA İLƏ BAGLI QEYD VƏ ŞƏRHLƏR

***Sülh ətrafında***

"Hindenburq": qəzetdə "Gindenburq" kimi getmişdir.

***Qəzetələrdən***

"Şeyx Mahmud": qəzetdə səhvən "Şeyx Məhəmməd" getmişdir.

***Türkiyədə***

"Sultan həzrətləri": söhbət, Os-manlı imperiyasının sonuncu sultanı Məh-məd Vəhidəddindən (VI Məhməd) gedir.

"İşə bu nəzərlə baxmaq": qəzetdə "işə" yerinə "iştə" getmişdir.

Baqqallar tabaqçılar əleyhinə

"Olqinski və Nikolayevski": Bakıda, indiki Məhəmməd Əmin Rəsulzadə və İstiqlaliyyət küçələri.

***Xan elə belə olar***

"Zadə": "Azərbaycan" qəzetində bu imza Məmmədəli Sidqi Səfərova məxsus-dur.

***Mətbuat***

"Şah Abbaslar, Ağa Məhəmməd şahlar": 1587-1629-cu illərdə hakimiyyətdə olan Səfəvi şahı I Şah Abbas və Qacarlar dövlətinin 1789-1797-ci illərdə hakimiyyətdə olan ilk hökmdarı Ağa Məhəmməd şah Qacar nəzərdə tutulur.

***Açıq məktub***

"sajın": təxminən 2,1 metrə bərabər uzunluq ölçüsü.

"Külli nəfsin zaiqətül-mövti": "Quran"ın "Ənkəbut" surəsinin 57-ci ayəsi-nin bir hissəsi; mənası: "Hər bir canlı ölümü dadacaqdır."

***Bakı xəbərləri***

"Dostavər": ehtimal ki, "Düztahir" olmalıdır.

"qran": İranda bir müddət işlə-dilmiş gümüş pul.

***Bizə yazılar***

"Əkbər ağa Sadıqov": qəzetdə "Ələkbər ağa Sadıqov" getmişdir.

***Ermənistanda***

"Yağ 80 manat, qoyun əti 80 manat…": qəzetdə belə getmişdir: "Yağ 800 manat, qoyun əti 8 manat…"

# REGİONLAR

## "Conder"lər start xəttindədir

**Pambıq yığımına az qalıb. Fermerlər aylardan bəri min bir əziyyətinə qatlaşdıqları "ağ məhsul"u tədarük etməyə başlayacaqlar.**

Qeyd edək ki, bu il pambıqçılar üçün heç də asan olmamışdır. Yazda havaların qeyri-sabit keçməsi əkini müəyyən qədər ləngitmiş, nisbətən erkən əkilmiş sahələrdə isə bitkilərin normal inkişafını yubatmışdır. Lakin pambıqçı fermerlər ruhdan düşməmiş, təbiətin şıltaqlıqlarının gətirdiyi fəsadları aradan qaldırmaq üçün əzmkarlıq göstərərək bütün aqrotexniki tədbirləri vaxtında və keyfiyyətlə aparmışlar. Kultivasiya, ketmənləmə, yemləmə, suvarma işlərini lazımi səviyyədə həyata keçirmək, habelə ziyanvericilərə qarşı mübarizə tədbirləri sahələrdə bol məhsulun əmələ gəlməsinə şərait yaratmışdır.



Amma bu işlər elə-belə başa gəlməyib. Fermer sahəsini vaxtında suvarmaq üçün bəzən çöldə axşamlamalı olub, səhərini tarlada açıb. Gün çıxandan ulduzlar görünənə qədər pambıq kollarının nazını çəkib, qayğısına qalıb. Sahibkarların, becərmə ilə məşğul olan bütün heyətin bu dərəcədə əziyyəti hədər getməyib. İyul-avqust aylarında havaların isti keçməsi nəticəsində hər kolun üstündə kifayət qədər qoza yaranıb.

Neftçala rayonu üzrə cari il 6 min 735 hektarda pambıq əkilib. Əvvəlki illərdə olduğu kimi, indi də məhsulun ən azı 98 faizinin maşınlarla yığılması nəzərdə tutulub. "PRİME Cotton" şirkətinin filialı və "Aqroservis" ASC Sabirabad Regional Nümayəndəliyinin Neftçala bölməsi ilə birlikdə rayonda 32 "Conder" pambıqyığan maşını var. Onların hər biri təmir edilərək saz vəziyyətə gətirilib. İndi bu maşınlar fermerlərin, necə deyərlər, sahəyə çıxmaq barədə komandasını gözləyir.

"Aqroservis" ASC filialının qabaqcıl mexanizatorlarından Bəxtiyar Hüseynov, Heydər Həzərov, Qulam Rəsulov, Adil Qəfərov bu il də maşınlarını nümunəvi şəkildə saz hala gətiriblər. Sürücü-mexanizator H.Həzərov söhbət zamanı dedi:

- Amerika maşınına söz ola bilməz. Çox səliqəli və rahatdır. Ən isti havada kondisionerli kabinəsində oturub onu idarə etmək, məhsulu toplamaq adama xoş gəlir. Odur ki, hər gün orta hesabla 8-10 hektarın məhsulunu yığıb başa çatdıracağımıza əminik.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Əlilliyi olan şəxslər Qubaya səfər ediblər

**"İstedadlı Əlillər" İctimai Birliyi Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə "Əlilliyi olan şəxslər üçün mədəni turların təşkili" layihəsi çərçivəsində Qubada növbəti tədbir keçirilib.**



Qonaqlar Qubanın tarixi və mədəni məkanları ilə tanış olublar. Tədbir iştirakçıları həmçinin Quba Soyqırımı Memorial Kompleksini ziyarət ediblər. Ziyarətçilərə 1918-ci il hadisələri və kompleksin fəaliyyəti haqqında ətraflı məlumat verilib. Bildirilib ki, 2007-ci ildə Quba şəhərində tikinti məqsədilə aparılan qazıntılar zamanı təsadüfən aşkar edilmiş kütləvi məzarlıq 1918-ci ilin may ayında bolşevik adı altında quldur erməni dəstələri tərəfindən törədilmiş Qubanın müsəlman əhalisinin soyqırımının əyani sübutudur. Həmin ərazidə 2013-cü il sentyabrın 18-də Heydər Əliyev Fondunun dəstəyi ilə Quba Soyqırımı Memorial Kompleksinin açılışı olub.

Turun sonunda keçirilən konsert proqramına qatılan qonaqlar onlara göstərilən diqqətə görə əlaqədar təşkilatlara təşəkkürlərini bildiriblər.

Qeyd edək ki, tədbirin əsas məqsədi əlilliyi olan şəxslərin sosial və mədəni həyata fəal inteqrasiyasına dəstək olmaq, onların asudə vaxtlarının səmərəli təşkilini təmin etmək, yaradıcılıq və bacarıqlarını nümayiş etdirmələri üçün imkan yaratmaq, eləcə də inklüzivliyin cəmiyyətdə təşviqinə töhfə verməkdir.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Əmin-amanlıq, diqqət və firavanlıq

### Tərtərdə vətəndaş məmnunluğunun mayasıdır

**6-7 il əvvəl Tərtərin adı çəkiləndə gözlərimiz önündə gecə-gündüz müharibə şəraitində yaşayan bir bölgə canlanırdı. İnsanlar gündəlik işləri ilə məşğul olsalar da, bu adi həyatın arxasında daimi həyəcan, təlaş hissləri vardı. 30 ildən artıq bir müddətdə məkrli "qonaq"ların törətdikləri təxribatlar tərtərlilərə nələri yaşatmamışdı.**









Ancaq bütün bu ağrıların içində ümid sönməmişdi. Hər kəs inanırdı ki, bir gün haqq-ədalət Zəfər çalacaq. O gün gəldi. 2020-ci il sentyabrın 27-si ermənilərin törətdikləri təxribat xəbəri ilə başlasa da, bir şey hamı üçün aydın idi - bu işğalın, ədalətsizliyin sonu olacaq.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsindəki qələbəni Tərtər rayonu dağıntılar içində qarşıladı. Ancaq, bəlkə də, ölkədə bu xəbərə ən çox sevinən də elə bu rayonun sakinləri oldular.

Tərtərdə elə ev, elə ailə yoxdur ki, müharibədən hansısa zərbəni almamış olsun. Kimi torpaq uğrunda şəhid verib, kimi gənc övladını qazi kimi qarşılayıb, kimi isə alın təri, halal zəhməti ilə tikdirdiyi ev-eşiyindən olub. Elə buna görə də müharibədən ötən 6 il bütünlüklə rayonun bərpasına, iqtisadiyyatın möhkəmlənməsinə və ən əsası insanların aldığı mənəvi yaraların sağalmasına həsr edilib.

Savaş başa çatan kimi Prezident İlham Əliyevin sərəncam və tapşırıqları əsasında rayonun bərpasına başlanıldı. İlk növbədə insanların əmlakına, sahibkarlıq obyektlərinə, təhsil, səhiyyə ocaqlarına və digər yerlərə dəyən ziyan müəyyənləşdirildi. Bu zaman rayon rəhbəri Müstəqim Məmmədovun və bu sahədə çalışan komissiya üzvlərinin qarşısında duran ən başlıca vəzifə vətəndaş məmnunluğunun təmin edilməsi və dəyən ziyanın ədalətli qaydada aradan qaldırılması idi. Şükürlər olsun, əvvəlkindən də yaraşıqlı evlər tikildi, məktəblər, uşaq bağçaları bərpa olundu, küçələr abadlaşdırıldı. İndi Tərtərdə həyat yenə öz axarı ilə davam edir. Sağalmayan tək şəhid yaraları, gənc yaşlarında sağlamlığını itirən övladların dərdidir. O üzdən rayonda bu məsələlər bir an belə, diqqətdən kənarda qalmır, RİH-in başçısı Müstəqim Məmmədov hər zaman şəhid ailələrinin, qazilərin yanındadır. Səyyar qəbul-görüşlər keçirərkən həmin kənddə yaşayan şəhid ailələrini, qaziləri ziyarət edir, problemləri ilə maraqlanır, varsa, həllinə kömək göstərir.

Bu yaxınlarda o, Bəyimsarov kəndində olarkən Milli Məclisin deputatı Anar Məmmədovla birlikdə Vətən müharibəsi şəhidi, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenli Tural Məmmədlinin ailəsini ziyarət etdi. Qaynaq kəndində isə Birinci Qarabağ müharibəsinin əlili Tofiq Quliyevin ailəsinin qonağı oldu. Tofiq Quliyev Birinci Qarabağ müharibəsi zamanı Ağdərə uğrunda gedən döyüşlərdə yaralanıb. Dövlət tərəfindən ona III dərəcə əlillik təyin edilib. Qazi mənzil və avtomobillə də təmin olunub.

Görüş zamanı T.Quliyev bildirdi ki, II Qarabağ müharibəsindəki qələbəyə qədər onların kəndi ermənilərə lap yaxın məsafədə yerləşdiyi üçün 30 ildən artıq insanlar təhlükə altında yaşamışlar. İndi əmin-amanlıqdır. Hamının əli işə-gücə yatır. Kənd camaatı pay torpaqlarında həvəslə işləyir, əkib-biçir, mal-qaraya baxır. Kəndin siması da çox dəyişib, infrastruktur layihələr icra edilib. İndi kənd yaşamaq üçün daha rahat olub, qəsəbədən, rayon mərkəzindən geri qalmır.

M.Məmmədov Səhlabad kəndində keçirdiyi görüş zamanı Birinci Qarabağ müharibəsi şəhidi Mənsur Ağayevin anası Qəmzə Ağayeva evinin həyətində hamam tikintisi üçün kömək göstərilməsini xahiş etmişdi. Müraciətdən dərhal sonra şəhid anasının xahişinin yerinə yetirilməsinə başlanılıb. Bu diqqət onun könlünü ovudub. Əgər o, unudulmursa, deməli, onun Mənsuru da yaddaşlarda yaşayır.

Rayon rəhbərinin iş cədvəli nə qədər gərgin olsa da, yerlərdə olarkən o, kənd ağsaqqaları ilə də görüşüb söhbət etməyə, onların tövsiyələrini dinləməyə vaxt tapır, ehtiyaclarını, xahişlərini diqqətdə saxlayır. Yenikəndin ağsaqqalı Rafiq Əliyevlə görüş də bu baxımdan yaddaqalan olub. Ağsaqqal bu gün kənd təsərrüfatında tətbiq olunan yeniliklərdən, xüsusən də intensiv suvarmanın tətbiqindən, elmi nailiyyətlərdən cəsarətlə istifadə edilməsindən razı qaldığını bildirib. Deyib ki, aqrar inkişafla bağlı yeni dövlət proqramından məlumatlıdır və arzu edir ki, tərtərlilər bu işdə də birinci olsunlar. RİH başçısı isə öz növbəsində müasir dövrdə ailə ənənələrinin qorunmasının vacibliyini qeyd edib. Bildirib ki, ağsaqqallar öz nümunələri ilə yanaşı, məclislərdə, tədbirlərdə gənclərlə maarifləndirici söhbətlər aparmalıdırlar.

Rayonda vətəndaş məmnunluğunu yaradan səbəblərdən biri də "Şəhərsalma və Memarlıq İli" çərçivəsində abadlıq-quruculuq və təmir-bərpa işlərinin aparılmasıdır. Tərtər şəhərinin estetik görünüşünün müasir memarlıq üslubunda yenilənməsi, küçə və prospektlərin, yaşayış binalarının əsaslı təmiri istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər bir gün belə, səngimir. Şəhərin müasir infrastrukturunun formalaşdırılması məqsədilə Cavanşir küçəsində aparılan əsaslı təmir-bərpa işləri çərçivəsində köhnəlmiş bordürlər yeniləri ilə əvəz olunmuş, piyada səkilərinə asfalt örtüyü salınmışdır. Eyni zamanda ərazidəki kommunikasiya, elektrik, qaz və rabitə xətləri texniki təhlükəsizlik normalarına uyğun olaraq qaydaya salınmışdır. Hazırda küçə boyunca istinad divarları hörülür, qəzalı vəziyyətdə olan divarlar sökülərək yenidən tikilir, onlar aqlay və bəzək daşları ilə üzlənir. Paralel olaraq şəhərin 5 mərtəbəli 2 binanın giriş və fasad hissələrində əsaslı təmir işləri aparılır.

Bu günlər Tərtərdən daha bir xoş xəbər aldıq. Şəhərdə peşəkar həkimlərin fəaliyyət göstərdiyi və ən müasir avadanlıqlarla təchiz edilmiş "Tərtər Sağlamlıq Mərkəzi" fəaliyyətə başlayıb. Klinikada laboratoriya, ginekologiya, USM (ultrasəs müayinəsi), terapiya, stomatologiya, psixoterapiya və loqoped şöbələri var. Şəhid ailələri klinikada növbədənkənar müayinə və müalicə olunurlar.

Rayon əhalisi klinikanın açılışını əlamətdar hadisə kimi qiymətləndirir. Əvvəllər bəzi müayinə və müalicələr üçün qonşu rayonlara üz tutan tərtərlilər indi yeni klinikanın xidmətlərindən istifadə edirlər.

Uzun illərin ağırlığını çiyinlərindən atmış Tərtər gündən-günə gözəlləşir. Buna uyğun olaraq insanların həyatı da yaxşıya doğru daha sürətlə dəyişir. Ən əsası isə sülh və əmin-amanlıqdır. İnsanların məmnunluğunu, həyat firavanlığını təmin edən ən vacib şərt də elə budur.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## Gədəbəyin balı da adı ilə tanınır

**Qafqazda, o cümlədən Azərbaycanda arıçılıqla qədimdən məşğul olurlar. Bu tarix hətta VIII-IX əsrlərə gedib çıxır. X-XII əsrlərdə isə regionda arıçılıq daha da inkişaf etmişdir. Hətta istehsal olunan balın və arı məhsullarının bir hissəsi xaricə satılırdı.**



Bu gəlirli və xeyirli sahəyə ölkəmizdə indi də maraq çoxdur. Belə yerlərdən biri də Gədəbəydir. Rayonda Arısu, Arıqıran adlı kəndlərin olması bu yerlərdə arıçılığın qədim tarixindən xəbər verir. Təbii iqlimi, zəngin bitki örtüyü ilə əhatə olunmuş Gədəbəydə arıçılığın inkişafı üçün hər cür şərait var. Bu şəraitdən istifadə edən rayon sakinləri son illər arıçılığa daha çox maraq göstərirlər.

Gədəbəy Aqrar İnkişaf Mərkəzinin direktoru Asəf Nağıyev deyir ki, əvvəlki illərdən fərqli olaraq bu il arı ailəsinə baxan sakinlərin sayı xeyli artmışdır. Hazırda rayonda 13 mindən çox arı ailəsi var. Öyrəndik ki, keçən il arı ailələrindən 91 ton bal götürülmüşdür. İstehsal olunan balın satışında da heç bir problem olmur. Elə arıçılar var ki, öz məhsullarını elə qapıda satırlar. İstehsal etdikləri bal təmiz olduğundan müştərilərin özləri arıçıların qapılarına gəlirlər.

Belə arıçılardan biri Dəyirmandağ kəndinin sakini Rafiq Nağıyevdir. Rayon mərkəzindən o qədər də uzaqda olmayan kənddə yaşayan Rafiqin qapısından müştəri əskik olmur. Alıcılar bilirlər kimin balını alırlar.

Rafiq Nağıyev həm də rayon Arıçılar Assosiasiyasının sədridir. Özünün 80 arı ailəsi var. Bir neçə dəfə arıçılıq forumlarında iştirak edib, Türkiyənin Lalahan Universitetində təlimlərdə olub. Orada öyrəndiklərini yerli arıçılara çatdırıb.

Söhbət zamanı Rafiq dedi ki, arıçılıqda ən vacib məsələ onları xəstəliklərdən qorumaqdır: "Lakin təəssüflər olsun ki, bu sahədə problemlərimiz var. Dərman tapılmır. Tapılanda da keyfiyyətsiz olur, o səbəbdən çətinliklər yaranır".

Rayonda Rafiq kimi təcrübəli çoxlu sayda arıçı var. Hafiz Əhmədov 120 arı ailəsinə qulluq göstərir. Hər il bir tondan çox bal istehsal edir. Atası Məhəmməd kişi də bütün ömrünü arıçılığa həsr etmişdi. Atasının təcrübəsindən bəhrələnən Hafiz bu gün rayonda ən təcrübəli arıçılardan hesab olunur. O, bal istehsalından əlavə, hər il arılardan 20 kiloqram çiçək tozu, 0,5 kiloqram ana südü, 1 kiloqram propolis də götürür.

Arıçılıqda vacib məsələlərdən biri də damazlıq arıların yetişdirilməsidir. Bu işlə Qoşabulaq kəndində arıçı Daşqın Kazımov məşğul olur. Onun 138 arı ailəsi var. Rayon sakinləri onun yetişdirdiyi damazlıq arılardan razılıq edirlər.

Gədəbəydə təcrübəli arıçılar sırasında Arıqıran kəndinin sakini Yəhya İsgəndərovun da adı çəkilir. O, son illər bal istehsalında xüsusilə fərqlənir.

Hazırda bal mövsümüdür. Arılar təbiətin qoynunda min bir dərdin dərmanı olan bal toplamaqla məşğuldurlar. Bir azdan balın süzülməsinə başlanacaq. Gədəbəydə isə indidən arıçıların üzü gülür. Bilirlər ki, bu il də arılar bol məhsul verəcək.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## İsrafdan uzaq olaq

**Neftçalada Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi və "Kür-Xəzər" Xeyriyyə İctimai Birliyinin təşkilatçılığı ilə "Ənənələrə sadiqlik, israfdan uzaq" layihəsi çərçivəsində toy və yas mərasimlərində israfçılığın azaldılması və milli-mənəvi dəyərlərin qorunmasına həsr olunmuş maarifləndirici tədbir keçirilib.**

Tədbirdə çıxış edən "Kür-Xəzər" Xeyriyyə İctimai Birliyinin sədri və layihə rəhbəri Akif Kərimov mərasimlərdə həddindən artıq israfçılıq məsələsinə diqqət çəkərək xüsusilə yas mərasimlərinin mahiyyətindən uzaqlaşdırılmamasının vacibliyini bildirib. Yas məclislərində təşkil olunan təmtəraqlı süfrələr əvəzinə sadə yanaşmanın tətbiqini vacib sayan A.Kərimov həmin vəsaitlərin abadlıq, təhsil, yol və digər sosial infrastruktur layihələrinə yönəldilməsinin icma üçün daha faydalı olduğunu qeyd edib. Şadlıq mərasimlərindəki qida israfına da toxunan layihə rəhbəri vətəndaşları resurslardan daha qənaətlə istifadə etməyə çağırıb.

Kulturoloq Əbülfəz Babazadə cəmiyyətdə mənfi adətlərə qarşı yalnız təbliğatın kifayət etmədiyini, insanlarda mənəvi-mədəni immunitetin formalaşdırılmalı olduğunu bildirib. O, toyların maddi yükə çevrilməməli olduğunu, xarici təcrübələrdən milli dəyərlərə uyğun şəkildə yararlanmağın və yaslarda təmtəraq əvəzinə ehtiyacı olanlara əl tutmağın vacibliyini diqqətə çatdırıb.



"İnformasiya və sosial təşəbbüslərə dəstək" İctimai Birliyinin sədri Cəsarət Hüseynzadə isə mərasimlərdəki israfçılığın qarşısının alınmasının yalnız dövlətin deyil, bütün cəmiyyətin, ziyalıların və din xadimlərinin ortaq vəzifəsi olduğunu vurğulayıb. O, ehsanın əleyhinə olmadıqlarını, lakin onun ziyafətə çevrilməsinin və ailələrin borca düşməsinin yolverilməzliyini, imkanlı şəxslərin sadə məclislərlə nümunə olmalı olduğunu qeyd edib.

Çıxış edən digər ziyalılar, din xadimləri və ağsaqqallar da dəbdəbəli məclislərin cəmiyyətə vurduğu maddi-mənəvi zərərlərdən söz açıblar. Vurğulayıblar ki, israfçılıqla mübarizədə ilk növbədə nüfuzlu şəxslər nümunə göstərməlidirlər. Qeyd olunub ki, toylarda qida tullantılarının qarşısı alınmalı, yas mərasimləri isə nümayişkaranə təmtəraqdan azad edilərək ilkin mahiyyətinə qaytarılmalıdır.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb, mövzu ətrafında qarşılıqlı müzakirələr aparılıb.

***S.QUBADOĞLU,***
***"Azərbaycan"***

# Mahir vokal ifaçısı

**Müasir Azərbaycan incəsənəti sahəsində yaradıcılıq uğurları ilə seçilən sənətkarlardan biri də Prezident mükafatçısı, respublikanın Əməkdar artisti Fəridə Məmmədovadır.**

Fəridə Kamal qızı Məmmədova 29 sentyabr 1976-cı ildə Bakıda anadan olub. Bülbül adına orta ixtisas musiqi məktəbini bitirib, Üzeyir bəy Hacıbəyli adına Bakı Musiqi Akademiyasının fortepiano və solo oxuma fakültələrində təhsil alıb. Azərbaycanda vokalçıların "İlin vokalçısı" müsabiqəsində I, Vokalçıların Bülbül adına II Beynəlxalq müsabiqəsində III mükafata layiq görülən F.Məmmədova Almaniyanın Veyden şəhərində keçirilən Maks Reger adına Beynəlxalq müsabiqənin finalçısı olub.



Müğənni Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında çalışdığı müddətdə R.Mustafayevin "Vaqif" operasında Xuraman, M.Maqomayevin "Şah İsmayıl" operasında Gülzar, J.Bizenin "Karmen" operasında Mikaela, V.Mosartın "Cosi fan tutte" və "Fiqaronun toyu" operalarında Fiordilici və Qrafinya, C.Verdinin "İl Trovatore" və "Don Karlos" operalarında Leonora və Yelizaveta, R.Leonkavallonın "I Pagliacci" operasında Nedda, C.Puççini " Il Tabarro" ("Plaş") və "Gianni Schicchi" operalarında Giorgetta və La Ciesca, P.I.Çaykovskinin "Qaratoxmaq qadın" operasında Liza və s. obrazları yaradıb.

Fəridə xanım həm də geniş konsert fəaliyyəti ilə məşğul olur. Tez-tez klassik dünya və Azərbaycan bəstəkarlarının yaradıcılığından nümunələrlə müxtəlif simfonik, kamera orkestr və ansamblları ilə çıxış edir. Onun repertuarı barokko dövründən tutmuş muasir bəstəkarlarının əsərlərinəcən opera və kamera musiqisini əhatə edir. F.Məmmədova Almaniya, Fransa, İsveçrə, Avstriya, Hollandiya, Belçika, Çexiya, Türkiyə, Rusiya, Litva, Ukrayna, Qazaxıstan, Monqolustan və s. ölkələrdə konsert proqramları ilə çıxış etmiş, nüfuzlu beynəlxalq musiqi festivallarının (Beethovenfest - Bonn, young-euro-classic- Berlin, Culturescapes - İsvecrə, Türksoy Opera günləri, Aspendos festivalı - Türkiyə, Vilnius Mama jazz - Litva, Roaring hooves - Monqolustan, Musiqi alətlər teatrı, Prokofyev FEST - Moskva, Barsova və Maksakova adına Opera festivalı - Həştərxan və s.) iştirakçısı olmuşdur. Onun Qəbələ, Qara Qarayev müasir musiqi, M.Rostropoviç, Üzeyir bəy Hacıbəyli adına, "Zamanla üzüzə", "İpək yolu" və s. festivallardakı çıxışları alqışlarla qarşılanmışdır.

Müğənni yaradıcılığında kamera musiqisinə də kifayət qədər yer ayırır. Fəridə xanım tanınmış caz ustası Salman Qəmbərovla birlikdə musiqi tarixində ilk və hələlik yeganə təcrübə olan caz musiqisiylə klassik musiqinin sintezindən ibarət "Lieder Leaders" layihəsini ərsəyə gətirib. Almaniyada, İsveçrədə, Litvada və Bakıda böyük maraqla qarşılanan bu layihə Şubert, Maler, Bramsın bəstələrinin klassik vokal ifalarının cazla həmahəngliyini özündə ehtiva edən 11 kompozisiyadan ibarət minitamaşadır.

Fəridə xanımın iştirakçısı olduğu layihələrdən biri də Qara Qarayev festivalı çərçivəsində "Sevgi hekayətləri" layihəsidir. Layihədə pianoçu Gülşən Ənnağıyeva sadəcə müşayiətçi deyil, həm də iştirakçıdır. İdeya müəllifi Rauf Fərhadov, rejissoru Rauf Məmmədov olan bu layihə səhnəciklərdən ibarətdir. F.Məmmədova bu layihə ilə ötən il Moskvada Meyerxold adına Mərkəzdə və Pkokofyev festivalında çıxış edib və hər çıxış böyük alqışlarla qarşılanıb. Onun sənət uğurları sırasında Raxmaninov və Bramsın bəstələrindən ibarət professor Fərhad Bədəlbəyli ilə baş tutan konsertləri, görkəmli dirijor Kamal Abdullayevin 90 illik yubiley gecəsində çıxışı, Şimali Osetiyanın musiqiçiləri ilə rusiyalı dirijor Valeriy Xlebnikovun idarə etdiyi konsertdə Bakıda ilk dəfə olaraq Atsamaz Makoyevin "Beslan" simfoniyasında solo soprano partiyasını ifa etməsi, Maksakova adına Həştərxan Opera Festivalına ikinci dəfə dəvət olunması da var.

5 yaşından incəsənətə bağlanan Fəridə xanım musiqiçi ailəsində dünyaya göz açıb. Atası Kamal Məmmədov Şıxəli Qurbanov adına Musiqili Komediya Teatrının (indiki Musiqili Teatrı - red.) dirijoru olub. Bəlkə də Fəridə xanımın teatrı musiqi qədər sevməsi buradan qaynaqlanır. Özünün mətbuata açıqlamasında dəfələrlə qeyd etdiyi kimi, o, anasının tövsiyəsi ilə atasının məşğul olduğu sahəyə gəlib. İlk musiqi təhsilini Bülbül adına orta ixtisas məktəbinin fortepiano sinfində alıb. Beşinci sinifdə olanda vokal imkanları özünü daha qabarıq büruzə verməyə başlayıb. Elə o zamandan da gənc Fəridə vokalçı, opera artisti olmaq qərarına gəlib. 10 yaşından müstəqil olaraq italyan və fransız dillərini öyrənməyə başlayıb. Tanınmış musiqiçi Rauf Atakişiyevin məsləhəti ilə taleyini həmişəlik vokal sənətinə bağlayıb. Beləliklə, istisna qaydada konservatoriyaya (Bakı Musiqi Akademiyası - red.) qəbul olunub, Təhsil Nazirliyinin xüsusi qərarı ilə həm fortepiano, həm də vokal şöbəsində ödənişsiz təhsil alıb. Hər iki fakültəni qırmızı diplomla bitirib.

Konservatoriyanı bitirəndən sonra Fəridə xanım Tbilisidə Nodar Andquladzedən əlavə vokal dərsləri alıb. Bundan sonra Almaniyada olub, burada bilik və bacarığını daha da artırıb.

Müğənni ifalarında opera janrının çərçivələrindən kənara çıxmağa, çıxışını minitamaşaya çevirməyə üstünlük verir. Bəstəkarın yazdığını və özünün duyduqlarını ifadə etməyə çalışır. Mütəxəssislərin fikrincə, bu, çətindir, ümumiyyətlə, kamera janrında işləmək çox mürəkkəb prosesdir. Səhnəyə çıxıb sadəcə ifa etmək köhnəlmiş qaydadır. Əlbəttə, bu zaman əlavə ifadə vasitəsinə ehtiyac qalmadığı hallar da mövcuddur. Bu gün daha dinamik dövrdə yaşadığımız üçün ifaçıdan istedad tələb olunur ki, universal olmağı bacarsın, əsərə yaradıcı yanaşması ilə fərqlənsin.

Mahir vokal ifaçısı Fəridə xanımın fikrincə, opera ifaçılığında səsin qədrini bilmək çox önəmlidir. Əgər 35 yaşına kimi repertuar düzgün tərtib olunmasa, ən gözəl səs, ən müstəsna istedad belə, insandan üz döndərə bilər. Bir də "ulduz xəstəliyi"nə tutulmamaq çox vacibdir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Azərbaycan təmsilçisi 2-ci yerə layiq görülüb

**Qırğızıstanın Çolpon-Ata şəhərində VI Ümumdünya Köçəri Oyunları festivalında bir çox ölkələrin nümayəndələri bir araya gəlib. Festival çərçivəsində 300-ə yaxın fərqli janrları əhatələyən müsabiqələr keçirilib.**

Azərbaycan təmsilçiləri də ölkəmizi yüksək səviyyədə təmsil ediblər. Keçirilən müsabiqələr arasında "Köçmən ulduzları" beynəlxalq vokal müsabiqəsi xüsusilə seçilib. Amerika, İsveç, Rusiya və digər ölkələrin təmsilçiləri arasında Azərbaycanı Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Solo oxuma və opera hazırlığı kafedrasının IV kurs tələbəsi, müsabiqələr laureatı Pərvanə Nizam qızı Soltanova təmsil edib. Müsabiqə şərtlərinə əsasən, iştirakçılar mütləq şəkildə Qırğızıstan bəstəkarlarının musiqi nümunələrinə müraciət etməli idilər. Pərvanə Soltanova akademik vokalla estrada vokalı birlikdə özündə tərənnüm edən krossover janrında əsərə müraciət edərək iştirakçılar arasında seçilmiş və 2-ci yerə layiq görülmüşdür. Bu Azərbaycan vokal ifaçılıq məktəbinin uğurudur. Qeyd edilməlidir ki, Pərvanə Soltanova Azərbaycan Respublikasının Əməkdar artisti, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Ü.Hacıbəyli adına BMA-nın Solo oxuma və opera hazırlığı kafedrasının baş müəllimi İlham Nəzərovun sinfində təhsil alır.



***"Azərbaycan"***

# Neftçalanın Şirvanlı kəndində Xəzərin sahili təmizliyə çıxdı

**Neftçalanın Şirvanlı kəndi ərazisində yerləşən Müşfiq çimərliyində "Xəzəri qoruyaq!" adlı beynəlxalq sahilyanı təmizlik aksiyası keçirilib.**



Təmizlik aksiyası rayon icra hakimiyyətinin təşkilatçılığı, 3 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin, Regional İnkişaf İctimai Birliyi könüllülərinin və "EcoHub" ekoloji platforması könüllülərinin dəstəyi ilə baş tutub.

Aksiyanın əsas məqsədi Xəzər dənizinin və sahilyanı ərazilərin ekoloji vəziyyətinin yaxşılaşdırılmasına töhfə vermək, çimərlik ərazilərinin məişət tullantılarından təmizlənməsini təmin etmək, ətraf mühitin mühafizəsinə ictimai diqqəti artırmaq və ekoloji məsuliyyətli davranışın təşviq edilməsi olub. Eyni zamanda bu təşəbbüs əhali arasında Xəzər dənizinin ekosisteminin qorunmasının əhəmiyyəti barədə maarifləndirmənin gücləndirilməsinə və ekoloji mədəniyyətin formalaşdırılmasına xidmət edib.



Təmizlik aksiyası çərçivəsində Müşfiq çimərliyinin ərazisi məişət tullantılarından təmizlənib, toplanan tullantılar çeşidlənərək ərazidən daşınıb.

Aksiyada iştirak edən könüllülər Xəzər dənizinin ekoloji təhlükəsizliyinin qorunması, sahilyanı ərazilərin təmiz saxlanılması və təbiətə qayğı ilə yanaşılması istiqamətində ictimai həmrəyliyin vacibliyini vurğulayıblar.

Qeyd edək ki, bu cür ekoloji təşəbbüslərin keçirilməsi Xəzər dənizinin və onun sahilyanı ekosistemlərinin mühafizəsinə, tullantıların ətraf mühitə mənfi təsirinin azaldılmasına və cəmiyyətin ekoloji məsələlərə həssaslığının artırılmasına mühüm töhfə verir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Hindular Eyfeli ziyarət zamanı orada çalışan qadın işçiləri görmək istəməyiblər

**Həftəsonu hindu dini nümayəndə heyəti Eyfelə gəlməzdən əvvəl qüllənin qadın işçilərindən gözə görünməmələri tələb edilib. Bu, qalmaqala səbəb olub. Yalnız abidənin işçiləri deyil, həm də siyasətçilər qəzəbləniblər. Milli Assambleyanın sədri bildirib ki, Fransada heç kim qadınlara görünməz olmağı deyə bilməz.**

Ötən şənbə günü "Bochasanvasi Akshar Purushottam Swaminarayan Sanstha" (BAPS) adlı hindu təşkilatı ilə əlaqəli təxminən 100 nəfərlik bir qrup Paris abidəsini ziyarət edib. Həmkarlar ittifaqının nümayəndəsi Diana Davoine Fransa televiziyasına bildirib ki, "nümayəndə heyətinin səfəri zamanı qadınlardan iş yerlərini kişilərə təhvil vermələri tələb olunub". Eyfel qülləsinin əməkdaşları açıqlamasında "qadın işçilərin cinsi mənsubiyyətlərinə görə işdən uzaqlaşdırılmasına, dəyişdirilməsinə və görünməz hala gətirilməsinə səbəb olan peşəkar təlimatlar" adlandırdıqları tapşırıqları qınayıblar.

Abidəni idarə edən SETE şirkəti hindu nümayəndə heyətinin dini səbəblərə görə "qadınlarla qarşılıqlı əlaqəni" məhdudlaşdıracaq bir səyahət təşkil olunmasını xahiş etdiyini bidirib və əlavə edib ki, bu cür şərtlər qəbul olunmamalı idi.

Bazar ertəsi yayımlanan açıqlamada Parisdəki BAPS təşkilatı qaldırılan məsələlərə son dərəcə ciddi yanaşdığını və yaradılmış hər hansı bir ağrı və ya narahatlığa görə üzr istədiyini bildirib.

BAPS öz veb saytında özünü hindu dəyərlərinə əsaslanan "cəmiyyətin yaxşılaşdırılmasına sadiq olan könüllülərin mənəvi icması" kimi təsvir edir. Təşkilat London, Los-Anceles və Sidney də daxil olmaqla dünyanın bir neçə irişəhərlərində böyük məbədlər açıb.

Sosial media "X"də paylaşım edən Paris meri Emmanuel Qrequar, Eyfel qülləsi işçiləri arasında baş verən qəzəbdən xəbərdar olduğunu və bu cür şərtlərə razılaşmağın qəbuledilməz olduğunu vurğulayıb. O, "bunlar mənim dəyərlərim deyil, hər kəsin qadın və kişi arasında fərq qoymadan sərbəst hərəkət edə biləcəyi Eyfel qülləsinə rəhbərlik etməli olan dəyərlər də deyil", - deyə yazıb və hadisə ilə bağlı araşdırma başladacağını əlavə edib.

Milli Assambleyanın Sədri Yael Braun-Pivet də hadisəni qınayıb: "Qadınlara xarici qonaqların tələblərini ödəmək üçün kənara çəkilmələri deyildiyini qəbul etməkdən imtina edirəm. Qonaqpərvərlik heç vaxt dəyərlərimizdən imtina etmək demək deyil. Fransada qadınlar ictimai həyatda tam iştirak edirlər. Heç kim onlara görünməz olmağı demir". İfrat sağçı "Milli Birlik" siyasi partiyasının lideri Marin Le Pen isə deyib: "Fransada qadınların mövcudluğunun "məhdud" olmasını heç vaxt qəbul etməyəcəyik".

Eyfel qülləsinin veb saytında abidənin bazar ertəsi müstəsna hallar səbəbindən bağlandığı bildirilib. Artıq bilet alan ziyarətçilərə elektron poçtlarını yoxlamaları tövsiyə edilib və hər hansı bir narahatlığa görə üzr istəyiblər.

Son məlumata əsasən, çərşənbə axşamı Eyfel ziyarətçilər üçün yenidən açılıb.




***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Bəzi yerlərdə yağış yağacaq

**Azərbaycanda bu günə gözlənilən hava şəraiti açıqlanıb.**

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gündüz bəzi yerlərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi səhər cənub-şərq küləyi ilə əvəzlənəcək.



Havanın temperaturu gecə 16-18, gündüz 22-26 dərəcə isti olacaq. Atmosfer təzyiqi 764 millimetr civə sütunundan 762 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-75, gündüz 55-60 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi yerlərdə qısamüddətli leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman müşahidə ediləcək, şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 14-18, gündüz 23-28, dağlarda gecə 7-12, gündüz 15-19 dərəcə isti olacaq.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

## ALLAH RƏHMƏT ELƏSİN!

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin kollektivi Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin baş idarə rəisi general-mayor Anar İsmayılova atası

**MÜSLÜM İSMAYILOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidmətinin rəhbərliyi Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin baş idarə rəisi general-mayor Anar İsmayılova atası

**MÜSLÜM İSMAYILOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3318
Sifariş 1149

Qiyməti 60 qəpik